www.kitabxana.net
Milli Virtual Elektron Kitabxana

**“Çağdaş Azərbaycan bədii nəsri”: N 01 (38 - 2016)**

Amid Əlioğlu

# “İntihar edənlərin qatili”

Roman

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

**YYSQ – 2016**

06.01.2016
Yeni Yazarlar və Sənətçilər Qurumu
www.yysq.org

**www.kitabxana.net**

## Milli Virtual-Elektron Kitabxananın təqdimatında

Bu e-kitab Yeni Yazarlar və Sənətçilər Qurumunun **"Çağdaş Azərbaycan bədii nəsri"** ədəbi-kulturoloji layihəsi çərçivəsində təqdim edilir. Elektron kitab N 01 (31 - 2015)

**Kulturoloji layihəni maliyyələşdirən qurum:**

**YYSQ - http://www.yysq.org**

# Amid Əlioğlu

# "İntihar edənlərin qatili"

Roman

Redaktə və bütün hüquqlar müəllifə məxsusdur.

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

**Bakı, YYSQ – 2016**




# DİQQƏT

***Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsin şamil olunmur.***

# ÖN SÖZ
## Mistik reallıq: intiharlar...

Amid Əlioğlu bədii söz sənətimizdə ən yeni ədəbi nəslin maraqlı nümayəndəsi olaraq klassik ədəbi-estetik texnologiyalar ilə çağdaş virtual – İnternet, yaxud şəbəkə ədəbiyyatının sərhədində özünə prozaik cığır açan gənc yazarlarımızdandır. Bir kulturoloji yazımda da göstərdiyim kimi, XX əsr və XXI əsrin ilk əvvəli Azərbaycan ədəbiyyatının tanınmış imza sahiblərinin yaratdıqlarına geniş mənada nəzər salıb təsnifatlandırsaq, bu ədəbi nəslin üzvlərini “virtualist”lər adlandırmaq mümkündür.

Ədəbiyyatımızın inkişafında “klassiklər-mühafizəkarlar” (M.Hadi, H.Cavid ...) “mollanəsrəddinçilər” (Mirzə Cəlil, M.Ə.Sabir...), “romantiklər” (A.Şaiq, Ə.Cavad, M.Müşfiq...), “yenilikçilər” (S.Rüstəm, M.Cəlal, S.Rəhimov...), “ənənəçilər” (Ə.Vahid kimi Şərq poetik-estetik texnologiyalarına üstünlük verən əruz-qəzəlçilər...), “sosrealistlər” (M.İbrahimov, S.Vurğun, M.Rahim...), “əllincilər” (İ.Hüseynov- Muğanna, İ.Əfəndiyev...), “modernistlər” (R.Rza, Ə.Kərim...), “altmışıncılar”

(Anar, Elçin, V.Səmədoğlu, Fikrət Qoca...), yetmişincilər (R.Rövşən, M.İsmayıl, Z.Yaqub, M.Süleymanlı...), “səksənincilər” (S.Rüstəmxanlı, V.B.Odər, R.Behrudi, A.Həsənli, A.Cəmil...), “doxsanıncılar” (O.Fikrətoğlu, M.Cəfərli, M.Köhnəqala, R.Tağı, E.Hüseynbəyli...), “postmodernistlər” (R.Qaraca, H.Herisçi, A.Yaşar...), “ikiminincilər” (özüm də daxil olmaqla, S.Babullaoğlu, G.Anarqızı, Ə.Qoşalı, Q.Ağsəs, İ.Fəhmi, Z.Əzəmət, Aqşin...), “ən yeni – virtualistlər” (Ə.Əlioğlu, Qismət, Fərid...) kimi ədəbi nəslin nümayəndələri yaradıcılıq uğurlarıyla fəal iştirak ediblər...

Baxın, bu mənada Amid Əlioğlunun da daxil olduğu “virtualist”lər estetik qrupu – gənc kreativ nəslin nümayəndələri özlərinin rəngarəng, sintetik yaradıcılıq axtarışlarıyla bədii söz sənətimizə tamam fərqli bir estetik-realistik hava gətirməkdədirlər. Öz fərdi yaradıcılıqlarında real həyatın virtual formasının sürətli gəlişmələrini – zəmanənin diktəsindən irəli gələn konkretlik, eyni zamanda, əhatəli informativ məlumatlılıq, kəskin kreativ-ədəbi trendlər yaratmaq kimi cəhətləri ilə seçilən “virtualist”lərin, eləcə də A.

Əlioğlunun İnternetdən – şəbəkə ədəbiyyatından klassik bədii söz sənətinin həzin romantizminə, estetik gözəlliyinə, yaradıcılıq əlvanlığına, düşüncə obrazlılığına, bənzərsiz müəllif dəst-xəttinə, bir sözlə, keçmiş bədii texnikaya qayıdandan sonra "oralarda" yubanmadan, tez onu adlamaqla geri dönmək bacarığına heyran qalmamaq, sadəcə, mümkün deyil...

Amid Əlioğlunu da sadaladığım cəhətlərinə görə oxucularını heyrətləndirməklə ədəbi prosesə yeni rəng qatmaq istəyən bu fərqli ədəbi nəslin çılğın kreativlərindən saymaq mümkündür. Bu istedadlı gənc qələm sahibi şeirləri, hekayələri, miniatürləri, fəlsəfi pritçaları, sosial şəbəkələrdəki fikirləri, status və publistik yazılarıyla imzasını təsdiqləməyə çalışdığı bir vaxtda qəfildən maraqlı bir irihəcmli bədii nəsr əsərini ədəbi gündəmə gətirir: nə qədər sakit görünsə də, bir o qədər də iddialı, söz sənətində, ədəbi-mədəni prosesdə "mən də varam" əzmiylə.

Boynuma alıram ki, uzun müddət bədii yaradıcılıqla məşğul olan bir şəxs kimi, şəxsən mən belə "ədəbi risk"ə getməzdim. Axı ən yeni ədəbiyyatda da sənət "bəxti" hər kəsin üzünə asanca

"gülmür", ədəbi mühitimizdəki mürəkkəb proseslər, söz sənəti cameəmizdəki qruplaşmalar, dəstəbazlıq, "xəttə düşmək" kimi incə tərəflər ən istedadlı yazıçının belə əksər hallarda kölgədə qoya, arxaya ata bilər. Zatən tarix boyu, elə indinin özündə də böyük ədəbiyyatda, dünya ədəbi-kulturoloji proseslərində sadalanan cəhətlər hökmranlıq edib...

Gənc nasirin oxuculara təqdim olunan "İntihar edənlərin qatili" ilk ənənəvi – kağız kitabındakı (bayaq da qeyd etdiyim kimi, ən yeni nəslin nümayəndələri öz əsərlərini əksər hallarda heç "mürəkkəbi qurumamış", yaxud indiki dövrlə ifadə etsək, kompyüterə yığılandan sonra müəllif tərəfindən ikinci dəfə oxunub redaktə - korrektə etməmiş İnternet saytlarına, sosial şəbəkələrə, bloqlarında yerləşdirirlər...) eyniadlı modern-virtual əsərini romaniçi hekayələr də saymaq mümkündür, eyni zamanda, bir qəhrəman ətrafında baş verən hadisələrin magik proza formasında, vahid şüur axınına tabe edilmiş ziqzaqvari süjet xəttinə malik roman da. Maraqlıdır ki, həmyaşıd yazarlara rəğmən, A.Əlioğlu bu əsəri araya-ərsəyə çıxarana qədər qəribə bir "art-PR" aksiyası keçirdi: romanını gizli şəkildə

qələmə aldı, haqqında nə ənənəvi mətbuatda, nə ədəbi mühitdə, nə İnternetdə, nə də sosial şəbəkələrdə bu barədə səs-küylü açıqlamalar yaydı. Feysbuk profilində romandan bəzi qısa fikirlər və balaca parçalarla elektron dostlarını, virtual oxucularını və izləyicilərini, bir də mənim kimi yaxın tanışlarını intizarda saxlamağı bacarmaqla, əslində Qərb ölkələrindəki iri nəşriyyat-satış şəbəkələrinin “reklam” texnologiyalarının bir sıra cəhətlərini ədəbi prosesimizə gətirmiş oldu...

“İntihar edənlərin qatili” əsərində gənc nasir oxucunun marağı, bir az da irəli gedib belə demək mümkünsə, psixo-art əhvalıyla qəribə - magik üslubu, axıcı - rəvan dili, mətndaxili gedişatla, real həyatın dibindən gələn mistik hadisələrlə heyrətləndirməyi bacarıb. Ayrı-ayrı fəsillərə bölünən, eyni qəhrəmanın müxtəlif situasiyalarda başına gələnlər fonunda oxucularına son illərin real və bir qədər də i-real görünən hadisələrini nəql edən müəllif daha çox cəmiyyət ilə fərd arasındakı əzəli münaqişələrə diqqəti yönəltməyə çalışır. Bu isə öz növbəsində, əsəri daha canlı edir, təsvir olunanların real həyata

bağlayan tərəfləri ilə oxucunu düşünməyə vadar edir...

Əsər səkkiz intihar hadisəsinin dolaşıq, mistik ensiklopediyası kimi də oxuna bilər, eyni zamanda bir şəxsin həyatla bağlı çarpışmalarının, düşüncələrinin toplusu kimi də. Öz içində əsl sivil, mədəni insan ruhu yetişdirən zəmanəmizin insanına hər cür əclaflıqlar, yalanlar, saxtakarlıqlarla dolu həyatda yaşamaq asan başa gəlmir. Baş qəhrəmanın – Azərin öz daxilindəki romantika, saflıq, insanlara sevgi ilə ətrafdakı reallıqların acı həqiqətləri toqquşanda intiharlar baş verir: insanların, zamanın, dünyanın və şəxsiyyətin intiharı. Həyata möcüzə, sirr kimi baxmaq ayrı bir məsələdir, ətraf mühitin, cəmiyyətin sıxışdırdığı, anlamaq iqtidarında olmadığı fərdin son mübarizə vasitəsi intihardır, elə bir həyati silah ki, ondan yalnız bircə dəfə yararlanmaqla ömrünə də son qoymaq olar, cəmiyyətdən də intiqam almaq mümkündür...

Müəllifin təbirincə ifadə etsəm, "...özünü onların yerinə qoymaqla, səkkiz dəfə qəlbən, doqquzuncu dəfə isə az qala, cismən öləcəkdi...". Eyni zamanda yazıçı bu əsəri ilə cəmiyyətimizə,

ətrafdakılara sərt ismarıclarını da ünvanlayır: fərdi hərtərəfli sıxmaqla, hansısa sahədə fitri istedadı olan şəxsi hamıya – kütləyə qatmaqla dünyanın sonunu yaxınlaşdırmaq nəyə lazımdır?!.

Amid Əlioğlunun bu maraqlı kitabını əlinə alıb oxumağa başlayan, əsas qəhrəmanla səkkiz ömür yaşayan oxucu, əsərin adındakı müəmmadan başlayaraq, ta sonuna qədər, həvəslə, bir qədər də mistik aurada mütaliə zövqü alacaq. Gənc müəllifə və dostum Amidə isə yeni-yeni yaradıcılıq uğurları arzulamaqla, oxucunu kitabla baş-başa buraxır, yazımı əsərdən bir kiçik parçayla yekunlaşdırıram: "...yaxşı olacaq. Pis günün ömrü az olur, Bəşirov, eşitməmisən? Ən sonuncu an yaşansa da, yaxşı saniyə pis illəri unutdurur..."

**Aydın Xan Əbilov,**
*Yeni Yazarlar və Sənətçilər Qurumunun sədri,*
*"Ədəbiyyat qəzeti"nin şöbə redaktoru,*
www.kitabxana.net – *Milli Virtual-Elektron Kitabxananın yaradıcısı-rəhbəri, yazıçı-kulturoloq*

*Dostlarım, indi mən sizə böyük bir şey söyləyəcəyəm. Əsla qiyamətin qopmasını gözləməyin, o hər gün qopmaqdadır.*

***fransız yazıçısı və filosof Alber Kamyu***

Mən bu sətirləri məhbəsdən yazıram. Əmin ol, dostum, əgər sən bunları oxuyursansa, deməli mən, çox güman ki, həyatda yoxam. İnan, bunları oxuduğun an, mənim kimi minlərlə insan üçün ömür bitmiş olacaq. Elə bu an kimsə azadlığı üçün hayqıracaq, kimsə ədalətli olduğunu düşünəcək, kimsə haqsızlığa tab gətirməyərək... Haqsızlıq?! Axı bu dünyada hamı haqlıdır, ən azından özünə görə...

"Cəmiyyət Məcəlləsi"nin birinci maddəsi ilə ömürlük azadlıqdan məhrum edilmişəm. Neçə yaşım var, nə müddətdir buradayam, belə şəraitdə daha nə qədər ola biləcəm, heç özüm də bilmirəm. İnanmayacaqsız, amma bu məhbəs harada yerləşir, neçə "otaq"lıdır, məndən başqa kimlər var, hansı dildə danışırlar, haralıdırlar, ümumiyyətlə, buraya necə və kim tərəfindən gətirilmişəm, onu da bilmirəm.

Dörd tərəfi nəm divarla əhatə olunmuş qaranlıq bir yerdəyəm. Hərarət həmişə eyni olur deyə, fəsilləri də ayırd etmək mümkün deyil. Buradakı yeganə işıq tavana bitişik kiçik nəfəslikdən içəri düşən - günəş şüasına oxşar işığın əksidir. Günəş şüasına oxşar dedim, çünki mən burada olandan bu yana həmin nəfəslikdən o işıq elə eyni bucaq altında düşür.

Ara-sıra açılan qapıdan təpədən-dırnağa qədər qara geyinmiş iki nəfər daxil olur. Hər ikisi qollarımdan yapışıb, bir kəlmə belə danışmadan məni qaranlıq dəhlizlə zülmət yerə aparırlar. Elə həmin an səssizliyin dibinə çökmüş sədalar yüksəlməyə başlayır. Sağ və sol kameralardan eşidilən başa düşmədiyim sözləri, qışqırıqları və

atılan müxtəlif əşyaları anlamaqda çətinlik çəkirəm. Apardıqları yer haradırsa, ucsuz-bucaqsız məkana bənzəyir. Nə qədər uzaqlaşsam da, əlim-ayağım heç yerə dəymir. Bunu elə ilk dəfə yoxlamışdım.

Mərkəzidir, küncüdür, sonudur, yaxud əvvəlidir bilmirəm, amma həmin sonsuzluğun, sadəcə bir yerində yuxarıdan asılmış su borusu, güzgü, üzqırxan maşın və uzunluğu təxminən bir santimetrə bərabər olan şam ilə təchiz edilmiş "guşə" var. O "xidmətlərdən" şam sönənə qədər istifadə etməliyəm. Əvvəllər bu vasitələrdən maksimum yararlanmağa çalışsam da, hazırda çox nadir halda gərəyim olurlar. Çünki nədənsə üzümə tük çıxmır, əl-üzümü də yumağa ehtiyac qalmayıb sanki.

Gündə üç dəfə, qeyri-standart vaxtlarda ətəyi yerdəki nəmişlikdən pas atmış dəmir qapının altından bir fincan soyuq çay, içinə azca yağ atılmış qaynar su ilə dolu aliminium kasa və bir də zəhləm getmiş qarabaşağı elə itələyirlər ki, onları dadmaq çox vaxt adama heç qismət olmur. Dəqiq vaxtını bilsəm əgər, qapının yanında gözləyər, onları yerə dağılmadan götürərəm bəlkə də. Hətta bir dəfə bütün günümü orada oturmaqla keçirdim. Amma həmin gün lənətə

gəlmiş qapının altından soyuq havadan başqa, ümumiyyətlə, heç nə gəlmədi.

Qısası, burada ürəyimdən keçəni istədiyim vaxt almaq şansım yoxdur. “Onlar” istədiyi üçün, istədikləri yerdə, istədikləri şəraitdə yaşamaq məcburiyyətindəyəm. Dəyişən bir şey yoxdur əslində. Bura gətirilməmişdən öncə də “həyat”ım belə idi.

Odur ki, yeməklə bağlı fikirləşmirəm artıq. Sidiyimin də, nəcisimin də qoxusuna öyrəşmişəm. Baxmayaraq ki, burda heç bir sifarişi veclərinə almırlar, amma bir istəyimi yerə salmadıqları üçün onlara minnətdar oldum, desəm, təəccüblənməyin. Bəli, bəli. Onlara minnətdaram. Çünki hazırda bu sətirləri yazdığım kağızları və qələmi onlar mənə veriblər. Kağızlar yazacaqlarımı əks etdirməyə yetəcək, zənnimcə. Yetməsə belə, tualet kağızı kimi verdikləri qəhvəyi rulon kağızlara yazmağa məcbur olacağam yəqin. Onsuz da onlardan, demək olar ki, istifadə etmirəm. Daha doğrusu, istifadəyə gərək qalmır. Qələmimin də ki, içliyi bitsə əgər, qanımı doldurub yazacam. Nəyin bahasına olursa olsun, mən bu yazını axıra kimi yazacam! Ən azından bunu yazana qədər yaşayacağıma söz verirəm...

Bir an düşünürəm ki, məni bura salanlar əziyyət verdiklərini sanırlar. “Hamam”ı ülgüc əvəzinə üzqırxan maşın ilə təchiz etmələri mənə hörmət nümayişi deyil hər halda. Həyatımdan bezib həmin ülgüclə özümə xəsarət yetirə biləcəyimi güman edirlər (Çox “təsirləndim”). Bura salmaqla, əslində, məni xilas etdiklərindən xəbərləri yoxdur bədbəxtlərin. Mən həyatımdan onların əhatəsində olanda bezmişdim. Eyniliklərindən süniliklərinə, tərzlərindən fərzlərinə, şöhrətpərəstliklərindən qeybətpərəstliklərinə, inanclarından “qazanc”larına, oyunlarından doyumlarına, yalanlarından dolanlarına qədər hər şeylərindən bezmişdim. Bezmişdim...

Səkkiz dostum vardı - yaxından tanıdığım səkkiz şəxs. Yenə də inanmayacaqsız, amma hazırda özümü çox xoşbəxt hiss edirəm. Ona görə ki, onlar haqqında yazıram. Dəqiq, ona görə ki, bu kağız və qələm var. Məhz ona görə ki, bu dəqiqə heç bir dərdim yoxdur. Tıxaclarda keçirdiyim əsəbim, müdirin ayrı-seçkiliyinə dözmək məcburiyyətim, qonşudan geri qalmamaq üçün dəridən-qabıqdan çıxma çabalarım da yoxdur. Ən əsası, alverçilərin əhatəsində deyiləm artıq. Bəli, alverçilərin! O

insanlar ki, yaşamları boyunca ən azından bir dəfə də olsun yalan alıb, yalan satıblar...

Qeyd etdiyim kimi, öz dostlarım haqqında yazacam. O insanlar ki, tək ortaq dostları mən idim. Bir-biriləri ilə tanış etmək imkanım olmasa da, onları tanıdığım üçün özümü dünyanın ən şanslı insanı sayıram. Yaşca məndən kiçiyi də vardı, böyüyü də. Doğuluşdan ölümə kimi bir həyatı müxtəlif yaşlarda görə bildim onların sayəsində. Ona görə ki, onların hamısının xarakteri, xüsusiyyəti demək olar eyni və məni də onlarla birləşdirən bəlkə bu idi. Onlarda sanki özümü, özümdə isə onları görürdüm. Onlardan başqa məni, məndən başqa isə onları heç kim anlamırdı. Həyatlarının çox acılı-şirinli vaxtlarını bir yerdə yaşadıq. Hətta dəfələrlə bir yerdə hansısa hadisəni xatırlayanda, təəccübləndiklərini sezirdim. Hərdən məni onların yanında olmadığıma inandırmağa çalışsalar da, bu, mümkün olmurdu. Çünki həmin vaxt, həmin hadisələrdə onlarla birlikdə olduğumu sübut edə bilirdim.

Çox təəssüf ki, onların hamısı gözümün önündə tərki-dünya oldular. Sonuncusu öləndən sonra gözümü burada açdım. Deyilənə görə, onları elə mən

öldürmüşəm. Gülməlidir. İndi bu cümləni yazanda belə, gülümsəyirəm...

# BİRİNCİ HİSSƏ

## DÖRD BACININ BİR QARDAŞI...

*Həyatının ən önəmli iki günü:*
*1. Doğulduğun gün*
*2. Niyə doğulduğunu anladığın gün*
***Amerika yazıçı Mark Tven***

Cavidan dünyaya gələndə evin sayca beşinci övladı idi. Amma bu "gəliş" əvvəlki gəlişlərdən deyildi. Sanki uzun illər həsrəti çəkilən ilk övladın dünyaya gəlişi kimi qeyd olunurdu. Bu münasibətlə təşkil edilən qonaqlıqlarda müxtəlif hədiyyələrə rast gəlmək olurdu: Qurbanlıq quzudan tutmuş, birmetrlik al-qırmızı xaraya qədər. Özündən böyük dörd bacısının olmasına baxmayaraq, əksəriyyət daha çox Cavidanın gəlişinə sevinirdi. Hətta eşitdiyimə görə, dördüncü qızdan sonra anası daha bir qız uşağı

dünyaya gətiribmiş. Amma o körpə yaşamayıb, ya da... Nəisə.

Beləcə, ata və ananın "əziyyəti" ilə beş qızdan sonra dünyaya gələn körpə, heç nəyin fərqində deyildi, əslində. Nəinki ata-anasının, hətta nəslinin sevinci sayılan Cavidanın valideynlərinin el içindəki nüfuzu onun gəlişini bir az da hörmətli etmişdi. Evləri hər gün qonaq-qara ilə dolub-daşar, təbriklərin ardı-arası kəsilməzdi. Hər gün ziyafət - yeyib-içmək məclisi, hər an sağlıqlar... Bir dəqiqədən sonra nə olacağını bilməyən insanlar Cavidanın məktəbi, universiteti, işi və ailə həyatı haqqında proqnozlar verirdilər. Allahın haram buyurduğu şərabı, sanki "O" göydə imiş kimi, bacardıqları qədər yuxarı qaldıraraq arzular diləyirdilər. Hamı da bir-birinin ardınca "amin" söyləyərək guya öz səmimiliklərini nümayiş etdirirdilər. Təşrif buyuran hər qonağın ağzından "Gözün aydın, ay Fazil, gözün aydın, ay Sevda!" sözlərini eşitməmək qeyri-mümkün idi.

Özü də bütün bunlar ailənin digər dörd qız övladının gözləri önündə baş verirdi. Bəli Şəbnəmin, Lalənin, Samirənin, Xatirənin gözləri önündə. Fəqət burada heç kim qeyri-adi bir şey görmürdü. Heç kim

düşünmürdü ki, bu ifrat ayrı-seçkilik qızların kövrək qəlbinə toxuna bilər. Heç ağıllarına da gətirmirdilər ki, gələcəkdə nəinki bu qızlar, hətta öz qızları "Kaş oğlan doğulaydım!" - deyərək Allaha şikayətlənəcək və dünyaya ancaq oğlan övladı gətirmək istəyəcəklər. Beləcə, Allahın lütfünü heçə sayaraq günaha batmaq adət halını alacaq: qız uşaqlarını elə ana bətnindəcə tələf etdirməklə övlad qatili olacaqlar. İstəyə çatmaq üçün isə qətllərin sayı durmadan artacaq. O yerə qədər artacaq ki, anlı-şanlı oğlan övladı nəhayət, dünyaya göz açacaq. Min bir əziyyətlə böyütdükləri o oğlan övladı üzlərini qara edəndə, başlarını aşağı əydirəndə inanmaq istəməyəcəklər ki, bu, məhz vaxtilə bətnlərində qətlə yetirdikləri körpələrin cəzasıdır.

Cavidan ilk dostum olub. Aramızda dörd-beş yaş fərq olmasına baxmayaraq, yaxın dost idik. Qonşuluqlarında yaşayırdılar deyə, onu tez-tez əmimgildə görürdüm. Əmimin həyat yoldaşı onu evə gətirər, doyunca oynadardıq. Çox şirin olmağı ilə yanaşı, heç kimi incitməməyi ilə xüsusi seçilirdi Cavidan. Ona o qədər öyrəşmişdimsə, hər gün

dərsdən sonra əmimgilə gedər, onun səndələyə-səndələyə mənə tərəf gəlməsindən zövq alardım. Təzə-təzə dil açanda da, ilk olaraq, mənim adımı səsləndirməsi, bacıları ilə yanaşı, qohum-əqrəbasının yaman qısqanclığına səbəb olmuşdu. Hətta bir neçə dəfə qapılarından geri qayıdası olmuşdum. Cavidanın səsini eşitdiyim halda bacısının mənə onun yatdığını deməsi hallarını hələ də xatırlayıram.

Bacıları onu çox istəyirdilər. Baxmayaraq ki, Cavidanla bağlı məsələlərdə haqları daima pozulurdu, amma yenə də onu çox istəyirdilər. Sinif yoldaşlarına, rəfiqələrinə onunla bağlı saysız-hesabsız hadisələr danışır, hər təzə sözünü, yarımçıq cümləsini az qala yeni elmi tapıntı kimi müzakirə edirdilər. Qızlar evdə hansısa əşyanı sındıranda qınanmaları ilə yanaşı, Cavidanın ehtiyatsızlığından bir şey baş verəndə də danlanılırdılar: “Bu əşya orada olmalı deyildi, axı Cavidana bir şey ola bilərdi”.

Adətən belə şəraitdə böyüdülən uşaq çox ərköyün olur. Hətta nənəsi bir gün Cavidanın anasına elə beləcə də demişdi: “Qızım, anasının ərköyün balası hambal olar...” Amma bunların heç biri Cavidana aid deyildi. Çünki ağlı kəsəndən bu

“imtiyaz”lardan istifadə etməzdi. Heç vaxt da ərköyünlüyünü göstərməzdi. Elə ona görə də müəyyən müddətdən sonra daha nənəsindən həmin “atalar sözü” də eşidilmədi.

Həyətlərinin sonunda toyuq-cücə saxlamaq üçün hin dedikləri, dəmir barmaqlıqlarla bəzədilmiş, üstü bağlı tikili var idi. Həm özlərinin, həm də qonşunun meyvə ağaclarının budaqları hinin damına elə uzanırdı ki, sanki kababı şişin üstündən dişinə çəkirsən. Bizim də söhbət yerimiz əsasən ora olardı. Damda oturar, mövsümə uyğun meyvələrdən dadar, şiferin qırılmış yerindən aşağıda gəzişən toyuqlara baxıb söhbət edərdik. Cavidan artıq altı yaşında ikən məşhur “toyuqbaz” idi. Bibisi, xalası, nənəsi yumurtadan çıxan ən gözəl, fərqli toyuqları ona hədiyyə edər, sevincinə sevinc qatardılar. On dörd-on beş seçmə fərəsi və bir gözəgəlimli iri xoruzu var idi: Qıp-qırmızı, əl formasında pipiyi, az qala tovuz quşunun quyruğuna bənzər quyruğu, qırmızı və qara parıltılı təbiətdəngəlmə rənglərin harmoniyasından yaranan möhtəşəm rəngi olan əsl kənd xoruzu. Cavidandan başqa heç kimə içəri girməyə icazə verməyən həmin xoruzun, orta əsrlər ingilis

zadəganları kimi dik yerişi, ötkəm səsi var idi. Səhərçağı banlamamışdan qabaq qanadlarını üç dəfə bir-birinə çırpması kifayət idi ki, evdəkilər yuxudan diksinsin.

Toyuqlarının içində isə ən çox sevdiyi kəkilli fərə idi. Elə həmin səbəbdən də adını "Kəkilli" deyə səsləyərdi. Rəngi nə ağ idi, nə də sarı. Yeridikcə ağappaq tüklərinin üstündə sanki alov rəqs edirdi. Dimdiyindən boynunun arxasına kimi xüsusi nizamla uzanan tükləri "Kəkilli"yə bir ayrı gözəllik verirdi. Bədəninin ağlı-sarılı tükləri dırnaqlarına qədər uzanırdı. Lakin Cavidan ona olan sevgisini digər toyuqların yanında büruzə verməzdi. İnanırdı ki, həmin toyuqlar ondan inciyə bilər. Dolayısı ilə özünə olunan ayrı-seçkiliyi də bəyənmirdi. Baxmayaraq ki, hər bir uşaq onun yerində olmağı, onun kimi qulluq görməyi istəyərdi, amma o, belə şeylərin əlehinə idi. Həmişə deyirdi ki, "istəmirəm mənim səhvim üstündə bacılarım danlansın. Anam niyə belə edir? Axı o, həm də onların anasıdır. Elə bilirəm ki, hər dəfə belə olanda, bacılarım mənə nifrət edir". İstəmirdi ki, kimsə ona nifrət etsin. Amma özü, çox vaxt çox şeyə nifrət edirdi...

Heç xoşlamadığı şey isə toylarda hansısa "mötəbər" qonaq gələndə əmiləri, dayıları və ya özündən böyük dayısı oğlanları tərəfindən oturduğu yerdən qaldırılması idi. Hərdən elə nifrətlə danışırdı ki, özümə də qəribə gəlirdi. Çünki mənim də çox nifrət etdiyim şey məhz bu idi. Olduqca əsəbiləşirdi belə hallarda. Odur ki, Cavidana çox zaman təsəlli verirdim:

- Ay Cavidan, sən hələ uşaqsan, oturmasan da olar. Böyüklərə yer çatmayanda, sözsüz, balacalar qalxmalıdır da.

Amma o, əsəbini yumşaltmadan cavab verirdi:

- Sərxan da, Orxan da uşaqdır. Bəs onları niyə qaldırmırlar? Çünki ataları varlıdır, çoxlu pulları var. Heç kimin "duxu" çatmır onlara güldən artıq bir söz desin. Əgər mənim kimi hamını qaldırsalar, incimərəm. Amma hər dəfə məni və başqa iki-üç nəfəri çıxarırlar bayıra. Ona görə çox vaxt toya gedəndə toyxanaya girmirəm. Girmirəm ki, sonra kimsə gələndə yerimdən qaldırmasınlar. Onlar boyda olana kimi də girməyəcəyimə söz vermişəm.

Təbii ki, bu sözləri eşidəndə ona haqq qazandırmamaq olmurdu. Eyni qohumluq dərəcəsində

olan uşaqlara valideynlərinin imkanına, vəzifəsinə görə fərq qoymaq biabırçılıqdır. Böyüklüyü yaşa görə yox pula görə ayırmaq mənəviyyatın kiçikliyindən xəbər verir. Tükənən sərvət üçün olunan hörmət də bir gün tükənər.

Cavidanın tam ali təhsilli atasını dünyəvi adam saymaq olardı. Ona görə idi ki o, ən çox atasına oxşamaq istəyirdi. Anası isə orta təhsilli, həm də xurafatçı idi. Belə ki, bir neçə il öncə ailə quran böyük qızının övladı olmurdu deyə, falçıların yanına gedən uzaq yolu yaxın eləmişdi. Atasının dəfələrlə iradına baxmayaraq, bu cür xurafatçı hərəkətlərini davamlı təkrarlayırdı.

Günlərin bir günü məhəlləyə “səyyar falçı” gəldi. Yay tətili idi deyə, səhərdən-axşama qədər əmimgildə olurdum. Adəti üzrə yenə məhəllənin uşaqları ilə futbol oynayırdıq. Rəqib komandada oyunçu sayı az olduğundan, oynamaq üçün bizim komandada əvəz edəcəyim uşağın yorulmasını gözləyirdim. Elə bu dəm diqqətimi yayın istisində qapqara, uzun paltarda, sol əlində belindən bir az böyük əsası, sağ qolundan aşağısı tünd qırmızı rəngə çalan və qan damcılayan qalın un torbası asılan

qarıdan çəkə bilmədim. O, qapı-qapı gəzərək “xidmət”lərini təklif edirdi. Nəsibə xalagilə çatanda qonşu həmin falçıya Cavidangilin evini göstərdi.

- Gedək, Sevdagilə gedək. Neçə ildir qızının uşağı olmur. Bir Quran aç görək nə olur, – deyə danışa-danışa bizim yanımızdan keçdilər. Üzümü yana çevirəndə gördüm ki, Cavidan da sən demə, bütün bu prosesi izləyirmiş. Marağımızı öldürə bilmədik və onların ardıyca biz də keçdik içəri. Həyətdəki masanın ətrafına yığışdılar. Nəsibə xala qarını elə tərifləyirdi ki, qıraqdan baxan onun prodüsseri olduğunu zənn edərdi. Qarı dərindən nəfəs alaraq soruşdu:

- Həə...qızım. Övladınla bağlı böyük narahatlığın var deyəsən?!

Cavidanın anası təlaş içində Nəsibə arvada baxdı. Nəsibə arvad isə başını arxadan önə yüngül tərpədərək, gözüylə qarını işarə etdi. Sanki “bax, gör ayağına necə adam gətirmişəm e!” - dedi. Biz də anidən Cavidanla bir-birimizə baxdıq və gülümsədik. Çünki qarı bu məlumatı beş dəqiqə əvvəl elə Nəsibə xalanın ağzından oğurlamışdı. Sevda xala isə həyəcan içində dilləndi:

- Hə, xala, var. Qızımın dörd ilə yaxındır ki, uşağı olmur. Özü də...
- Aydındır qızım, aydındır. Mən bir dua yazacam, inşallah, qəbul olar. Amma gərəkdir ki, bu yolda nə şəkk edəsən, nə də xəsislik. İstifadə edəcəyim şeyləri də evdə saxlamaq olmaz. Özümlə aparıb yandıracam.
- Yox, ay xala, şəkk eləmərəm. Problem yoxdur, nə lazımdır gətirim. Yazıq canım, elə nəyim olub vermişəm. Təki əlac olsun.

Qarı bəlkə də "şikar"ını bu qədər asan əldə edəcəyinə inanmırdı. Bir-iki saniyə ara verəndən sonra daxilindəki sevincini gizlədərək davam etdi:

- Qızım, böyük tavaya azca yağ və bir qutu kibrit qoy gətir.

Sevda xala tələsik qarının dediklərini yerinə yetirib gəldi. Hiss etdim ki, bu oyun pik həddinə doğru gedir. Ancaq bir tərəfdən də, küçədəki uşaqlar onlara qoşulmağımızı istəyirdilər. Tez-tez qapını açır, səbirsizliklə bizi oynamağa çağırır, tez də aradan çıxırdılar. Bizə isə - nə yalan deyim, - baş verənlər daha maraqlı gəlirdi.

Qarı dodağının altında pıçıldaya-pıçıldaya kibriti yandırıb yağa batırırdı. Hər dəfə çıxan “cızzz” səsini gözü ilə göstərərək asta və xırıltılı səslə:

- Baxın!..Səsi eşidirsiz? Böyük problemlər var! İnşallah, bütün qaranlıqlar aydınlanacaq. Bu ocağın atəşi sonsuzluğu yandırıb kül edəcək! – deyirdi.

Bu hal o yerə qədər təkrarlandı ki, qutudakı kibrit çöplərinin hamısı bitdi. Qarı, üzünə düşmüş yaylığını iki əli ilə arxaya sürüşdürərək boynunun arxasında düyün vurub dedi:

- Ay qızım, mənə bir stəkan su ver.

Sevda xala həmin həyəcan və təlaş içində su dolu qrafini və xrustal stəkanı gətirib ehtiyyatla qarının önünə qoydu. Bir stəkan suyu bir nəfəsə içdikdən sonra dərindən nəfəs alan falçı sözünə davam etdi:

- Qızım bir qutu da kibrit, yarım metr parça bez və bir dənə böyük, iti bıçaq gətir.

Sevda xala çevrilib iki addım atdıqdan sonra dayanıb üzünü geriyə - qarıya tərəf çevirdi:

- Bıçaq niyə, ay xala?- deyə asta səslə soruşdu. Onun səsi həyəcanının təsiri altında idi.

- Bala, həyətdə toyuqlarınız var, deyəsən. Bayaq girəndə gördüm. Əslində, körpə quzunun qanı lazımdır, amma deyirlər, əgər həyətdə toyuq varsa, o da olar. Toyuğu kəsəndən sonra bezi, bax, bu yanmış yağa və həmin toyuğun qanına batırıb həyətdəki ən yaxşı bar verən ağacın budağına bağlayacağıq. Bir il keçməyəcək ki, həmin ağac quruyacaq. Əvəzində isə qızına övlad payı veriləcək.

- Allah səndən razı olsun! – sevincdən Sevda xalanın gözləri dolmuşdu.

Biz isə qarının bu sözlərini eşidəndə, ikimiz də eyni vaxtda diksindik. Cavidan hətta hiss olunacaq dərəcədə həyəcanlanmışdı. Anası qarının dediklərini yerinə yetirmək üçün əvvəl mətbəxə keçmək istəyəndə, Cavidan onun qabağını kəsdi:

- Ana, bu arvad nə deyir? Çaşıb toyuqlarımdan hansınısa kəsərsən ha. Allah haqqı, küsərəm səndən.

- Kəsilsin də, ay Cavidan. Başqasını alıb atarıq da yerinə...

- Yox da, ay ana. Sən guya bilmirsən ki, onlar kəsilmək üçün deyil?

Cavidanın son sözləri sanki hülqumunda ilişib qalırdı. Dərindən udquna-udquna fikrini çatdırmağa

çalışsa da, çətinlik çəkirdi. Mənsə balaca dostumun ürək döyüntüsünü hiss edə bilirdim.

Sevda xala xəfif gülümsəyərək bildirdi:

- Keç görüm bu yana! Deyərəm başqa bir şey eləsin, yaxşı. Sən get uşaqlarla oyna. Narahat olma!

Onun bu vədi bizi xatircəm etdi deyə həyətdən çölə çıxıb oyunumuza davam etdik. Beş topu qapıdan keçirən komandanın qalib olacağı barədə əvvəlcədən razılaşdırılan oyun 10-9 hesablı qələbəmizlə bitdi. Kiçik fasilədən sonra yenidən görüşüb velosiped sürəcəyimiz haqqında sözləşib dağılışdıq. Cavidan tərli əl-üzümüzü yumaq üçün məni də öz həyətlərinə çağırdı. Biz içəri girəndə qarı məhəlləyə necə gəlmişdisə, elə o vəziyyətdə də çölə çıxırdı. Arxasınca da Nəsibə xala ilə Sevda xala. Onlara yol verdik. Qarı sağollaşanda dilləndi:

- Bir ildən sonra gələndə muştuluğumu alacam ha!

Sevda xalagil gülüşüb bir ağızdan “İnşallah!” dedilər. Nəsibə xala isə “Allah səbəb salsın!” - deyərək evinə tərəf yollandı. Dönüb baxanda Cavidan artıq həyətə keçmişdi. Sevda xalanın arxasınca mən də özümü həyətə saldım. Gördüyüm mənzərə heç də

ürəkaçan deyildi. Cavidan həyətin ortasındakı həmin masanın yanında donub qalmışdı. Yerdə isə toyuqlardan birinin bədənsiz başı. Cavidana yaxınlaşanda sarsıldım. Başımdan ayağımın altına qədər keçən üşütmə cismimi dondurmuşdu. Dəhşətli mənzərə ilə üz-üzə idik: "Kəkilli"nin başı kəsilib yerə atılmışdı. Görünür, yazığın başı bədənindən yeni üzülmüşdü. Çünki göz qapaqları yarıya qədər yavaş-yavaş açılıb-qapanırdı. Cavidan isə elə yerindəcə donub qalmışdı. Gözündən süzülən yaş "Kəkilli"nin açılıb-qapanmaqda olan gözlərinin üstünə tökülürdü. Sanki bir yerdə ağlayırdılar...

Bədənsiz başı dimdiyindən tutub əlinə götürəndə, mən özümü saxlaya bilməyib ağladım. Dama hinin yanından çıxmaq mümkün olduğu halda dostumun hərəkət istiqamətindən anladım ki, qonşunun bağı tərəfdən çıxacaq. Yəqin istəmirdi ki, onu digər toyuqlar görsün.

Sevda xala Cavidanın qarşısını kəsib gülümsəyərək dilləndi:

- Dəli olmusan? Niyə ağlayırsan? Ən qəşənglərini sabah gətirib dolduraraq dama sənin üçün.

Day, arvad dedi xəsislik eləmə, mən də ən yaxşısını verdim. Qoy bacının uşağı olsun, inş...

Cavidan, danışa-danışa onun gözünün yaşını silmək istəyən anasının əlini itələyərək, çölə çıxdı. Sevda xala məndən onu sakitləşdirməyimi istəyəndə, məsələyə ötəri yanaşması diqqətimdən yayınmadı.

Mən onun yanına çıxanda Cavidan damın kənarından ayaqlarını aşağı sallamışdı. Gözlərini xurma ağacına bağlanmış qanlı bezə zilləyib ağlayırdı. Xəfif külək isə bezi sağa-sola yellətdikcə, "Kəkilli"nin qanı ətrafa çilənirdi.

Bir müddət dostumu küçədə görmədim. Hərdən oğlundan qonşulara ağız dolusu danışan anadan Cavidanı soruşanda "Belə də, ay bala. Bərk inciyib məndən, deyəsən!" – söyləyərək gülümsəyirdi. Ancaq mən, özümdən asılı olmayaraq əsəbiləşirdim. Necə ola bilərdi ki, o yaşda özünə müəyyən dəyərlər formalaşdırmış uşağın dünyagörüşünə hörmət olunmasın? Axı uşağın da öz dünyası var. Onun da qəlbi, duyğusu, düşüncəsi, qüruru var. Övlad böyütmək ona bahalı geyimlər, oyuncaqlar, velosiped, kompyüterlər, avtomobil almaq deyil. Övlad böyütmək qonşuna, qohumuna şöhrət nümayiş

etdirmək də deyil. Övlad böyütmək övladı olmayana balasından danışmaq heç deyil...

Cavidanı sonuncu dəfə bir toyda gördüm. Dayısı oğlunun toyu idi. Düzü, həmin toya dəvət olunmağımızı xatırlamıram, amma yaxşı yadımdadır ki, nəyə görəsə mən də o məclisdə iştirak edirdim. Dayısıgilin evi şəhərin şimal tərəfində, əhalinin və nəqliyyatın ən gur yerində idi. Cavidangilin də evinə uzaq deyildi. Əvvəllər bir neçə dəfə onu anası ilə dayısıgilə piyada getdiyinin şahidi olmuşdum.

Qonaqların çoxluğu ilə əlaqədar toy çadırı həyətdə yox, küçədə - dördyola yaxın yerdə qurulmuşdu. Axşam düşdüyündən yolda demək olar ki, avtomobil görünmürdü. Buna baxmayaraq, valideynlər tez-tez övladlarına ehtiyatlı olmağı, dördyola tərəf qaçmamağı tapşırırdılar.

Gözüm hər yerdə onu axtarırdı. Toyxanaya baxmağa dəyməzdi. Dəqiq bilirdim ki, ora girən deyil. Bir çox yerə göz gəzdirdikdən sonra təsadüfən gözüm toyxanadan təlaş içində çıxan bir oğlan uşağına sataşdı. Bu, o idi - partlamağa hazır olan bombaya bənzəyən dostum! Məni görən kimi ağlamağa və dördyola tərəf getməyə başladı. Qabağını kəsdim:

- Nə olub, Cavidan?!
- Görmürsən? Oğraşlar məni yenə yerimdən durğuzdular.
- Ağlama, sakitləş! Hə, nə olsun ki? Ərk eliyiblər də...
- Nə ərk e?! Mən girmirdim içəri. Anam məcbur elədi. Dedi ki, yer var. "Hamı ordadır, gəl sən də otur. Heç kimi də qaldırmırlar". Mən də girdim, oturdum. Bir azdan sonra yanında mənim boyda uşaq olan bir kişi gəldi. Dayımoğlu da məni durğuzub, yerimdə o uşağı otuzdurdu.

Pərt olmuşdu. Hönkürtü ilə ağlayırdı. Gözlərindən süzülən yaş üzündə cığır açaraq çənəsinin altında birləşirdi.

- Mən gedirəm. Anam soruşsa, deyərsən ki, getdi evə.

Buraxa bilməzdim onu. Artıq ətrafa qaranlıq çökmüşdü, həm də ki, onu belə əsəbi halda buraxmaq risk idi. Hər şey o yana, dostumu yoldan şütüyən maşınlardan biri vursaydı, mən özümü necə bağışlayardım?!

- Hara gedirsən, ay Cavidan? Gəl burdakı uşaqlarla söhbət edək, oynayaq.

- Yox... mən... gedirəm....

Hıçqırığı imkan vermirdi ki, sözlərini tam desin. Bir əli ilə gözünün yaşını silə-silə addım-addım arxaya gedirdi. Birdən Sevda xalanın səsini eşitdim. Səs gələn tərəfə çevriləndə onun Cavidanı səsləyə-səsləyə adamların arasında axtardığını gördüm. Sevda xalaya səslənmək istəyirdim ki, anidən avtomobil əyləcinin türkürpədici səsi ətrafa yayıldı. Həmin an mənim üçün həyat dayandı. Ətrafdakılar sanki donub qalmışdılar. Hər kəsin ağlına bircə şey gəlmişdi: hansısa uşağı maşın vurdu. Ancaq hansı uşağı? Bir neçə saniyədən sonra hay-həşir düşdü. Adamlar maşına sarı qaçırdı. Avtomobilin ön hissəsi ciddi şəkildə zədələnmişdi. Sağ fənərinin şüşəsi qırılmış, qabaq şüşəsinə isə hörümçək toruna bənzər çatlar düşmüşdü.

Vurulanın Cavidan olduğunu isə tək mən bilirdim. Amma ətrafda nə Cavidan var idi, nə də ki, qan izi. Ürəyim, az qala ağzımdan çıxırdı. Hər yerimi əsir alan ağrı hərəkətimə imkan vermirdi. Ətrafı müşahidə etməklə kifayətlənirdim, orada nizamla hərəkət edən heç kim yox idi. Yaranmış vəziyyət, savaş filmlərində gördüyümüz kimi, bomba atılandan

sonra adamların müxtəlif istiqamətlərə təlaş içində qaçdığı mənzərəni xatırladırdı mənə. Hamı heyrət içində, sürücü isə şokda idi. Bir qədər sonra özünə gəlib dilləndi:

- Mən...mən...
- Ay kişi, kimi vurdun? Hanı vurduğun adam?– kütlə içərisindən biri soruşdu.
- Nə vurmaq? ... kimi vurmuşam?
- Sən bizimlə məzələnirsən?- deyə başqa bir nəfər acıqlı və ötkəm səslə bağırdı.
- Mən heç nə başa düşmürəm... Qəfildən oldu... Birdən-birə maşın öz-özünə “tormuz”landı... sonra... sonra nəyəsə dəydi... nəsə dəydi. Dəydim və dayandım. Qabağıma da heç kim... Allaha and olsun ki, heç kimi vurmamışam...

Nə baş verirdi? Axı o avtomobil Cavidana dəymişdi. Amma Cavidan yox idi. Heç kim olanları anlaya bilmirdi. Hamı öz oğlunu, qızını, qardaşını və başqa yaxını axtarırdı. Hamı tapdı. Yalnız Sevda xala ilə Fazil əmi Cavidanı tapa bilmirdi. Sevda xalanın canına vəlvələ düşmüşdü. İnanmaq istəmirdi ki, o avtomobil Cavidanı vurub. Evə qədər qaça-qaça getdi ki, bəlkə həyətdə olar, amma orada da yox idi. O

gündən bu günə qədər həm mən, həm də onu tanıyanlar Cavidanı bir daha görmədik. Lənət şeytana, mən axı gördüm, sadəcə yuxularımda. Digər yeddi dostum kimi, Cavidan da hər gecə yuxumun mehmanı olurdu. Əksər yuxularımda biz onunla Günəş üfüqdən boylanana qədər söhbətləşirdik...

Həmin dəhşətli axşamdan sonra günlərlə gözümə yuxu getmədi. Yuxunun cismimə qalib gəldiyi gün özümü susuz səhrada gördüm. Gözümün görə biləcəyi nöqtəyə qədər ucsuz-bucaqsız səhrada. Günəş də sanki başımın bir qarışlığındaydı. Dərimin az qala əridiyini hiss edirdim. Lakin arxa tərəfdən əsən meh könlümü sərinlətdi sanki. Çevriləndə uzaqdan bir nəfərin gəldiyini güclə sezdim. Ətirli meh getdikcə yaxınlaşırdı. Üzümə şəlalənin sərt suyundan qopub gələn narın su damcıları səpilirdi. Gözlərimi yumaraq dərindən içimə çəkdiyim ətirli havanı iliklərimə qədər hiss edirdim. Bu həzzi bir qədər yaşayıb gözlərimi açanda “O” artıq yaxınlaşmışdı. Aman Allah, bu Cavidan idi. Ayağını basdığı hər yerdən gül-çiçək qalxırdı sürətlə. Sakitliyin uğultusunu quşların səsi əvəz edir,

arxasınca uzanan ucsuz-bucaqsız yaşıllıqlar göy üzünə çatırdı.

Yanıma çatanda donub qalmışdım. Onunsa üzündən təbəssüm süzülürdü. Əynində həmin toy günündə geyindiyi paltar, çiynində cəh-cəh vuran rəngarəng quşlar. İşıq saçan üzü isə gözümü qamaşdırırdı.

- Sakitləş, dostum, – dedi gülümsəyərək. Səsi həmin səs idi. Bu, O idi, Cavidan idi. O, ölməmişdi. - Bilirəm nə fikirləşirsən. Amma səhvin var! Sən yuxudasan. Özü də şirin yuxuda. Ona görə də ayılmırsan...

Hərəkətsiz idim. Nə udqunurdum, nə də nəfəs alırdım.

- Düz beş gündür ki, səni gözləyirəm. Çox təəssüf ki, gözümü yolda qoymuşdun, – yenə də həmin təbəssümlə davam etdi sözünə.

Dilim tutulmuşdu. Beş gündür yata bilməməyimi söyləmək istəyirdim, amma alınmırdı.

- Eybi yoxdur. Əsas odur, gəldin. Bundan belə tez-tez, demək olar, hər gün görüşəcəyik. Təbii, əgər gecələr yatsan, – bu dəfə qəhqəhəsinə çiynindəki və ətrafda dövrə vuran quşlar da qoşuldu – Mən çox

xoşbəxtəm, dostum! Burada heç kim yalan danışmır, heç kim digərinin xətrinə dəymir, kimsə başqasını yalandan öpmür, kimsə uşaqların topunu oğurlamır, heç kim heç kimlə savaşmır, heç kim... Yaxşı yadıma düşdü, – sanki gözləri parladı – bilirəm inanmayacaqsan, amma mən “Kəkilli”ni görmüşəm burda. Hə, hə, o da burdadır...Atam, anam, bacılarım, bir də səndən başqa heç kimdən ötrü darıxmıram. Onları ara-sıra görə biləcəyəm. Yəni hansısa həqiqətən məni görmək istəsə. Bilmirəm bu niyə belədir amma sənin yuxuna hər gün gəlməyə icazə verilib.

Danışa bilmirdim. Dodaqlarım bir-birinə elə birləşmişdi ki, sanki heç yerli-dibli ağzım yox idi. Onun yanında qalmağımı istəyirdim. Bu yuxunun bitməməsini istəyirdim. Ayılan kimi özümü öldürəcəyim barədə düşünürdüm, amma...

- Yox, Cavidan. Bunu əsla düşünmə! – O, mənim düşüncələrimi oxuyurdu – Biz hər gecə görüşəcəyik onsuz. Özünə qəsd eləmə! Sən yaşamalısan! Mənim kimi dostların yenə olacaq. Səbirli olmalısan! – deyib gözümün içinə baxdı – Söz ver mənə. Söz ver ki, öldürməyəcəksən özünü...

Üzünə baxmadan başımı xəfifcə aşağı-yuxarı hərəkət etdirdim.

- Dostum, sən danışmasan da, ürəyindən nələr keçirdiyini duya bilirəm, narahat olma! Sən mənə de görüm, bizim xurma ağacını görürsən? Qurumayıb hələ? - deyəndə məni də gülmək tutdu. Sevda xalanın gün ərzində həmin ağaca on dəfə baxdığını, ağacın isə əvvəlki illərdən də daha məhsuldar olduğunu ürəyimdən yenicə keçirmişdim ki, Cavidanın qəhqəsinə diksindim.

Ayılanda artıq səhər açılmışdı. Beləcə, Cavidanı hər gün yuxumda görməyə başladım. Ta Əhmədi tanıyana qədər...

# İKİNCİ HİSSƏ

# BOŞLUQDAKI QURTULUŞ

*Nə üçün insanlar çoxluğun ardınca gedərlər? Ona görə ki, çoxluq haqlıdır? Xeyr, ona görə ki, çoxluq güclüdür.*

***Fransız riyaziyyatçısı, fiziki, filosofu və yazıçısı Blez Paskal***

- Sən mənim canım, yadındadır? "A" hərfini yazmağı mənə sən öyrətmişdin.
- Nə bilim... yadımda deyil.
- Necə yadında deyil e? Müəllim lövhədə hərfi yazdı, hamı da ona baxıb köçürürdü. Mən yaza bilmirdim. Yerimiz də yanaşı idi. Əlimdən tutub sən öyrətdin mənə.
- Ay Əhməd, 9 il keçib ee üstündən. Necə yadımda qalsın?!

- Eeeh, Telman, amma mənim yadımdan heç vaxt çıxmır...

Tənəffüs üçün ayrılan vaxtın bitdiyini bildirən məktəb zənginin səsi eşidiləndə, Əhməd üzünü sinif yoldaşlarına tutaraq:

- Zəng çalındı, gəlin gedək - dedi.

Telman diliylə qurumuş çayır otunun nisbətən qalın hissəsini ağzında sağa-sola hərəkət etdirə-etdirə:

- Siz gedin. Mən bu dərsə girməyəcəm, – söylədi.

- Dəlisən sən? Lətafət müəllimənin dərsidir e, – deyə Əhməd xəbərdarlıq etdi.

- Elə ona görə girmirəm də, - Telman gülərək davam etdi - Ürəyim sıxılır onun dərsində. Həm də doqquzuncu sinifdə oxuyuruq, ay Əhməd. Bizim dərs oxuyan vaxtımızdı?!

- Özün bil. Məndən soruşsa...

- Səndən soruşsa, deyərsən anası harasa göndərib - sonra əlavə etdi, - Oxuyub nə olacaqsan e, guya? Növbəti dəfə güləndə ona Yusif, Heydər və Taleh də qoşuldu.

Maraqlıdır ki, bu söhbət sinfin əlaçısı - sinif nümayəndəsi Əhməd ilə sinfin ən zəif şagirdi Telman arasında gedirdi.

Əslində mənim də yadımdan çıxmır. Onlar birinci sinifdə oxuyanda mən beşinci sinif şagirdi idim. Əhmədlə Telman ilk sırada yan-yana əyləşirdilər. Bu yer Telmana anası Xavər müəlliməyə görə, Əhmədə isə boyu balaca olduğu üçün verilmişdi. Birinci dərs ilinin ilk günlərinin həyəcanını yaşayan birincilər ətrafı müşahidə etməklə məşğul idilər. Sevil müəllimə şagirdlərə əlifbanın ilk hərfini öyrədirdi. Çox təcrübəli, savadlı pedaqoq olduğundan, valideynlər öz övladlarını onun sinfinə yazdırmaq üçün az qala növbəyə dururdular. Məhz buna görə də sinifdə yeddi müəllim uşağı oxuyudu. Hamısı da elə həmin məktəbin müəllimlərinin övladarı. Söz yox, ön sıralardakı oturacaqlar da onların övladlarına "hədiyyə" edilmişdi.

Sevil müəllimə şagirdlərinə övladı kimi yanaşar, onlar arasında ayrı-seçkiliyə yol verməzdi. Çox mədəni və sakit qadın idi. Dərs vaxtı hansısa səbəbə görə sinifdən çıxmaz, şagirdlərini heç vaxt otaqda

qoyub başqa müəllimin yanına getməzdi. Əksinə, dərs vaxtı müəllim yoldaşları onun yanına gələndə narahat olardı. Hətta bir dəfə belə bir hal yaşanmışdı. Qonşu otaqda ibtidai sinif rəhbəri olan Sənubər müəllimə, etik qaydaları pozaraq Sevil müəllimənin otağının qapısını açdı və ərklə içəri daxil oldu. Nədənsə həmin vaxt mən də orda idim. Sinifdə tam sakitlik hökm sürürdü. İri bədən quruluşuna malik Sənubər müəllimə yeridikcə onun ağırlığına dözməyərək qəribə səs çıxaran döşəmənin cırıltısı aydın eşidilirdi. O, Sevil müəllimənin yanına çatar çatmaz:

- Nətərsən, gözəl? – gülüşündən sünilik yağırdı.
- Yaxşıyam, çox sağ ol. Dərsin yoxdur?- deyə Sevil müəllimə asta səslə soruşdu.
- Var. Tapşırıq vermişəm. Onlar yazana kimi dedim görüm neynirsən, necəsən?

Sevil müəllimə gülümsəyərək:

- Ay Sənubər, çox sağ ol, amma bunu tənəffüs vaxtı etmək olmazdımı?
- Əşşi, tənəffüsdə gözünü açıb-yumursan, vaxt bitir də. Hə, de görüm neynirsən? – Bir anlıq susdu -

Yaxşı yadıma düşdü, Sabir müəllimin oğlunun toyuna gedəcəksənmi?

- Qismət olsa, getməyinə gedəcəm e, amma...

Sevil müəllimə bütün şagirdlərin diqqətinin bu dialoqda olduğunu sezmişdi. Vəziyyətdən çıxmaqda çətinlik çəkən müəllimə anidən bir çarə tapdı. Bu çarə Sənubər müəllimənin dili ilə danışmaq idi:

- Sənubər, bir 10 dəqiqəyə mən də bunlara tapşırıq verim, gələrəm sənin otağına danışarıq, olar?

Sənubər müəllimə təəccüb içində:

- Sən mənim otağıma gələnsən, ay Sevil? Məni burda aldadırsan, - deyərək gülümsədi.
- Bu dəfə çalışacam gəlim.
- Yaxşı, nə deyirəm, mən gedim onda.

Amma həmin dərs bitənə qədər Sevil müəllimə otaqdan kənara çıxmadı.

Əhmədgilin sinif rəhbəri olanda Sevil müəllimənin, səhv etmirəmsə, əlli-əlli bir yaşı olardı. Bəstə boyu, nurlu sifəti ona xüsusi gözəllik verirdi. Saçlarına vaxtından əvvəl dən düşməsinin səbəbi həyat yoldaşını gənc yaşlarında itirməsi idi. Başında həmişə yaylıq görərdin. Şagirdlərinə ürəkdən "oğlum – qızım" deməsi onu digər müəllimlərdən

fərqləndirirdi. O qədər səmimi idi ki, şagirdləri müəllim əvəzinə ona çox vaxt “mama” da deyərdilər. O hamıya eyni gözlə baxıb, eyni həvəslə dərs keçərdi. Ön sıralarda müəllim övladlarının əyləşməsi də onun istəyi ilə olmurdu. Övladını onun sinfinə yazdıran digər müəllim yeni dərs ilinin ilk günü uşağının əlindən tutub qabaq sıraya əyləşdirərdi. Sevil müəllimə də aradakı münasibətlərə görə etiraz edə bilmirdi çox vaxt.

Müəllim uşağı olduğu üçün Telman birinci sinfə qədər hərfləri yazmağı artıq bacarırdı. Odur ki, “A” hərfini lövhədə görən kimi tapşırığa əsasən dəftərin bir üzünə ard-arda yazıb bitirmişdi. Ona görə də bekarçılıqdan ətrafı müşahidə etməklə məşğul idi. Əhməd isə hərfi yazmaqda çətinlik çəkirdi. Bunu görən Telman bacarığını nümayiş etdirirmiş kimi həmin hərfi yazmaq üçün qələmi hardan hara hərəkət etdirməyin yolunu Əhmədə göstərməyə başladı. Mən gözucu Sevil müəlliməyə baxanda, onun bu hadisəni izlədiyini gördüm. Qətiyyən mane olmadı. Onsuz da müəllim kimi hər bir hərfin necə yazılacağını fərdi olaraq bütün şagirdlərə izah edirdi. Amma o, bu prosesə mane olmadı. Düşünürəm ki, əsl pedaqoq

məhz belə də olmalıdır. Bir-birini yeni tanıyan uşaqların yardımlaşmasını, bilgi paylaşmasını, dostluq münasibəti qurmasını görmək ona zövq verirdi.

Bütün çətinliklərə baxmayaraq, Əhməd dərsləri çox tez mənimsəyirdi. Dərs oxumağı özü üçün hobbiyə çevirən bu qabiliyyətli məktəbli birinci sinfin sonunda bilikləri mənimsəmə səviyyəsinə görə digər şagirdlərdən fərqlənirdi. Qaydalara görə hər sinifdə ən yaxşı oxuyan şagird “sinif nümayəndəsi” olmalı idi. Lakin ibtidai sinfi bitirənə qədər Əhməd oxuduğu sinifdə həmin “vəzifə” boş qaldı. Məktəbin tarixində indiyə qədər belə bir hal olmamışdı. Çıxılmaz vəziyyətdə qalan Sevil müəllimə üçün bir tərəfdə həmkarlarının xahişi, digər tərəfdə isə Əhməd var idi. O, sinif nümayəndəsi kimi sevimli şagirdini görmək istədiyini beşinci sinfin ilk dərs günü fənn otağına daxil olub yeni sinif rəhbərinə bildirmişdi. Həm şagirdlər, həm də onların valideynləri əmin idilər: bu şəxs Əhməd idi...

Şərəf lövhəsində onun şəkli hər il yenilənirdi. Dərslərinə həmişə hazırlıqlı olan Əhmədin, sinif yoldaşlarından fərqli olaraq, bütün fənlərə həvəsi var

idi. Dərslərini bir gün belə buraxmaz, hətta ən sərt hava şəraitində də sinifdə öz yerini tutardı. Başqa uşaqlara nisbətən sarışın saçları, göy gözləri ona xüsusi yaraşıq versə də, boyu sinif yoldaşlarının hamısından alçaq idi. Evin tək övladı olmasına baxmayaraq, ailədə heç bir imtiyaza sahib deyildi. Anası rus, atası azərbaycanlı idi. Əhməd özü bu barədə danışmazdı. Onların ailəsi ilə bağlı bütün məlumatları atası fəhləliklə qazandığı beş-on manatı spirtli içkiyə verib sərxoş olandan sonra danışırmış yoldaşlarına. Bütün qohum-əqrəbası başqa rayonda yaşayırdı. Atası Əhmədin anası ilə Rusiyada işlədiyi vaxtlarda hər gün getdiyi kafedə tanış olub. Qadın həmin kafedə ofisiant işləyirmiş. Onunla evlənməyi öz ailəsinə qəbul etdirə bilmədiyi üçün həyat yoldaşıyla birlikdə ata-ana ocağına yox, əsgər yoldaşının yaşadığı uzaq bir rayona gəliblər. Gəldikdən bir ay sonra Əhməd dünyaya gəlib. Dostunun köməkliyilə daxma kimi yerdə məskən quran gənc ailə çox çətinliklər çəkib. Bir neçə ildən sonra anası işləmək istəsə də, atası mental dəyərlərə söykənərək, qəti etiraz edib. Lakin sonralar ailənin iqtisadi vəziyyətinin daha da pisləşməsi atasını həyat

yoldaşının uşaq baxıcısı kimi fəaliyyət göstərməsinə razı salıb. Həmin dövrdə Əhməd ya beşinci, ya da altıncıcı sinifdə oxuyurdu, yanılmıramsa. Səhər saat doqquzda işə başladığı evə tələsdiyi üçün anası Əhmədin paltarlarını axşamdan ütüləyir, yeməyini hazır edərdi. Əhməd ikinci növbə oxuduğundan və ev tapşırıqlarını axşamdan yerinə yetirdiyindən səhər bir qədər çox yatmaq imkanına malik idi. Atasının işi olmayanda birlikdə nahar edər, daha sonra geyinib dərsə yollanırdı. Lakin atası tez çıxanda Əhməd üçün çətinlik yaranırdı. Ya oyadan olmadığı üçün evdən tez-tələsik çıxırdı, ya da nahar süfrəsi aça bilmədiyinə görə dərsə ac gedirdi. Amma o, bu çətin şəraitə görə valideynlərindən incimirdi. Əhməd hələ uşaq yaşlarından həyatın soyuq üzünə qarşı əynindəkinə və əlindəkinə bürünməyi öyrənmişdi. Üşüsə də büruzə vermirdi. Onu ən çox üşüdən böyükdən-kiçiyə qonşuların atmacaları idi. Hər gün evdən çıxmamışdan öncə dəfələrlə ətrafı müşahidə edərdi. Məktəbə uzanan yolda qonşulardan kiminsə gəldiyini sezərdisə, hətta yolunu da dəyişərdi...

Cavidanın müəmmalı ölümünü düşünə-düşünə hər kəsdən uzaq düşmüşdüm. Heç kimlə münasibət qurmaq istəmədiyim barədə fikirlərimi Cavidan hər gecə yuxularımda dağıdırdı. Onun dediyi əlamətləri reallıqda gördükcə, təəccüblənirdim. Cavidanın o dünyadan məni gördüyünə şübhəm yox idi. Verdiyi işarələrə görə onun real həyatdakı siması Əhməd idi. Sırf bunun üçün Əhmədlə möhkəm dostluğumuz yaranmışdı. Hətta öz dərslərim bitəndən sonra onu gözləyərdim. Bizim məktəbdə on-on birinci siniflər birinci növbə üzrə, Əhməd kimi aşağı sinif şagirdləri isə günorta növbəsində təhsil alırdılar. Məktəbə dərslər başlamazdan yarım, yaxud bir saat tez gələrdi. Həmin müddətdə söhbətləşmək imkanımız yaranırdı. Gecikdiyi hallarda narahat olurdum. Mütləq bir problem olduğunu düşünərdim. Ona görə dərsim bitəndən sonra Əhməd yaşadığı məhəlləyə gedərdim. Bəzən gecikməsinin səbəbi yuxudan gec ayılmağı olurdu. Amma ən çox məhəllədən qonşuların getməsini gözləyərkən vaxt itirirdi. Mən onun bu xasiyyətinə çox vaxt hirslənirdim. Qonşulardan bu qədər çəkinmək olar? Səbəbini soruşurdum, açıb demirdi. Lakin bir dəfə səbəbi özüm aydınlaşdırdım.

Əhməd yenə də görüşümüzə gecikirdi (Dərslərinə isə heç vaxt gecikməzdi). Yenə də onların məhəlləsinə tərəf yol aldım. Yaz mövsümü idi. Günəşin şüaları ağacların budaqlarında sınaraq ətrafa səpələnirdi. Yasəmənin ətri adamın ağlını bihuş, əhvalını xoş edirdi. Bizim tərəflərdə yayın öldürücü istisindən fərqli olaraq, belə havada heç kim evdə oturmur. Qonşular ortaq bir mövqe seçərək yığışıb söhbət edir, uşaqlar isə məhəllədə müxtəlif oyunlar oynayırlar.

Evlərinə çatanda Əhmədin tələm-tələsik qapıdan atıldığını gördüm. Deyəsən bu dəfə səbəb qonşular deyildi. Çünki qonşu qadınlar hamısı eyni anda danışaraq çöldə söhbət edir, birinci növbədə dərsdən çıxan yuxarı sinif qızları laqqırtı vura-vura məhəllədə beş addım irəli, üç addım geriyə addımlayırdılar.

- Hardasan, ay Əhməd? Bayaqdan gözləyirəm. Gördüm gəlib çıxmadın, narahat oldum, – tez dilləndim.
- Yatıb qalmışam. Atam da tez durub gedib deyə oyandırmayıb məni.

Bu sözləri dodağının altında mızıldanaraq üst-başını düzəldirdi. Sol əliylə şalvarının kəmər vurulan

hissəsindən tutub, sağ əliylə isə köynəyinin ətəyini şalvarının içinə tələsik soxuşdura-soxuşdura xahiş etdi:

- Sən qapını bağla, mən şalvarımı düzəldim, gedək.

Üzbəüz qonşunun qapısının ağzında yığışan qadınların danışığı kəsilmişdi. Üzümü arxaya çevirəndə onların diqqətlə Əhmədə baxdıqlarını gördüm. Elə qapının önündən kənarlaşmaq istəyirdik ki, qadınlardan ən qoca olanı rişxəndlə dilləndi:

- Can ay bala, can. Anan onun-bunun uşağını geyindirir, səni geyindirə bilmir, hə?

Əhməd üzünü mənə tutub tələsməyimi istəyəndə gözləri dolmuşdu artıq. Büruzə verməməyə çalışsa da, dodaqları əsirdi. Biz uzaqlaşdıqca, qadınların səsi ucalırdı. Küçənin tinində oturan avara oğlanların siqaret çəkməkdən saralan dişlərini sanki reklama çəkilirlərmiş kimi bayırda qoymasını, qızların bizə baxıb siçanlara bənzər ciyiltili səslə pıçhapıçını hələ də gözümün önündən yox edə bilmirəm.

- Səndə günah yoxdu e, ay bala. Ana səhər gedir, axşam gəlir. Ata da ki, heç bilinmir nə işlə məşğuldu, - deyə başqa qadın uca səslə dilləndi.

- Aaz, o tərəfdə pozğun olub da anası. Başqa nə gözləyirsən ki? – üçüncü qadın nisbətən aşağı tonla o biri qonşularına söylədi.

Və daha nələr, nələr. Çox təəssüf ki, artıq başa düşmüşdüm Əhmədi. Qonşulardan niyə qaçdığını, səbəbini niyə deyə bilmədiyini anlamışdım. Məhəllədən hələ də bir dostunun olmadığını, asudə vaxtını məhəllə uşaqları ilə oynamaqla yox, yenə də dərs oxumaqla keçirməyini, heç bir kütləvi uşaq oyunlarını bilməməsini başa düşmüşdüm.

Məktəb müəllimlərinin də Əhmədə olan münasibəti birmənalı deyildi, əslində. Bir-iki müəllimdən savayı, əksər müəllimlər ona qarşı bilərəkdən diqqətsizlik edir, vicdanları ağrımadan qiymətini kəsirdilər. Səbəb isə sadə idi - maddi imkansızlıq. Mənəviyyatı dayaz olan insanların qarşısındakı adama verdiyi dəyər maddi olduğundan Əhməd üçün vəziyyət heç də asan deyildi. Mənasız məqsədlər üçün sinifdə vəsait yığımında hər dəfə xəcalət çəkirdi. Adını pedaqoq qoyan bir çox

müəllimlər, evdəki vəziyyəti dərk edib pul istəməkdən utanan uşaqdan utanmadan pul tələb edirdilər. Üstəlik, bütün bunlar könül verdiyi, zaman keçdikcə, gözünü hər yumanda xəyalı qaranlıqlar içində işıq saçan, səsini eşitdikcə həyacandan özünü itirməsinə səbəb olan, ən çox da anasına bənzətdiyi, qızılı saçları, gömgöy gözləri ağappaq bənizinə son dərəcə mükəmməl yaraşan Aydanın yanında baş verəndə günlərlə özünə gələ bilmirdi.

Aydan iki qardaşın bir bacısı - həmin məktəbin direktor müavini Rafiq müəllimin qızı idi. Atasının nüfuzuna görə müəllimlərin ona yüksək qiymət yazmalarına baxmayaraq, dərslərinə əla hazırlaşan, ədəb-ərkanlı, mədəniyyətli qız idi. Əhmədin ona olan isti duyğularını hiss etsə də, atasına və sinif yoldaşlarının rişxəndli atmacalarına tuş gəlməmək üçün özünü bu münasibətdən kənar tuturdu. Buna baxmayaraq, məsələni sezən bəzi sinif qızlarının hərəkətləri ürək bulandırır, həm onun, həm də Əhmədin qanını qaraldırdı.

Beşinci sinifdən sonra Əhməd sinif yoldaşlarının təşkil etdiyi yeni il şənliklərinin heç birində iştirak etmədi. Çünki iştirakçı olmaq üçün

müəyyən miqdarda pul tələb olunurdu. Hər dəfə bir bəhanə ilə vəziyyətdən çıxdığını düşünən binəvanın bu bəhanələrinə özündən başqa heç kim inanmırdı. Faciə orasında idi ki, onun iştirak etməmə səbəbi istər sinif rəhbərinə, istərsə də məktəb yoldaşlarına bəlli olsa da, bir kimsə onun şənlikdə iştirakı üçün israr etmirdi. Əslində buna ehtiyac da yox idi, çünki Əhmədin qüruru nəinki məktəb yoldaşlarının, hətta sinif rəhbərinin də boyundan böyük idi. Pul vermədən o şənliklərdə iştirak təklifini qəbul etməyi heç vaxt mənliyinə sığışdırmazdı.

Fəqət, hər dəfə orada olurdu: sinif otağının axırıncı pəncərəsinin altında. Yoldaşlarının sevincinə qoşulur, gözünü Aydanın gül üzündən çəkmirdi. Onların yanında olmaya-olmaya təşkil etdikləri oyunlarda iştirak edirdi - xəyalən. Hətta yeni il şənliklərinin birində sinif yoldaşlarının pəncərənin qabağında çəkdirdikləri şəkildə özünü görmüşdü. Buna ondan başqa heç kim fikir verməmişdi. Çünki arxa fonda sadəcə kölgə kimi əks olunmuşdu.

Hər il sinfi bitirmək üçün verilən imtahanlarda əla qiymət alırdı. Üstəlik bunu nəyinsə qarşılığında yox, öyrəndiklərinin məntiqi nəticəsi olaraq edirdi.

Amma yoldaşlarının əksəriyyətinin valideynləri, övladlarına imtahanda əla qiymət alacaqları təqdirdə hədiyyə vəd edirdilər. Əhmədin heç vaxt belə şansı olmamışdı. Heç şans anlayışı da formalaşmamışdı onda. Üzərinə düşən vəzifəni həm övlad, həm də şagird olaraq qeyd-şərtsiz yerinə yetirməli olduğunu bildiyi üçün yeni bir şans anlayışından uzaq idi. Uğursuzluğunu şanssızlığında deyil, bacarıqsızlığında görürdü.

Əhmədin ən pis günləri anasının amansız xəstəliyə yoluxmasından sonra başladı. Bunu sonra biləcəkdi...

Səkkizinci sinifdə oxuyanda anasının hamilə olmağı, əslində, sevindirmişdi onu. Artıq onun işləməyinə razı olmayan Əhməd özü iş tapmışdı. Hər gün dərsdən sonra şadlıq saraylarının birində ofisiant kimi çalışırdı. Lakin hər dəfə toy şənliyi başlamazdan əvvəl, dəvətlilər arasında tanış birisinin, xüsusən də Aydanın olmamasını yəqin edəndən sonra işə başlaması vəzifə yerinə - xidmət göstərdiyi masa ətrafına gecikməsilə nəticələnirdi.

Qazandığı pulu, lazım gələndə, dava-dərman almaq üçün anasına verir, yalnız ikisinin bildiyi yerdə gizlədirdilər.

Bir müddət sonra bacısının olacağını öyrəndikdə isə xüsusilə pərvazlanmışdı. Universitet xəyallarını bacısı ilə bağlı xəyallar əvəzləmişdi.

Atasının anasıyla get-gedə kobud rəftarı Əhmədin diqqətini daha çox cəlb etməyə başlayırdı. “Kişinin” hamiləlik irəlilədikcə, həyat yoldaşına diqqəti artmaq əvəzinə, nəinki azalırdı, hətta getdikcə iyrəncləşirdi. Onun ağrılarını adi hamiləlik ağrıları kimi qəbul edib əlavə imtiyazın mümkünsüz olduğunu xatırladırdı tez-tez o pəzəvəng.

Doğuşa iki ay qalmış anasının ağrıları nəzərə çarpacaq qədər çoxalmışdı. O qədər artmışdı ki, bir gün təcili şəkildə xəstəxanaya aparıldığını xatırlayıram. Həmin gün Əhmədlə onlara gedəndə təcili yardım maşınının tükürpədici səs siqnalını səsləndirərək və sayrışan işıqlarını yandıraraq tələm-tələsik məhəllədən çıxdığını gördük. Məhəllədə qarışıq sakitlik hökm sürürdü. Qonşuların demək olar ki, hamısı qruplar halında müxtəlif yerlərdə səssizcə ətrafı müşahidə edirdilər. Nə olduğunu anlamaq çox

qəliz idi. Əhmədgilin həyət qapılarının ağzına yaxınlaşanda qonşulardan biri onu görən kimi dilləndi:

- Əhməd...ananın vəziyyəti pisləşdi deyə təcili yardım çağırdıq. Reyhan da ananla getdi...

Qonşunun sözünün tamamını gözləməyən Əhməd tələsik evə daxil olaraq anası ilə birlikdə yığdığı pulu götürüb bayıra çıxdı. Üz tutduğumuz rayon mərkəzi xəstəxanasına necə çatdığımızı bir Allah bilir, bir də bizi ora ildırım sürətilə aparan taksi sürücüsü. Xəstənin birbaşa reanimasiya şöbəsinə yerləşdirildiyini öyrəndiyimizdə isə həyacandan əməlli-başlı çaş-baş qalmışdıq.

Həmin şöbəyə daxil olanda Reyhan xalanı dəhlizdə üzgün şəkildə divara söykəndiyini görən kimi birbaşa yanına getdik. O, Əhmədin anasına qarşı qonşular içində ən diqqətlisi və qayğıkeş olanı idi. Tez-tez Əhmədgilə baş çəkər, bişirdiyi yeyəcəklərdən onlar üçün də gətirərdi.

Əhməd təlaş içində:

- Reyhan xala, nə məsələdir? Anama nə olub? Niyə bura gətiriblər? Nə baş verir? – soruşdu.

- Əhməd, bilmirəm nə baş verir. Dovğa bişirmişdim. İstədim ki, anana da aparım. Hamilə qadınlar yeməyə qarşı həssas olurlar axı. Həyətinizə girib səsləndim, səs vermədi. Sonra evə keçdim. Mətbəxdə yerə uzanmış halda olduğunu gördüm. Sonrası da... İndi gördüyün kimi.
- Bəs həkimlər nə deyir?
- Hələ həkim heç nə deməyib. Gözləyirəm mən də.

Əhməd səbirsiz halda dəhlizdə dövrə vururdu. Dırnaqlarını çeynəyə-çeynəyə bir irəli, iki geri gedən biçarə özünü açıq-aşkar itirmişə bənzəyirdi. O qədər təlaşlanmışdı ki, məni də eşitmirdi. Onu sakitləşdirməyə çalışsam da, faydası olmadığını anlayırdım. Tavanın yalnız bir yerində yanan işığın əksini dostumun yaşarmış gözlərində görmək olurdu.

Xeyli müddət keçəndən sonra dəhlizin qaranlığından sakit və rahat addımlarla yaxınlaşan adamın Əhmədin atası olduğunu görəndə, özümdən asılı olmayaraq, yerimdən qalxdım. Mənim dayandığım yerdən keçəndə, bayaqdan fikirli halda sağa-sola hərəkət edən oğlu istiqamətində addımlayırdı. Əhmədin geri qayıtmaq üçün

çevriləndə atası ilə üzbəüz olması məni də həyacanlandırmışdı.

- Anana nə olub?! Doğur? - soruşanda üzünə yaraşmayan mənasız gülüşü hiss etməmək mümkün deyildi. O, normal doğumun reanimasiyada olmadığını bilməyəcək qədər düşüncəsiz insan idi.

Atası bu sözü deyəndə Əhmədin dişi-dişinə sıxılmış halda, gözlərini isə atasının yaşam məqsədi olmayan gözlərinə zilləmişdi. Nifrət və hirs dolu baxışlara daha çox tab gətirə bilməyən kişi Əhmədin yanından ötüb Reyhan xalaya yaxınlaşdı. Vəziyyəti ayaqüstü öyrənən bivec kişi sanki burada qeyri-adi bir hadisə olmadığını yəqinləşdirərək dilləndi:

- Reyhan bacı, qorxulu bir şey yoxdu burda. Doğumla əlaqədardır. Əhməd burdadı da. Mən gedim, bir azdan gələrəm.

Səssiz qalmaqla kifayətlənən Reyhan xalanın onsuz da başqa çarəsi yox idi. Həyat yoldaşına laqeyd olan kişiyə qonşu olaraq "Hara gedirsən ay kişi, bu doğumla əlaqədar bir şey deyil... Nəsə ciddi bir məsələ olmasaydı, reanimasiyaya gətirməzdilər. Doğuma hələ iki ay var..." – söyləyəsi deyildi ki.

Atası gedəndən təqribən beş dəqiqə sonra otaqdan çıxan həkim qapının yanında duran Reyhan xaladan soruşdu:

- Xəstənin nəyisiz?

Biz də onlara tərəf yüyürdük.

- Həkim, mən qonşusuyam...

Həkimin çaş-baş qaldığı üzündən oxunurdu.

- Bəs... Bəs xəstənin başqa kimsəsi...

- Həkim, oğlu burdadır, – Reyhan xala həyəcanla həkimin sözünü kəsib tələsik cavab verdi. Əhməd həkimə çatmışdı artıq.

- Həkim, anamın vəziyyəti necədi? Nə olub ona?

Qorxudan əl-ayağı əsən Əhmədi diqqətlə süzən həkim onu otağına dəvət etdi. Reyhan xalanın da onlarla otağa girmək niyyətinə həkimin əngəl olmasına baxmayaraq, mən içəri keçə bildim. Həkim məni görmürdü sanki.

Eynəyini taxıb masanın üstündəki sənədləri nəsə axtarırcasına vərəqləyən həkimin əllərinə və baxdığı yerlərə həm Əhməd, həm də mən, özümüzdən asılı olmayaraq, diqqətlə göz gəzdirirdik. Nə o danışırdı, nə də mən. Bir müddət davam edən axtarışdan sonra həkim asta səslə Əhməddən:

- Adın nədir, oğlum?- soruşdu.
- Əhməd...
- Anan bundan əvvəl həkimə müraciət edibmi? Hamiləliklə əlaqədar analizlər verilibmi? Mən bunları bilməliyəm. Ona kömək etmək üçün bilməliyəm. Anan yatmış vəziyyətdədir. Özündən soruşa bilmədim. Atan haradadı bəs? Kimin-kimsən yoxdurmu sənin, oğul?

Əhməd yaşarmış gözlərilə bir müddət sol tərəfindəki pəncərəyə baxdıqdan sonra danışmağa başladı. İndiyə qədər heç kimə, heç yerdə danışmadığı həyat hekayəsini dərindən nəfəs ala-ala danışırdı. Söyləyəcəklərinin anasına yardımçı olacağını düşünən biçarə danışdıqca, az məbləğdə olan pulunu cibindən çıxarır, əlində tutub yenidən cibinə qoyurdu. Burnunun ucuna sürüşdürdüyü eynəyinin üstündən Əhmədə baxan həkim isə qalın qaşlarını gah qaldırıb, gah endirirdi. Əhməd, sözünü bitirdikdən sonra həkim:

- Aydındır oğul, aydındır. Deməli, məsələ belədir də, - deyib təzəcə söhbətə başlayırdı ki, qapını döyüb içəri daxil olan tibb bacısı:

- Həkim, xəstə özünə gəldi, – deyəndə biz ani olaraq yerimizdən qalxdıq. Əhməd təlaş içində dəhlizə çıxdı. Lakin həkim onu saxlayaraq anasının yanına hələ girə bilməyəcəyini söylədi:
- Əhməd, səbirli ol! Bir məsələni ananla danışım, daha sonra səninlə söhbət edərik. Otağıma keç və məni gözlə!

Bir müddətdən sonra otağına qayıdan həkim rentgen kağızlarını masanın üstünə qoyaraq pəncərinin qabağında durdu. Bir qədər xəstəxananın bağını seyr etdikdən sonra yerinə keçdi. Nə düşündüyünü sezmək çox çətin idi. Barmaqları ilə göz qapaqlarının burnuna yaxın olan hissəsini ovuşduraraq:
- Əhməd, sənin anan xəstədir, – dedi.

Əhməd bir kəlmə belə danışmadan gözlərini həkimin ağzına zilləmişdi. Həkim isə adi bir xəbər verirmiş kimi rahat danışırdı. Onlar belədir də. Ay ərzində, bəlkə də gün ərzində neçə-neçə amansız xəstəliyin “müjdəçisi” olurlar...
- Uzun sözün qısası, ananın döşündə xərçəng var. Biz buna şiş deyirik. Çox təəssüf ki, bədxassəli şişə çevrilib artıq.

Gözünü hər qırpanda kipriyindən süzülən yaş Əhmədin ovcunun içinə düşürdü. Həkim isə davam edirdi:

- Şiş çox sürətlə irəliləyir. Müalicəsi demək olar ki, artıq mümkün deyil. Biz sadacə şişin böyüməsinin qarşısını ala bilərik. Kimyaterapiya sayəsində. Bu isə...
- Bu isə?... Bu isə nə, həkim?
- Bu isə həm bahalıdı, həm də uşaq üçün təhlükəlidi. Bir də ki, ümumiyyətlə, anan buna razılıq vermir.
- Başa düşmədim. Anam niyə razılıq verməsin axı, həkim?
- Çünki kimyaterapiya olunsa, uşağı itirmək məcburiyyətində qalacaq.
- Olunmasa axı, anamı... – "itirmək" sözünü dilinə belə gətirə bilməyən Əhməd həyəcanlı şəkildə ayağa qalxdı.
- Əhməd, qulaq as! Anan razı olsa belə, bu iş vəsait tələb edən işdir. Ömrünü ancaq bir müddət uzatmaqdan başqa bir işə yaramayacaq. Bir var ikisini də itirəsən, bir də var heç olmaya uşağı xilas edək...

Bu sözləri eşidən Əhməd çox sürətlə otaqdan çıxıb anası olan palataya üz tutdu.

Həkimin fikirlərini belə rahat ifadə etməsinə inana bilmirdim. Hisslərini işinə qatmamağı necə öyrənmişdi? Olmaya onda, ümumiyyətlə, insanlıq hissi yox idi? Bir saniyə çox yaşasın deyə, bəlkə də milyonlar verə bilən insan başqasını bu yoldan niyə çəkindirirdi?

Bir müddət dəhlizdə gözləməli oldum Əhmədi. Yanıma gələndə pərişan halda gözünü bir nöqtəyə zilləyib eləcə səssiz dayandı. Xəstəxananın həyətindəki oturacaqda əyləşəndə anası ilə danışmağını, kimyaterapiyaya razı sala bilməyini soruşdum, amma suallarım cavabsız qaldı. Gözünü bağçadakı su borusunun ağzından yerə düşərək saat əqrəbinin səsini xatırladan damcılara zilləyib dayanmışdı. Suallarımla daha çox canını sıxmamaq, tənha qalıb düşüncələrilə sərbəst əlaqə qura bilməsi üçün getməyi qərara aldım. Bir addım atmışdım ki, baxdığı yerdən gözünü çəkmədən danışmağa başladı:

- Müalicə olunmaq istəmir... Deyir əgər həkim dediyi proses olsa, bacını itirəcəyik. Həm də bu işin bahalı olduğu söyləyir. Nə olsun? Əlavə iş

tapacağımı, nəyin bahasına olursa-olsun əməliyyat üçün daha çox pul qazanacağımı söylədim, amma yenə razılaşmadı. Çox az ömrünün qaldığını, heç olmasa, iki candan birinin sağ olmasını istəyir. Əgər onunla razılaşmasam məni bağışlamayacağını deyir. Nə deyəcəyimi, nə edəcəyimi bilmirəm. Başa düşürsən məni?

Əlbətdə ki, onu başa düşürdüm. Nələr yaşadığını, nə hisslər keçirdiyini sanki içimdə mən də duyurdum.

Doğuşa qədər Əhmədin hər günü həyəcan və qorxu içində keçirdi. Həmişəki laqeydliyini davam etdirən atası evə gec saatlarda, bəzən isə heç gəlmirdi. Qazandığı qəpik-quruşu həyat yoldaşının müalicəsinə yox, eyş-işrətə xərcləyən bu vicdandan məhrum şəxsi Əhməd, demək olar, dindirmirdi.

Anasının xəstəliyilə əlaqədar dərsləri buraxması qiymətlərə təsirsiz ötüşmürdü. Bütün bu hadisələr sonda onun şəklinin şərəf lövhəsindən çıxarılmasıyla nəticələndi. Əhmədin isə bircə amalı anasının tezliklə sağalması idi.

Hamı üçün həyat davam edirdi. Məndən və ara-sıra Reyhan xaladan başqa demək olar ki, heç kim Əhmədin anası ilə maraqlanmırdı. Elə bil o məhəllədə günlər sonra dünyasını dəyişəcək hamilə bir qadın yaşamırdı. Hətta sinif yoldaşları belə gəlib Əhmədi yoxlamırdılar. Eşitdiyimə görə, valideynləri onları Əhmədlə yaxın münasibət qurduqları təqdirdə tənbeh edirlərmiş.

İki aydan sonra Əhməd, yeni doğulmuş bacısı ilə tək qalmışdı artıq. Anasının ölümündən bir müddət sonra atası daha əvvəllər də qeyri-qanuni yaşadığı qadının yanına getmişdi. Reyhan xalagilin də qeyri-müəyyən səbəblərə görə həmin məhəllədən köçməsi Əhmədin bacısına baxmasını müşkülə çevirdi. O, anasının adını qoyduğu bacısını körpələr evinə təhvil verməli oldu.

Onuncu sinfin son günlərində dərslərinə diqqətini artıran Əhməd bataqlıqda cücərməyə çalışan bitkiyə bənzəyirdi. Məqsədi orta məktəbi bitirdikdən sonra universitetə qəbul olmaq, eyni zamanda normal bir iş tapıb işləmək idi. Dolayısı ilə bacısını körpələr evindən götürüb ona baxacaqdı.

Həyatında baş verən hadisələr onu insanlardan uzaq salmışdı. Məsləhət, öyüd-nəsihət ala biləcək bir böyüyü də yox idi. Özünə qapanmışdı. Hər gün görüşüb onu nikbin notlarla kökləmək istəyim nəticəsiz qalırdı. Səssiz-səmirsiz qulaq asmaqdan başqa heç nə etmirdi. Məhəllədə, məktəbdə qüruruna toxunan onlarla hadisəyə tab gətirmirdi artıq. Həyatının qışında soyuqdan az qala donan Əhməd bacısına qovuşmaqla isinəcəyini xəyal edirdi. Və sırf bunun üçün təzyiqlərə, atmacalara dözməyə çalışırdı. Məktəbdə hər kəs ondan kənar gəzir, müəllimlərin ayrı-seçkiliyi yüz metrdən hiss edilirdi. Əhməd isə yenə də “dözürdü”.

Çox vaxt o, məktəbə gedəndə bir yerdə gedirdik. Əhməd onuncu sinifdə oxuyanda, mən artıq bir il idi ki, hansısa şirkətdə gözətçi işləyirdim. Dəqiq yadımda deyil. Bir o yadımdadır ki, məktəb iş yerimə gedən yolun üstündə olduğuna görə Əhmədlə tez-tez rastlaşırdım.

Günlərin bir günü yenə rastlaşdıq. Əhməd məktəbə, mən isə işə gedirdim. Əslində iş vaxtım saat doqquzda başlayıb altıda bitirdi. Amma həm gecikmə

olmasın deyə, həm də Əhmədlə yol boyu on dəqiqəlik də olsa, söhbət edə bilmək üçün evdən tez çıxırdım

Dərs başlamazdan əvvəl gələn şagirdlər üç-üç, beş-beş toplaşıb söhbətləşir, deyib gülürdülər. Hasarın bütünlüklə daşdan yox, müəyyən aralıqla bəzəkli metal şəbəkədən ibarət olması, məktəbin həyətini kənardan görməyə imkan verirdi. Darvazanın qarşısına çatmağımıza az qalmışdı. Hiss etdim ki, Əhmədin fikri mənim işimlə bağlı etdiyim söhbətdə yox, hasara yaxın oturacağın ətrafında işvə-nazla söhbətləşməkdə olan sinif qızlarına söz atan yad məktəbin oğlanlarında idi. Belə məsələlərə laqeyd qalmamağın onun xarakterik xüsusiyyəti olduğunu bildiyim üçün qan-qaraçılıq yaranmasın deyə, diqqətini yayındırmağa çalışdım. Amma gec idi. Əhməd oğlanların olduğu yerə istiqamətlənmişdi. Əslində bu xususiyyət mənə də xas olduğundan onu başa düşürdüm. Əhmədin oğlan sinif yoldaşları da qızların olduğu yerə heç də uzaq olmayan digər oturacaqda əyləşib, yüngül hərəkətlərilə diqqət çəkirdilər. Onlar özlərini görməzliyə vuracaq qədər ağciyər idilər.

- Qardaşlar, nə məsələdir? – soruşanda onların üç nəfər olmağı görünür Əhmədi qətiyyən qorxutmurdu.
- Başa düşmədim, – deyə dəmir barmaqlıqlardan meymun kimi sallanan, əzələlərini hər kəsə daha qabarıq göstərmək üçün bədəninə yapışan köynək geyinmiş oğlan üzünü bizə tərəf çevirəndə sifətinin çopurları ilk baxışdan adamı diksindirirdi.
- Deyirəm nə məsələdir? – sualını təkrarlayan Əhməd artıq hirsli olduğunu büruzə verirdi.
- Mən də dedim ki, başa düşmədim.

Onlarla burun-buruna idik. Ani davanın qoxusu gəlirdi. Həm sinif qızları, həm də oğlanlar prosesi izləməklə kifayətlənirdilər. Dərsin başlanmasına işarə verən zəngin səslənməsi ilə şagirdlər binaya daxil olduqca həyətdə seyrəklik yaranırdı. Hətta Əhmədin sinif yoldaşları da müəllimlərin iradından qorxaraq sinif otaqlarına üz tuturdular.

- Onlar mənim sinif yoldaşlarımdı. Niyə söz atırsız? – deyə Əhməd davam etdi.

Saqqız çeynədiyindən sözləri əməlli deyə bilməyən ikinci oğlan dilləndi:

- Lap yaxşı. Bizim də xoşumuza gələn qızlardı.

Aydanın da, o qızların arasında olmasını nəzərə alsaq, Əhmədin hövsələdən çıxması an məsələsi idi.

- Bir də ki sənə nə dəxli var? O qədər oğlanın içində bir sənəmi qaldı onların...

Oğlanın sözünü kəsən Əhməd:

- Onlar görməyiblər yəqin sizi. Mən görmüşəm, mən gəlmişəm, – bildirdi.

- Qaqaş, sən o qızlara "atviçatsan"? – Bayaqdan danışmayan, saçına yaxdığı geldən başının dibi görünən sısqa oğlan ciyiltili səslə dilləndi.

Əhmədin onun gözlərinə hirs ilə baxmağı oğlanın susmasına kifayət etmişdi. Mən özümü Əhmədlə onların arasına salıb hər iki tərəfi sakitləşməyə və məsələni sülh yolu ilə həll etməyə dəvət etdim. Bir tərəfdən də, sinif otağının laybalay açılmış pəncərələrində nəinki məktəblilərin, hətta bəzi müəllimlərin tamaşaya baxırlarmış kimi düzülməsi məni hövsələdən çıxarırdı.

Əhməd hər üçünə xəbərdarlıq edərək:

- Nə isə, bir də belə şey olmasın, gedin, – deyəndə sir-sifəti çopur olan və ortada dayanan özündənrazı oğlanın əlilə Əhmədin sinəsindən itələyərək:

- Əşşi, get işinlə məşğul ol! – deyə ucadan söyləməsi bardağı daşırdan son damla oldu. Heç kimin ağlına belə gəlməyən cəldliklə alnını oğlanın sifətinə var gücü ilə çırpan Əhmədi belə əsəbi görməmişdim. Bir andaca ara qarışdı. Onlardan sısqa olanı özündən asılı olmayaraq geri çəkiləndə digəri Əhmədin qarnına tərəf təpik atdı. Bir əlilə oğlanın ayağından tutan Əhməd sağ ayağıyla onun tək ayağına şiddətli zərbə endirəndə, başa düşdüm ki, o, sanki həmin təpiyi gözləyirmiş. Saniyələr içində baş verən çarpışmaya mənim də qoşulmağıma gərək qalmamışdı. Bayaqdan lovğalığından az qala partlayan oğlan yerdə qıvrılır, o birisi isə ayağını iki əli ilə tutub acı çəkdiyini, istəməsə də, büruzə verirdi. Üçüncü isə elə bil bayaqdan hadisələrin içində olan adam deyildi.

İşə onsuz da gecikdiyim üçün birinci dərsi buraxmalı olan Əhmədlə ikinci dərs başlayana qədər məktəbin həyətindəki oturacaqda əyləşərək gözləməli olduq.

Tənəffüs vaxtı yuxarı siniflərin dərs aldığı üçüncü mərtəbənin 314 saylı sinif otağına Əhmədlə bir yerdə qalxdıq. Yoldaşları otağın müxtəlif

yerlərində toplaşaraq qızğın müzakirələr aparan vəkillərə bənzəyirdilər. Heç kimə fikir vermədən pəncərinin yanındakı yerinə doğru istiqamətlənmiş Əhmədə yönələn həsəd dolu baxışları uzaqdan sezə bilirdim. İkinci dərsin başlanmasına üç-dörd dəqiqədən bəlkə də az vaxt qalmışdı. Az əvvəl yaşanan hadisənin təsirindən çıxa bilməyən qızların Əhmədə təşəkkür etməsini səbirsizliklə gözləyirdim. Və həmin qızlardan biri – yerişi, duruşu, geyimilə oğlanların həmişə diqqət mərkəzində olanı gərgin səs tonu ilə dilləndi:

- Əhməd...

Barmaqları ilə qızarmış alnını ovuşduran Əhməd əlini saxlayıb üzünü qıza tərəf çevirdi. Qız davam etdi:

- Sən özünü nə hesab edirsən ki? Onları niyə döydün? İçlərindən biri xalamgilin qonşusudur. Mənə görə gəlib. Sənə nə dəxli var axı? - deyəndə təəccübümdən damarlarımda qanım dondu sanki. Əsəbindən dişlərini qıcamağı dodağının altında açıq-aşkar bilinən Əhməd əllərini yumruq halında sıxaraq ayağa qalxdı. Bunu görən digər qızlardan biri özünü qabağa verərək:

- Solmaz düz deyir də. Sənin nəyinə gərək? Üzr istəmək əvəzinə, üstəlik, hirslə ayağa da qalxırsan. Gəl bir bizi də döy...

Gördüklərimə və eşitdiklərimə inana bilmirdim. Əhməd bu həyasız qızlardan ötrümü özünü təhlükəyə atmışdı? Bu idimi onların təşəkkürü?

Qızlar onun qarşısında yarımdairə şəklində düzülərək hərəsi bir söz deyirdi. Artıq qızların söhbətinə onlardan geri qalmayan oğlanlar da qoşulmuşdu. Hadisə baş verməmişdən əvvəl qızlara yaxın oturacaqda əyləşmişlərin arasında sifəti yadımda qalan - təlxək kimi deyib-gülən oğlanlardan biri dilləndi:

- "İgid", özünü kimə göstərirsən ki? Bizdən belə qollu-biləklisən? Biz onların cavabını verə bilməzdik guya?

Əhməd onların gözlərinin içinə baxmaqdan başqa heç nə etmirdi. Sinif yoldaşları söz demək üçün sıraya düzülərək onun üstünə addımlayırdı. Əhmədin isə gözləri, zənnimcə, Aydanı axtarırdı. Qızlardan bir başqası:

- Qızların qədrini belə bilənsən, get bacına sahib çıx da, – deyəndə Əhmədi də, məni də cərəyan vurdu

elə bil. Bütün bunlara istəsəm də müdaxilə edə bilmirdim. Əhmədi onların tikanlı ağuşundan alıb qaçmaq istəyirdim, amma alınmırdı. Dörd-beş saniyəlik sakitliyin ardından Aydan yaşananlara tab gətirməyərək sinif otağını tərk etdi. Otaqdakılar isə davam edirdi:

- Vallah də, - başqa qız qoşuldu söhbətə, - belə namus-qeyrət qarovulçusansa, ananı camaatın atmacalarından qoruyardın da! – deyəndə sinifdəkilərin rişxəndli gülüşləri Əhmədi özündən çıxardı. Bir anda açıq pəncərəyə qalxaraq gözlərimin içinə baxdı. Mən özümü itirmişdim. Nə etmək istədiyini anlamırdım. Amma o, yaş dolu gözləri ilə mənim təəccübdən bərəlmiş gözlərimin içinə baxaraq:

- Bacım sənə əmanət! – deyib özünü boşluğa buraxdı. Bir anda sinfi başına alan qara-qışqırıq hər kəsi çaş-baş salmışdı. Hamı pəncərələrin qarşısında izdiham yaratdığı halda, mən birbaşa aşağı – həyət tərəfdən pəncərinin altına yüyürdüm. Əhmədin düşdüyü bom-boz asfalt qana boyanmışdı. Lakin Əhməd... Qalxıb getdiyini düşündüm. Hayqırdım, dəfələrlə çağırdım, hər tərəfə qaçdım dəli kimi, amma yox idi, Əhməd yox idi. Günlərlə məhəllələrinə,

evlərinə getdim, soruşdum, amma Əhməddən sorağı olan tapmadım. Əhməd cismini belə bu dünyaya çox görmüşdü. Onu da özü ilə o biri dünyaya aparmışdı sanki. Bu nə demək idi axı?!...Öncə Cavidan, sonra Əhməd. Dostluqda hansı qəbahəti işlətmişdim ki, onları xatırlamağım üçün məzarlarını belə çox gördülər mənə?! Bəs deyirdilər insan ruhən köçür bu dünyadan? Bəs deyirdilər ruh özü ilə cismi aparmır? Bu dünyaya o qədərmi nifrət edirdilər ki, birdəfəlik getdilər?. Offf!.. Bu nədir belə? Bəlkə mən də tərk edim bu etibarsız dünyanı. Kimim var ki, daha?... Cavidana verdiyim söz olmasaydı, düşünmədən...

Bir müddət sonra bacısını təhvil verdiyi körpələr evinə getdim: qızcığazı götürmək üçün. Rayonda yalnız bir yerdə olan körpələr evindən elə bir qızın qeydiyatda olmamasının deyilməsi məni çaş-baş salmışdı. Nə qədər araşdırdım, olmadı. Həmin müddət ərzində körpələr evinə Sveta adlı körpənin verilməməsi sənədlərlə sübut olundu...

# ÜÇÜNCÜ HİSSƏ

## MƏTLƏB

*Bir dəfə baş verən şey, daha heç vaxt baş verməyə bilər.*
*Amma iki dəfə baş verən şey,*
*mütləq üçüncü dəfə də baş verəcək.*
***Braziliya yazıçısı və şairi Paulo Koelyo***

Universitetə qəbul olunandan sonra necə "böyük" iş gördüyünü dərk etmişdi, əslində. Gözü yaşlı, kədərli, qəmgin və fikirli valideynləri gördükcə, bu barədə düşünürmüş. İmtahan öncəsi, imtahan günü, imtahandan sonrakı həyəcanını bölüşənlərə təəccüblə qulaq asır, imtahana qədər necə əziyyət çəkdiyini, gecələr yatmayıb səhərədək dərs oxuduğunu, fərdi məşğələ tapşırıqlarını çatdıra bilmək üçün məktəbə günlərlə getməyən dost-tanışını heç cür anlamırmış. Dərslərini yaxşı oxumasına baxmayaraq, valideynləri onu da fərdi məşğələ üçün əlavə hazırlığa yazdırıblarmış. Onlar "Camaat bizə nə deyər?" adətiylə yaşadıqları üçün Mətləb də bu

prinsipə boyun əyməli imiş. Hər dəfə bütün bunlara ehtiyac olmadığını desə də, valideynlərinin fikrincə, universitetə qəbul olunmayacağı təqdirdə, qonum-qonşu, qohum-əqraba Mətləbi yox, onları qınayacaqmış. Hətta bir dəfə belə söhbət olubmuş aralarında:

- Ədə, sənin hazırlığının vaxtı deyil? Çantan-zadın burdadı ki hələ.
- Ee, ay ana, nəyə lazımdır axı bu “məllim yanına” getmək?!
- Qələtini elə, dur, geyin,çıx evdən!
- Allah haqqı, məktəbdə öyrədilənləri keçirlər. Onsuz da bunların hamısını altıncı və yeddinci sinifdə oxumuşam...
- Mətləb, bizdən çox biləcəysən sən? Hər il çətinləşir e, qəbul imtahanları. O vaxt imkanımız yox idi deyə, hazırlığa qoymadıq qardaşını. O da getdi pulluya düşdü. Atan da razı olmadı. Qohum-əqrəba içində utandığımdan ölürdüm. İkinci il bir fəndən müəllim yanına qoyduq, universitetə asanca daxil oldu.
- Qoymasaydız da...

- Sözümü kəsmə! Eybi yox, sən pulluya düş, amma təki qəbul ol...

Mətləb valideynlərinin təkidilə Azərbaycan, eləcə də ingilis dili, riyaziyyat və coğrafiyadan əlavə hazırlığa gedib. İki il hazırlığa getməsinə baxmayaraq, məktəbdə öyrəndiklərini yazıbmış imtahanda. Coğrafiya və riyaziyyatdan istəməsə də, getməli imiş. Çünki hər iki müəllim məktəbdə həmin fənlərdən Mətləbə dərs verirdilər. Bu onun üçün on-on birinci sinfi həmin fənlər üzrə “kafi” qiymətlə başa vurması demək imiş. Necə ki Azərbaycan dili üzrə başqa müəllimin yanına getdiyinə görə məktəbdəki müəllimi 11-ci sinfə qədər hər rüb onun qiymətini kəsirmiş...

İmtahan günü də həyəcanlı olmayıb Mətləb. Ailə üzvlərinin də həyəcanını anlaya bilmirmiş. Düşünürmüş ki, abituriyent on bir il öyrəndiyinin müəyyən hissəsini qeyd etməlidir. Özü də variantlar şəklində. Yəni bir sualın cavabını dəqiq bilməyə ehtiyac da yoxdur. Ən azından uyğun gəlməyən cavabları “ləğv” etməklə lazımi cavabı tapmaq olurdu.

Deyirdi ki, həmin günü ailədən bir abituriyent imtahan verirdisə, ona dəstək üçün az qala onlarla adam gəlmişdi. Bu isə izdiham və həyəcanı bir az da artırırmış. Sanki həmin abituriyent atomun quruluşu üzrə yeni elmi iş yazıb və müdafiəsi üçün elm adamları, professorlar tərəfindən qəbul olunmağı gözləyirdilər. Hamının əlində diyircəkli qələm və sərinləşdirici içkilər var imiş. Tələbə olmayan dost-tanışları həmin abituriyentə yüzlərlə "məsləhət" verirmiş. Hətta qorxusundan mədə-bağırsaq sistemində pozğunluq əmələ gələnlər də var imiş. Bunu məktəbin həyətindəki havanın "ağırlığı" deməyə əsas verirmiş...

Mətləbin qəti etirazına baxmayaraq, anası tərk etməyibmiş oranı. Üç saata yaxın digər valideynlər kimi oğlunu gözləyirmiş. İmtahan vaxtı tam bitməmiş çıxan Mətləbi görən ananın ürəyi həyəcandan az qalıb ki, sinəsindən çıxsın. Sualları Mətləbin üstünə yağdırmağa başlayıb:

- Nə tez çıxdın, ay Mətləb? Qovdular imtahandan? Yanındakından köçürürdün deyə, hə? Həyəcanlanmışdın? Yaza bilmədin hə? Yəqi....

- Ay ana, bir sakitləş görüm. Nə qovulmaq? Nə köçürmək? Bildiklərimi yazdım, çıxdım da. Boşuna niyə oturum ki?
- Az yazmısan da onda, hə?
- Az niyə yazıram e, qəbul olmaq üçün bəs eliyər, – söhbəti dəyişərək, - Bəs mən dedim axı gedin. Tanıyıram da buraları, gələrdim özüm – deyib.
- Atangil getdilər bacıngilə, mən gedə bilmədim. Getsəydim, narahat olacaqdım.

Anasıyla atasının onunla bağlı narahatlıqları ayrıca narahat edirdi Mətləbi. Ona güvənmədiklərini düşünüb heyfislənirdi...

Bu söhbətləri tənəffüs vaxtı yanıma gələn Mətləb danışırdı mənə. Dərs vəsaiti almağa imkanı çatmadığı üçün kitabxanadan götürdüyü kitabların sürətini çıxaran zaman söhbət etməyə imkanımız olurdu. O zamanlar universitetin həyətində yerləşən balaca dükanda iki surətçıxaran qurğudan birinə cavabdeh idim. Rektora "yer haqqı" verməklə fəaliyyət göstərdiyimiz dükanda əməlli-başlı alver olurdu. Fəaliyyətlərimiz arasında tək surətçıxarma yox, həm də diplom işlərinin, referatların çap

olunması və üzlənməsi xidmətləri, həmçinin, dəftərxana ləvazımatlarının satışı var idi.

Əhmədin ölümündən sonra sinir sistemimdə yaranan problemlərə görə həkimlərin rəyi, hərbi komissarlığın qərarı əsasında üç illiyə həqiqi hərbi xidmətə yararsız statusu almışdım. Bu müddət ərzində müalicə olunmalı, növbəti yoxlanışa qədər yararlı sayılmalı idim. Həm yaranan üçillik müddət, həm də mənə dəli kimi baxmaqları, məni boya-başa çatdığım şəhərdən uzaqlaşmağa vadar etdi. Öncə Əhmədin anasının, sonra özünün ölümünə göstərdikləri laqeydlik məndə əksər insanlarımıza qarşı nifrət yaratmışdı. Valideynlərimin diqqətsizliyi, soyuqluğu dəli edirdi məni. Odur ki, onların arasında yaşamaq dilini bilmədiyim qəbilə adamları ilə birgə yaşamağa bərabər olmuşdu mənim üçün.

Oranı tərk edərək kəndə - nənəmin yanına rəsmi olaraq qeydiyyata düşdüm. Burada bir il yaşadıqdan sonra sonuncu ilimi işləmək üçün paytaxta gəlməyi qərarlaşdırdım. Gündüzlər başım işimə qarışdığı üçün o qədər də əziyyət çəkmirdim. Amma axşamlar tam bir dəhşət yaşayırdım. Şəhərdən kəndə, oradan da üz tutduğum paytaxtda insanların özlərindən başqa hər

şeyi sorğu-sual etməkləri idi məni dəhşətə gətirən. Məktəbi yaxşı oxusam da, universitet təhsili ilə əlaqədar fikrimi on-on birinci siniflərdə oxuyarkən, ümümiyyətlə, kənara qoymuşdum. Çünki dəqiq bilirdim ki, universitetdə rüşvət verməninin yollarını öyrənməkdən savayı heç nə öyrənə bilməyəcəm. Buraxılış sinfində istər qonşularımızdan, istər də qohumlarımızdan övladlarını universitetdə oxutmaq üçün nə "əziyyət" çəkdiklərini, hər imtahandan yaxşı qiymət almaq üçün nə qədər rüşvət verdiklərini eşitdikcə, fikrim qətiləşirdi. İş o yerə gəlib çatmışdı ki, imtahan üçün pul verməyənə nəinki müəllimlər, hətta öz tələbə yoldaşları da pis baxırdı. İş yerimin bir universitetin həyatında olması, tələbələrin hallarından və söhbətlərindən xəbərdar olmağıma imkan yaratmışdı.

Odur ki, dərs vəsaitləri oxumasam da, bədii və fəlsəfi kitabları mütaliə etməyə həvəsim heç vaxt ölmədi. Baxmayaraq ki, oxuduğum kitablardan öyrəndiklərim mənə daha da əziyyət verirdi. Qəhrəmanlıq, mərdlik, düzlük, doğruluq obrazlarını cəmiyyətdə tapa bilməməyim, az qalırdı, məni stressə salsın. Bəlkə də elə vəziyyətimin adı stress idi. Yəqin

mən də cəmiyyətin əksər nümayəndələri kimi adını bildiyim çox şeyin özünü bilmirəm...

Kitablar mənə – "Xoşbəxtliyi dərk etsən, daim xoşbəxt olarsan..." - deyirdi. Mən xoşbəxtliyi səmimi dostluqda görüb, dərk etdim. Amma təəssüf ki, daimi olmadı. Dostlarım bir-bir məni tərk edirdilər. "Dost yoxdur..." – "dedi" bəzi kitablar. Lakin mənim yaxın dostlarım oldu. Xoşbəxt olduğum anlarda bu barədə düşünmürdüm. İndi düşünürəm, çünki xoşbəxt deyiləm...

Kirayə qaldığım ev iş yerimə yaxın olduğu üçün piyada hərəkət edirdim. Lakin universitetdə dərslərin bitməsi ilə iş vaxtımın da bitməsi günortadan sonra bekar qalmağıma səbəb olurdu. Bu bekarçılığı ya dövlət kitabxanasında fəlsəfi kitablar oxumaqla, ya da paytaxtın müxtəlif istiqamətlərinə gedən avtobuslardakı gəzintilərlə əvəz edirdim. Bütün metro stansiyalarında enib ətrafı yaxşıca müşahidə etməyim sayəsində qısa müddətdə böyük şəhəri yaxından tanımağa başladım. Beləliklə, bir tərəfdən kimsəsizliyin verdiyi bədbəxtlik hissi, digər tərəfdənsə gün ərzində adamlar arasında baş verən qeyri-insani hərəkətlər gecələr yuxumu ərşə çəkirdi.

Rahat yatdığım gecələri də təbii ki, Əhmədə borclu idim. Cavidan kimi o da mənə həyatda dostum olacaq insan barədə işarələr verirdi. Mənə maraqlı gələn Cavidanın da, Əhmədin də yuxumda həmişə xoşbəxt olmaları idi. Həyatda o qədər də xoşbəxt olmadıqları halda, yuxumda necə buna nail ola bilirdilər?! Onlara paxıllıq edirdim bu mənada. Özümü öldürmək kimi fikirlərə düşəndə, mütləq yuxuma girib məni bundan daşındırırdılar. Cənnətdə olduqlarını görürdüm. Halbuki Əhməd cənnətin, cəhənnəmin, ümumiyyətlə, fövqəltəbii qüvvələrin varlığına inanmırdı.

Bu dəfə məhz Mətləb göstərilən əlamətlərə uyğun gəlirdi. Dərsdən sonra dərs vəsaitinin surətini çıxarmaq üçün yanıma gəldiyindən, demək olar, onu hər gün görürdüm. Bir vəsaitin surətinin çıxarılması kifayət qədər vaxt apardığı üçün onunla söhbət etmək imkanım olurdu. Oxuduğum əsərlərin demək olar ki, hamısını onun da mütaliə etməsi bizi əməlli-başlı söz yoldaşına çevirmişdi. Onunla birgə, kitablardakı müxtəlif obrazlar haqqında uzun-uzadı danışar, işlətdiyi frazaları müzakirə edərdik. Çox vaxt bir-birimizdən xəbəri olmadan eyni kitabı oxuyardıq. Buna görə də söhbətimiz çox maraqlı və rəngarəng

alınırdı. Zaman keçdikcə onu hər gün görüb, söhbətləşmək üçün səbirsizlənirdim. Surətçıxaranla bağlı işi oldu-olmadı fərqi yox idi: elə Mətləb də hər gün mənə baş çəkirdi. Bir müddətdən sonra Əhməd artıq yuxuma girmirdi. Əmin idim ki, bu, Mətləblə yaxın ünsiyyətimlə əlaqəli idi. Zaman keçdikcə Mətləblə düşüncə qardaşı olduğumun fərqinə varırdım.

Mətləb ölkənin ən qədim universitetinin ən çox bilgi tələb edən fakültəsinə, yüksək balla qəbul olmuşdu. Cəmiyyətimizdə beləsinə “öz biliyi ilə qəbul olunub” deyirlər. Gülməlidir, deyilmi? Bəlkə də bir çoxu üçün burda gülməli bir şey yoxdur. Ən maraqlısı o idi ki, adi bilgilərə sahib olmayan varlı balaları onun qrup yoldaşlarıydı. Universitetin piyadalar üçün nəzərdə tutulan səkilərini təkcə Mətləbin oxuduğu qrupun tələbələrinin sürdüyü avtomobillər tuturdu. Demək olar ki, ilk gündən Mətləbi “kruq”larına yaxın buraxmayan gələcəyin “hüquq-mühafizə orqanlarının işçiləri”nin gündəlik söhbətləri qızlar, bahalı avtomobil markaları və telefonlara həsr olunurdu. O, isə bu barədə məlumatları əlinə düşən qəzet və jurnallardan, bir də

şəhərdə gördüyü iri reklam lövhələrindən alırdı. İstifadəçisi olmadığı bir vasitədən maraq yaradacaq hansı söhbəti edə bilərdi ki? Odur ki, ölkə abutiruyentlərinin 80 faizinin yaxın düşə bilmədiyi fakültədə təhsil almaq Mətləbi artıq usandırırdı.

Ödənişsiz əsaslarla oxuduğu üçün ona təqaüd təyin edilmişdi. Fəqət elə birinci aydan etibarən təqaüdünü ala bilmək üçün maliyyə şöbəsinin qapısını dəfələrlə döyməli olmuşdu. Bu məsələdə nəinki kömək edən yox idi, hətta beş-on manatdan ötrü özünü əziyyətə verdiyi üçün onu ələ salırdılar da. Həftədə bir dəfə xərclik üçün rayondan göndərilən az məbləğdə pul isə surətçıxaran, dəftər, qələm və günlük ucuz yeməklərə getdiyindən aylıq təqaüd Mətləb üçün çox vacib idi. Çalışırdı ki, heç bir dərsdən kəsiri olmasın. Çünki bu baş versəydi ya təqaüdünün kəsilməsilə, ya da az olan məbləğin daha da aşağı endirilməsi ilə nəticələnərdi. Onların qrupunda müəllimin candərdi səsləndirdiyi mühazirəni yazmaq belə ayıb sayılırdı. Sonradan vəziyyətin demək olar ki, bütün universitetdə belə olduğunun şahidi oldum.

Bütün bunlar universitet təhsili ilə bağlı verdiyim qərarım üçün təsəlliverici amillər sayıla bilərdi. Zənnimcə, savadsız olması üçün pul verən şəxs işləməsi üçün də pul verməli idi. Mənim isə təhsil almamağım üçün universitetə verəsi pulum-param yox idi. Mən təhsilimi də, təlimimi də, tərbiyəmi də kitablardan alırdım. Özü də pulsuz. Həm də istədiyim vaxt.

Kitablardakı "insan"ı öyrəndikcə, real həyatdakı insandan qaçmalı oldum. Onların düşündüklərini hiss etmək, əslində, həyatımı asanlaşdırmaq əvəzinə, bir qədər də çətinləşdirirdi. Çünki kiminsə səhv düşündüyünü dediyim zaman ona verilmiş beynilə heyvandan fərqlənən insan, bu fərqliliyi aradan götürərək, vəhşiyə dönürdü. Əsla elə düşünmədiyini Allahına and içərək, əzizlərini söyərək dilə gətirirdi. Beynin ötürdüyü informasiyanı dəyişərək başqa formada səsləndirilməsini əmr edən orqan hansıdır, bilmirəm, amma bütün bunların səbəbkarı odur. Səmimi insan - əsl düşüncəsini dilə gətirəndir, nəinki beynini hansısa maraqlara uyğun düşünməyə vadar edən. "Üzdə bir cür, arxada başqa cür…" - ifadəsini tez-tez işlədən insanları üzdə bir cür, arxada tamam

başqa cür gördüm, əziz dost. Kamilləşdikcə, əziyyət çəkdim. İnsani qorxularımı insandan qorxmalar əvəz etməyə başladı. Halbuki dostlarımla – Cavidanla, Əhmədlə xoş keçirdi günlərim. Əlavə heç nə düşünmək ağlımdan keçmirdi. Önlar öldükcə xoşbəxtliyim də yox olurdu. Çünkü mənim xöşbəxtliyi dərk etməyim əsl dostluqla sərhədlənirdi.

Beləcə, cismimin yaşı artdıqca, gözümün yaşı artırdı. Oxuduqca, öyrəndikcə, məlumatlar çoxalır, yaddaş isə azalmağa doğru yol alırdı. Ən dəhşətlisi isə o idi ki, beynim yenilənə bilmirdi. Fikir mübadiləsi üçün normal beyin tapılmadıqca, məlumatlar beynin sonsuz qatlarında yox olub gedirdi. Belə bir vəziyyətdə Cavidan və Əhməd kimi ətrafımda Mətləbin olması ümidlənməyimə səbəb oldu mənim üçün. Demək olar ki, hər sahəyə aid öz bildiklərimiz səviyyəsində söhbət etmək hər ikimiz üçün çox maraqlı idi. Günün birinci yarısını universitetdə sıxıntı içində keçirən Mətləbin, hər gün dərsdən sonra yanıma tələsməsi, belə düşünməyimə əsas verirdi.

Zaman keçdikcə tanışlığımızın ilk günlərində söhbət açmadığı məqamlardan danışar, yoldaşlarının

və müəllimlərinin xüsusiyyətlərindən bəhs edərdi. Baş verənləri eşitdikcə, əsəbimdən – hirsimdən sümüyü ağzından alınmış itə dönsəm də, hər dəfə məsələni dərindən öyrənmək üçün çoxlu sual verirdim. Lakin o, bu barədə çox da dərinə getmirdi. Tələbəliyə qədər sahib olduqları ilə özündən və sözündən utanmayan Mətləbi məcburən yaşayışından xəcalət çəkməyə vadar edirdilər. Getdikcə dərs danışmaqdan savayı səsi eşidilmir, mümkün qədər göz önündən olmaqdan çəkinirdi. Tələbəliyin ilk günlərində əyləşdiyi ön sıraları da toz basırdı yavaş-yavaş. Çünki o yerlərdə Mətləbdən başqa heç kim oturmurdu. Müəllimin gözündən yayınıb lazımsız işlərlə məşğul olmaq üçün əksər tələbələr arxa sıraya can atırdı. Özünü qrupun ən sonuncu adamı kimi hiss edən bu istedadlı məzlum gənc bir müddətdən sonra auditoriyanın sonuncu yerində əyləşməyə başladı. Mobil telefonunu mənim yanımda da səssiz rejimdən çıxarmırdı artıq. İstifadə məntiqinə əsasən ən lazımlı funkisayalarla təchiz edilmiş “Nokia 1100” markalı telefonundan utanan Mətləb dərs boyunca ona ən çox zəng edən anasından da zəng gəlməsini istəmirdi.

Bütün bu vəziyyətin yaranma səbəbini müşahidərimlə anlaya bilmişdim.

Bir gün surətinin çıxarılması üçün mənə verdiyi kitabı qaytarmaq məqsədilə onların fakültəsinə getdim. Cədvəl üzrə hansı auditoriyada dərs keçəcəklərini dəqiqləşdirib həmin mərtəbəyə qalxdım. Dəhlizlə onların otaqlarına doğru hərəkət edirdim. Auditoriyanın qapısı açılar–açılmaz dağ keçisi kimi tullana-tullana, uzanqulaq kimi anqıra-anqıra dəhlizə atılan avaraların çoxunu üzdən tanıyırdım. Bunlar Mətləbin qrup yoldaşları idi. Qrupun yarısından çoxu çıxandan sonra əlindəki telefonun ekranına baxa-baxa çölə çıxanın Mətləb olduğunu gördüm. Telofonuna zəng gəlmişdi. Ona yaxınlaşdığım anda qrup yoldaşlarının Mətləbə ünvanladıqları atmacaları eşidəsi oldum.

- Ala, sən mənim canım, səsini al o telefonun, qardaşımsan – deyə möminlərin üzündəki tükü lağa qoyduğu halda özü dəb üçün saqqal saxlayan oğlan şəhər ləhcəsi ilə dilləndi.

- Bu telefonları hələ işlədən var yəni?! – guya təəccüblənən digər oğlan qımışdı. Mətləb çaşıb qalmışdı. Ətrafda nəinki öz qrup yoldaşları, hətta

başqa qruplardan tələbələr də diqqət yetirirdi bu söhbətə. Çünki alçaqlar ucadan danışırdılar. Onlarla bərabər səviyyəli başqa birisi:

- Ala, anam canı, mən onu 5-ci sinifdə oxuyanda işlədirdim ee. Özü də onun ekranı rəngli idi. İndi vedrəylə verələr, işlətmərəm, – deyəndə Mətləbə yaxınlaşmaq istədim, amma qəfildən məni görərsə, utanacağını və bir daha yanıma gəlməyəcəyini düşünüb ayaq saxladım. Sonuncunun sözündən sonra dəstədəkilər bərkdən gülüşməyə başladılar.
- Alə, vedrəylə nə idi...
- Anam canı, açılacam gülməkdən...
- Yetim, gəl gedək, sən mənim canım! Bunun üstündən siqaret əla gedəcək, qaqa canı...

İşin qəribə tərəfi o idi ki, baş verənlərə qrup qızları da gülərək tamaşa edirdi. Mətləb isə utandığından boynunun arxasına kimi qızarmışdı. Oğlanlar gülüşə-gülüşə kənarlaşandan sonra mən də oranı tərk edərək tələsik iş yerimə gəldim. Bilirdim ki, Mətləb kitabın nüsxələrini götürmək üçün yanıma gələcək. Lakin həmin gün ondan xəbər çıxmadı. Növbəti dərsdə də iştirak etməyən Mətləbi iki-üç gün universitet həndəvərində görmədim. Qaldığı

universitet yataqxanasını tanısam da, özümü onun yanına getməkdən çəkindirirdim. Əmin idim ki, utandığından gəlmir və mənim gedib onunla bu barədə söhbət etməyim daha da pis nəticə verərdi.

Üç gündən sonra yanıma gəlmək məcburiyyətində qaldı. Çünki kitabxanadan götürdüyü kitablar məndə idi. Məsuliyyətli və intizamlı tələbə olduğundan, orada işləyənlərin yanında yalançı çıxmaq istəmirdi. Odur ki, mənimlə hal-əhval edərək kitabını və onun surətlərini istədi. Mənim üçünsə əvvəldən hazırlaşdığım məsələni həyata keçirmək lazım idi. Vərəqlərin, müxtəlif kitabların və sənədlərin arasında bir müddət axtarış aparırmışcasına var-gəl edəndən sonra ondan telefonunu istədim.

- Mətləb, danışmağa konturun varmı? Mənimki qurtarıb. Zəng vurum, görüm oğlan kitabını hara qoyub, mən tapa bilmirəm.

Əslində isə kitab aşağıdakı siyirtmədə idi. Onsuz da iş yoldaşım mənə bunu deyəcəkdi, özü də təəccüblə. Çünki dükanda olmadığım zaman Mətləbin bura gəldiyi halda kitabın qaytarılması üçün ona xəbər vermişdim. Hara qoyduğumdan xəbəri vardı.

İkinci tərəfdən, onun bahalı telefonlar işlədib, bütün günü gözünü oyunlardan ayırmayan qrup yoldaşlarından fərqli olaraq, həmişə konturu olurdu. Əvvəlcə iki-üç saniyə fikrə getdi. Yenə də səbəbini bildim. Üç gün əvvəlki hadisənin təsirindən çıxa bilmədiyi üçün utandığından telefonu verməkdən imtina etmək istəyirdi. Amma yalan danışa bilmirdi. Çünki həm konturu var idi, həm də kitab üçün narahatlıq keçirirdi. Sıxıla-sıxıla cibindən telefonu çıxarıb mənə uzatdı. Doqquz-on saniyəlik danışığımı bitirəndən sonra telefona baxıb təbəssümlə sual verdim:

- Sən də bundan işlədirsən? - Mətləb yenə də rəng alıb, rəng verməyə başladı. – Kişi adamsan! Qardaş canı, bundan gözəl telefon yoxdu. Məndə əvvəl böyük ekranlı "smart" deyirlər, nə bilim nə deyirlər, ondan idi. Qardaş, hara çatırdım, "toka" qoşmağa məcbur idim. Zəng eləyəndə donurdu, zəng gələndə donurdu. Qısası, başdan-ayağa əziyyət idi. Axırı təzəlikcə gedib, bundan aldım, səninkindən. Çox rahat telefondur...

Sözlərim onu rahatlandırmışdı. Artıq üzündə təbəssüm toxumları cücərirdi. Telefonla bağlı

fikirlərimdə səmimi idim əslində. Çünki həqiqətən müasir telefonları sevmirdim. Bircə yalanım əvvəlki telefonumun bahalı olduğunu demək idi. Sadəcə, təxminən onunkuna bənzəyən telefonumu iki gün əvvəl “Nokia 1100” ilə əvəz etmişdim. Odur ki, sözümə davam etdim:

- Hə, eynilə bundandı mənimki də, – stolun üstündəki telefonu o biri əlimə aldım, – amma öz aramızdı, sən daha səliqəli saxlamısan ha...
- Hə, nə bilim, elə ancaq cibimdə qalır, yəqin ona görə - stul çəkib oturaraq bildirdi.

Əslində söhbət istədiyim kimi alınmışdı. Lakin Mətləbə vurulan psixoloji zərbə öz sözünü deyirdi. Telefondan istifadəsini, tələbələr arasında sərbəst hərəkət edib, ünsiyyət saxlamasını görmək müşkülə çevrilmişdi. Quruda çabalayan balıq kimi özünü yanıma atırdı hər gün. Bir az rahat nəfəs alandan sonra özünə gəlib, gözünü beynində yaratdığı sonsuzluğa zilləyərdi. Dərs buraxmağın, kafi qiymətin pulla həll edildiyi bir yerdə, olan-qalan bilgilərini də unudurdu zavallı. Tez-tez yaddaşından gileylənir, dəli olduğunu düşünürdü. Dərsinə

hazırlaşdığı üçün müəllimlərinin ona olan pis münasibətinin səbəbini gözəl bilirdim.

Birinci kursun ilk yarımilinin son günləri Mətləb üçün getdikcə dəhşətə çevrilirdi. Uzun illərdir (tələbələrin biliyindən asılı olmayaraq) çox böyük məbləğ qarşısında imtahan qiyməti yazan bir müəllim bu dəfə qrupa onun üçün avtomobil alınmasını tapşırmışdı. Bu tapşırıq 30 nəfərlik qrupun xoşuna gəlmişdi. Çünki tapşırılan avtomobili almaq üçün hər adama düşən vəsait imtahan üçün verilən vəsaitdən az məbləğdə də olsa, fərqlənirdi. Qrupun pulla oxuyan tələbələri biliyinə güvəndiyi üçün pul verməkdən imtina edən beş nəfəri “yola” gətirə bilmişdi. Belə ki, “aksiyada” hamının iştirak edəcəyi təqdirdə qiymət yazılacaqdı. Lakin Mətləb həmin vəsaiti verə bilməyəcəkdi. Çünki qarşıda iki həftə müddət, arxada isə götürə biləcəyi bir manat belə artıq pulu yox idi. Bu məsələni valideylərinə deməyəcək qədər düşüncəli övlad olduğundan çarəni son günlər dərslərə gəlməməkdə gördü.

Həmin qrupun tələbələrindən və onların valideynlərindən başqa hamıya sensasiya kimi görünən avtomobil məsələsi, nəinki universitetin

əksər tələbələri, hətta digər universitetlərdə oxuyanların da çoxunun arasında əsas müzakirə mövzusuna çevrilmişdi. Dolayısı ilə rektor səviyyəsində eşidilən bu söz-söhbətlərə rəsmi reaksiya verən yox idi. Hər yerdə açıq-aşkar aparılan müzakirələr tapşırığı verən Hikmət müəllimi əsla qorxutmurdu. Görünür onun özünün də bir hikməti var idi.

Bir neçə gün ortalıqda görünməyən Əhmədi yaşadığı yataqxana otağında ziyarət etdim. Universitetdən o qədər də uzaqda yerləşməyən yataqxana baxımsız və köhnə təmirli olsa da, imkansız tələbələrdən ötrü əvəzedilməz sığınacaq sayılırdı. İki-üç nəfərlik nəzərdə tutulan otaqlarda bəzən bir, bəzən isə dörd nəfər qalmalı olurdu. Bu, bir-birini yaxşı tanıyan tələbələrin eyni otaqda qalmaq istəməsi ilə əlaqədar idi. Odur ki, Mətləb ikinəfərlik otaqda tək yaşayırdı. Həmin universitetin tələbəsi olmadığıma görə, mən də tək yaşadığıma baxmayaraq, yataqxanaya qəbul edilmirdim. Nə qədər israr etsəm də, Mətləb də yataqxanadan ayrılıb mənim yanımda qalmağa razılaşmırdı. Beləliklə, axşam yeməyini hər gün ya yataqxanada, ya da mən

yaşadığım və universitetdən uzaqda olmayan birotaqlı, ümumi həyətli bir evdə edirdik. Və gecədən nə qədər keçsə də, gedib yataqxanadakı səliqə-səhmanı ilə bütün otaqlardan fərqlənən otağında gecələyirdi.

Yenə də otağındakı balaca stola dirsəklənib kitab oxuyurdu. Stol pəncərəyə söykəndiyindən, onu yataqxananın birinci mərtəbəsindəki otağın, pərdəsi yana siyirtlənmiş pəncərəsindən görmək olurdu. Həmişəki kimi üzündəki təbəssümə səbəb olmuş səmimi hisslərlə qarşılanmağımı heç nəyə dəyişmərəm. Təbii ki, o hisslərin eynisini mən də yaşayırdım. Onunla söhbət çox maraqlı və düşündürücü idi. Təhsil aldığı ixtisas üzrə dərs materiallarıyla yanaşı, əlavə bilgilər toplamağı sevən Mətləb bu sahədə bəlkə də vicdanını pula satan müəllimlərdən çox bilirdi. Lakin mərifət qaydalarına layiqincə əməl etməsi çox vaxt ziyanına işləyirdi. Hansısa yaramazın atmacasının təsirinə çox asanlıqla düşməsi maneəsini özü istəsə də aşa bilmirdi. Elə həmin gün də, söhbətimiz bu barədə idi. Sonuncu avtomobil məsələsindən tutmuş, tələbə yoldaşlarının atmacalarına kimi müxtəlif mövzularda söhbətlər

edirdik son vaxtlar. Telefon məsələsindən sonra səmimiyyətim onu bu mövzularda mənimlə həmsöhbət olmağa həvəsləndirmişdi. Onu son dərslərini buraxmamağa dəvət etsəm də, çağırışlarım işə yaramırdı. Yoldaşlarının atmacalarına dözə bilmirdi artıq.

- Azər, başa düşmürsən e, məni. Qardaş, Allaha and olsun, güclə dözürəm. Hər gün yataqxanadan çıxanda güzgünün qabağında öz-özümə "heç kimi vecinə alma" deyirəm, amma auditoriyaya daxil olan kimi əclafların atmacaları vəziyyəti dəyişir.

- Əlbəttə başa düşürəm, amma nəzərə al ki, hələ birinci kursun, ilk semestrini başa vurmamısan heç. Qarşıda gör neçə ilin var. Buna uyğunlaşmaq lazımdır axı, ay Mətləb. Hər şeyi ürəyinə salsan, söz yox, buna heç bir ürək dözməz.

- Elə bilirsən istəmirəm? Alınmır, qardaşım, alınmır. Tək başına hamısı ilə mübarizə apara bilmirəm. Gücümlə alınmır - dava salsam, qovulacam. Sözümlə alınmır - cinsiyyət orqanı kimi hərəsi bir tərəfdən yersiz baş qaldırır. Elə ən yaxşısı, onlardan uzaq gəzməkdir, qardaş.

- Nə vaxta kimi çarəni uzaq gəzməkdə axtaracaqsan? Bəlkə ayrı-ayrılıqda söhbət edəsən onlarla?
- Söhbət? Onlarla? Nədən danışırsan, dostum? Qoyun sürüsü kimi hər yerə birlikdə gedirlər. Dərs bitəndən sonra da, kimisi şəxsi maşınına əyləşərək mühərrikinin səsini yadplanetlilərə çatana qədər qaldırır, kimisi də şəxsi sürücüsüylə genələ-genələ tərk edir universiteti.
- Hmm...
- Ona görə də ancaq imtahan günləri universitetə gedəcəm. İmtahanlarımı verib geri qayıdacam. Sonra da birbaşa kəndə. Bir az özümə gəlim, görək ikinci semestr başımıza nə gəlir...

Budur, imtahan günləri yetişdi. Dörd fənn üzrə veriləcək imtahanların sonuncusu idi - avtomobil tələb olunanı. Hər üç imtahandan bütün suallara cavab verərək kafi qiymət alan Mətləb hər dəfə təəssuratlarını bölüşmək üçün yanıma gəlirdi. Dərslər bitdiyinə görə, dükanda boş vaxtım çox olurdu. Qiymət almasına baxmayaraq, bikef olduğu gözlərindən görünürdü. Səbəb, əlbəttə, şöhrətpərəst

yığınının aşağılayıcı hərəkətləri idi. Görünür, avtomobil üçün tələb olunan məbləği vermədiyinə görə bir az artıq pul yığan tələbə yoldaşları dillərini itiləyib gəlirlərmiş imtahana.

Üçüncü imtahandan çıxandan sonra şəhəri dolaşmaq istədiyini söyləyəndə mən də ona qoşuldum. Dəniz kənarında gəzə-gəzə söhbət etmək pis olmazdı, düşündüm. Universitetin yaxınlığında yerləşən metro stansiyasına enənə qədər hər ikimiz susduq. Mətləb yaman fikirli idi. Bu səssizlik biz metroya enərkən, oradan çıxan sərnişinlər üçün "Hörmətli, bakılılar və şəhərimizin qonaqları" xitabı ilə başlayan bildirişin səslənməsinə qədər davam etdi. Mətləb xəfif gülüşlə çiyinlərini atanda əvvəlcə anlamadım onu. Söhbətdən sonra dörd aydır istifadə etdiyim metroda səslənən o bildiriş məni də düşündürdü:

- Azər, sən bakılısan? – soruşdu təbəssümlə.
- Yox... – dedim.
- Bəs qonaq?
- Necə yəni qonaq? – hələ də söhbətin nədən getdiyini anlamırdım.
- Yəni, Bakıda qonaqsan? – gülümsəyirdi.

- Elə çıxır ki, hə. Müvəqqəti kirayədə qalıram. Beş-altı aya gedəcəm kəndə. Nədi ki?

- Deyəcəm, narahat olma, – platformaya yaxınlaşanda söylədi: – Bəs yaxşı, rayondan uzun illər öncə gəlib, burada ev-eşik sahibi olan, daimi yaşayanlar necə, bakılıdırlar, yoxsa qonaq?

Platformada adamlar çoxalırdı. Mən isə Mətləbin sualını cavablandıra bilmirdim. Bir qədər düşündükdən sonra dilləndim:

- Onlar nə bakılıdırlar, nə də qonaq. Məncə, bu elanda “qonaq” deyəndə xarici qonaqları nəzərdə tuturlar...

Aramızdakı səmimiyyət imkan verirdi ki, Mətləb əlini çiynimə atıb son sözlərimə gülsün. Sürətlə platformaya yaxınlaşmaqda olan qatarın işığı onun az öncəki gülüşdən yaşaran gözlərini işıqlandırırdı. Yeraltı qatarın gəlişilə yaranan süni külək isə dostumun saçlarını qarışdırdı. Əyləclərin səsindən eşidilmədiyini bilib qulağıma yaxınlaşdı:

- Bəs niyə azərbaycanca?!...

Qapılar açıldı və biz vaqona daxil olduq. Sonuncu sual beyin qatlarımı lərzəyə gətirmişdi: “Bəs niyə azərbaycanca?”. Həqiqətən, əgər elan xarici

qonaqlar üçün səslənirsə, niyə Azərbaycanca? Bəs yaxşı, xaricilərə yox, elə özümüzə aiddirsə, bu, ayrı-seçkilik deyilmi? Olmazdımı ki, “Hörmətli sərnişinlər!” - deyə xitab ediləydi?

Qatarlar arasındakı fasilənin çoxluğu vaqonlarda sərnişin izdihamı ilə müşaiyət olunurdu. Belə ki, kimlərsə mobil telefonunda qurdalanır, kimsə qulaqcıqla dinlədiyi musiqinin təsirinə qapılaraq qaş-gözünü oynadır, kimlərsə növbəti stansiyaya qədər vaqonun divarlarını “bəzəyən” reklamları oxumaqla vaxt öldürür, kimsə kənardan necə göründüyünü düşündüyü üçün, əlindəki kitabın hansısa səhifəsini təkrar-təkrar oxumalı olur, kimlərsə də bütün bunları eynən mənim kimi müşahidə etməklə məşğul idi. Bu tündlüyün içində bir də, dilənməyi seçməyib qələmin on ədədini bir manata satmaq üçün vaqonun bir başından o biri başına sərbəst hərəkət edən yaşlı qadını görməmək mümkün deyildi. Biz isə müvazinətimizi saxlamaqdan ötrü nəinki hərəkət etmirdik, hətta yıxılmamaq üçün hərəmiz bir yerdən yapışmışdıq. Düşündüm ki, həyata qarşı müvazinətini saxlayan həmin o yaşlı qadın üçün metro vaqonu nədir ki...

Dənizkənarı parka yaxın yerləşən metro stansiyasından çıxanda güclü yağış yağdığı üçün avtobusa minməli olduq. Burada da vəziyyət ürəkaçan deyildi. Sürücü istədiyi yolla sürür, istədiyi yerdə saxlayır və istədiyi manevri edirdi. Fərdi minik maşınlarını idarə edənlərin çoxunun avtobus sürücüsünə olan söyüşlərini rahatlıqla eşitmək olurdu. Xoşbəxtlikdən sürücü özü bu söyüşləri "eşitmirdi".

Xalqımızın milli-mənəvi dəyərlərinin diqtəsi sayəsində formalaşan bir məsələ var: qadınlar ayaq üstə duran zaman cavan oğlanların əyləşməsinə pis baxılır. Nə dərəcədə təqdirəlayiq bir dəyər olduğunu deyə bilməyəcəm. Hərçənd mən özüm də avtobusdan istifadə etdiyim dövrdə əyləşdiyimi xatırlamıram. Odur ki, həmin gün ayaq üstə durmaq üçün özümüzə yer edəndə qəribə mənzərə ilə qarşılaşdıq. Başının üstündə yaşlı bir xanımın dayanmasına baxmayaraq, üzünü pəncərəyə çevirib telefonla yaylana-yaylana danışan cavan oğlan hamının diqqət mərkəzində idi. Bu diqqət iki dayanacaq sonra bir qızın tələm-tələsik avtobusa daxil olmasına qədər davam etdi. Yağış suyu ilə islanan qızın saçları və üz-gözü salonun işığından parıldayırdı. Dəri gödəkçənin altından

geyindiyi nazik idman stilindəki köynəyi döşlərini yarıya kimi örtə bilirdi. Qız, başını astaca sağa-sola fırlada-fırlada, yaşlı xanımın yanında qərar tutdu. "Qəhrəman"ımızın da gözü həmin qızda idi. Onu aşağıdan yuxarı yaxşıca süzdükdən sonra ayağa qalxaraq əyləşməyi təklif edəndə, prosesi izləyən hər kəsin reaksiyası üzündən oxuna bilirdi. Görünür, o qıza yuxarıdan aşağı baxmaq daha da zövq verəcəkdi azğına...

Həmin gün yağış "hakimiyyətini əldən vermədiyinə" görə çayxanada söhbət etməli olduq. Həmişəki kimi, yenə də söhbətimizin əvvəli sıxıntılı olsa da, sonu maraqlı alınmışdı. Sonuncu imtahanla bağlı narahatçılığı hər halından sezilirdi. Tələbə yoldaşlarının atmacalarına dözə bilmədiyini israrla söyləyir, utandığından universitetin həyatınə yaxın durmadığını vurğulayırdı. Qiymət üçün müəllimə avtomobil alınması lazım olan son imtahanda onu nələr gözlədiyini ağlına belə gətirə bilmirdi. İki gün sonranı xətasız-bəlasız yola verib kəndə getməyi planlaşdırırdı.

Yağışdan sonra havanın müəyyən qədər təmizləndiyini gördüyümüz üçün yataqxanaya piyada

getməyi qərara aldıq. Tozu-dumanı ram etməsi, həmişəyaşıl kollara, dekorativ ağaclara canlılıq verməsi, təbiətin əsl qoxusunu yaşatması və bütövlükdə romantik mənzərə yaratması mənim üçün yağışı sevdirən amillərdəndir. Avtomobillərin piyadaları nəzərə almadan şütüdüyünü istisna etsək, piyada yol getmək adama xüsusi zövq verirdi. Lakin bir hadisəylə bağlı müşahidəmiz hər ikimizin bikef olmağına gətirib çıxartdı.

Möhtəşəm örtük daşları və yaşıllıqla bəzədilən parklardan birinin insan sıxlığı ilə müşaiyət olunan hissəsindən keçərkən Mətləb anidən ayaq saxladı. Bir-birindən azca aralıda, ayaq üstə dilənən iki yaşlı qadına qısa müddətdə diqqətlə baxdıqdan sonra üzünü mənə çevirəndə onun gözlərinin necə dolduğunu – qəhərləndiyini gördüm. Nə baş verdiyini əvvəlcə ağlımın ucundan belə keçirə bilmədim. Çaşqınlıq içində idim. Yenidən qadınlara sarı döndüm. Ani olaraq hanısınınsa Mətləbin yaxın qohumu olduğunu fikirləşdim. Biri, sadəcə, əlini açaraq sakitcə dayanmış, digəri isə hər iki qolunu aşağı-yuxarı qaldıraraq, ətrafa cahillərin inandığı dualardan səpirdi. Geri çevriləndə Mətləbi oturacaqda

fikirli-fikirli əyləşən gördüm. Mən də onun yanında özümə yer elədim. İlk olaraq nə baş verdiyini soruşdum:

- Nə olub? Kimdi ki, onlar?
- Sakitcə dayanan qadını görürsən? – əlini onlara tərəf uzatdı.
- Görürəm, – dedim.
- Bax, həmin qadın dünənə kimi elə həmin yerdə limon satırdı.
- Başa düşmədim, – həqiqətən hələ də heç nəyi dərk edə bilmirdim.
- Azər, o qadın uzun müddət idi ki, beş ədədini bir manata limon satırdı. Hər ehtiyac olanda limonu ondan alırdım. Bu gün isə dilənir. Bu qədər sadə. Gedək, - dedi və ayağa qalxaraq yataqxanaya getmək üçün yolunu dəyişdirdi.

Sanki ürəyimdən daş salladılar. Ehtiyacı olanlara halal qazanc vermək əvəzinə, dilənçiliyi peşə seçənlərə dəstək olmağımızdır bizi cahil edən. Özümüzü göstərmək üçün pul verməyimizdir dilənçilərin sayını artıran. Bir sözlə, bizi sivil insanlardan fərqləndirən, iyirmi qəpik verməklə hansısa istəyimizin gerçəkləşəcəyinə inanmağımızdır.

İki dəqiqə kimi görünən iki gün gəlib çatdı. Bəli, iki dəqiqə kimi görünən iki gün. Çünki istədiyimiz məqam gec, istəmədiyimiz isə tez çatar. İmtahan öncəsi yanıma gələn Əhmədi həvəsləndirmək üçün əlimdən gələn hər şeyi etdim. Amma dostumun o saf təbəssümü saniyəlik olurdu. Bütün dərs vəsaitini komplektləşdirdiyi dəftəri iyirmi dəqiqə ərzində təkrarlayıb ayrıldı yanımdan.

Başım o qədər qarışmışdı ki, dörd saatdan sonra narahat olmağa başladım. Digər imtahanlardan sonra təəssuratlarını bölüşmək üçün yanıma gəldiyi halda, bu dəfə ondan səs-soraq yox idi. Tələm-tələsik kəndə getdiyi üçün mənimlə sağollaşmağa vaxt tapa bilmədiyini düşündüm. Bəlkə da imtahan hələ bitməmişdi. İçimdəki narahatlıq qurda çevrilib daxilimi yavaş-yavaş yeyirdi. İmtahan keçirilən auditoriyaya qalxdım. İmtahan bitmişdi, tək-tük tələbələr orda-burda laqqırtı vururdular. Mətləbin isə imtahan başlayandan bir saat sonra oranı tərk etməsini eşidən kimi o dəqiqə dalağım sancdı. Ağlıma ilk gələn telefonuna zəng etmək oldu. Lakin on bir dəfə ard-arda etdiyim zənglərim cavabsız qalınca çarəni yataqxanaya getməkdə gördüm. Sanki

həmin an ürəyim ağzımdan çıxacaqdı. Nəsə hiss edirdim. Qəlbim o qədər möhkəm döyünürdü ki, udquna bilmirdim. Yataqxananın girişində nəzarətçi kimi dayanan Abış kişiyə salam verməmiş Mətləbi soruşanda, kişi çaşqınlıq içində onun xeyli vaxtdır otağında olduğunu bildirdi. Bu mənim üçün şad xəbər idi. Boş-boşuna həyəcanlandığımı fikirləşdim. Ağlımdan keçdi ki, Mətləb sonuncu imtahanın suallarına hamıdan tez cavab yazıb, kəndə getməyə tələsdiyindən, pal-paltarını yığışdırmaq üçün yataqxanaya gəlib. Ona görə də dəhlizin sonundakı otağına rahat addımlarla irəlilədim. Həmişəki kimi, daima bağlı saxladığı qapını özüməməxsus şəkildə döydüm. Bu tip qapıdöymə sağ əlin dörd barmağını ardıcıllıqda qapıya iki dəfə toxundurmaqdan ibarət idi. Lakin Mətləb qapını açmaqda gecikirdi. Yır-yığış etdiyi üçün eşitmədiyini düşündüyümdən bu hərəkəti təkrarladım. Lakin qapı yenə də açılmırdı. Artıq çoxunun etdiyi kimi barmaqlarımın orta büklümlərini qapıya zərbə ilə vurmağa başlamışdım. Sonra yumruq, hətta təpik...Qırmaq üçün cəftəni var gücümlə aşağı-yuxarı edəndə qapı açıldı. Əslində heç bağlı deyilmiş. Hərə üçün fərqli bir dünyaya açılan

qapı mənim üçün cəhənnəmə açılmışdı. Və bu cəhənnəmin düz ortasında Mətləbin hərəkətsiz vəziyyətdə sallanan cansız bədəni. Var gücümlə qışqırmağımın ilk üç saniyəsi xaricində həmin ana dair heç nə xatırlamıram.

Sonrası da ki, cəmiyyətin həmişəki laqeydliyi. Dörd-beş gündən sonra nə yataqxanada, nə də universitetdə belə bir hadisəni xatırlayan olmadı. Elə bil orada hamıdan yüksək bal toplayaraq adını əlaçı tələbə kimi tanıtdıran Mətləb heç olmayıbmış. Sanki sonuncu imtahanda müəllimin də qoşulduğu məsxərə olmayıbmış. Elə bil tələbələrdən birinin "Eybi yox, müəllim, Mətləb də hər gün maşının təkərlərini qaraldar..." – sözünə dəqiqələrlə gülənlər olmayıbmış.

# DÖRDÜNCÜ HİSSƏ

## DÜŞMƏN GÜLLƏSİ

*Əgər biz tez-tez keçmişi düşünürüksə,*
*deməli indiki zamanı doğru yaşamırıq.*
***Natalya Aleksandrovna***

Hərbi xidmət illərimin xatirələri... O xatirələr ki, yada salındıqca, düşünüldükcə, kiminləsə paylaşıldıqca, sanki yenidən yaşanılır. Dindən sonra bəlkə də yeganə müzakirə mövzusudur ki, haqqında danışıldıqca bezmək olmur, məsələlərin əsas mahiyyəti dərk edilmədən fikirlər səsləndirilir. Ən maraqlısı isə bu xidməti görmüş insanların əksəriyyətinin özünü hər sahədə hamıdan fərqli olduğunu dilə gətirməsi, ancaq ən yaxşı günlərindən dəm vurması və uydurduğu səhnələrə zaman keçdikcə özünün də inanmasıdır.

Mətləbin də faciəvi şəkildə özünə qəsd etməsi, yenicə düzəlməkdə olan sinirlərimi, sakitləşən əsəblərimi kökündən sarsıtmışdı. Gözlərimi hər bağladığımda o dəhşət dolu mənzərə canlanırdı sonsuz qaranlıqda. Onun tavandan asılı qalan cansız bədəni və mənim hayqırmağım. Hələ də özümü bağışlaya bilmirəm. Özümü itirməyib onu ipdən almalı idim. Bəlkə də özünü yenicə asmışdı, bəlkə də yaşayacaqdı...

Əslində mən yataqxananın dəhlizində olmalıydım, amma başqa bir yerdə açmışdım gözlərimi. Yüzlərlə insanın danışığı və avtomobillərin səs siqnalları eşidilirdi. Ətrafımdakı kütlənin özünü məsələdən bixəbər aparması məni az qala dəli edirdi. Mətləbi soruşdum hamıdan. “Hardadır?” - deyə çığırdım, lakin dilini udmuş insanlar yad nəzərlərlə məni müşahidə etməkdən başqa heç bir reaksiya vermirdi. Yataqxanaya doğru qaçdım. Birinci mərtəbənin sonuncu otağının pəncərəsindən boylanmaq istədim. Pərdələr tam çəkildiyindən heç nə görə görə bilmədim. Yarıqaranlıq dəhlizlə Mətləbin otağına sarı yüyürdüm. Yumruq-təpikdən sonra çiynimlə qapını sındırmaq üçün arxaya

çəkilmək istəyəndə, cəftə aşağı endirildi və içəri tərəfdən açar buruldu. Qapının açılmağına yaman sevindim. Asta tərpənişlə baş görünəcək qədər açılmış qapıdan boylanan yarıyuxulu şəxs Mətləb deyildi.

- Nə lazımdır? –narazı və bir az da əsəbi səslə dilləndi.
- Mətləb hanı? – tələsik soruşdum.
- Mətləb nədir? O kimdir?
- Necə kimdi? – təəccübləndim: – Bura onun otağı deyil ki?
- Əşşi nə danışırsan e, sən? – sifətini əlilə ovuşdura-ovuşdura dilləndi – Buna görə beş saatdır çırpırsan qapını? Sındırmamışdan qabaq bir dəqiqləşdir də.

Qapını tam açdığından artıq qarşımda dayanmışdı. Səs-küylə oyatmağım, görünür, onu yaman əsəbiləşdirmişdi. Mənim isə təəccübüm getdikcə artırdı.

- Mətləb dostumdur, üç-dörd ay idi bu otaqda qalırdı. Neçə dəfə yanına gəlmişəm. Səhv eləmirəm, dəqiq bilirəm ki, buradır, – həyəcanla dedim.

- Qardaş, deyəsən, məzələnirsən axı mənlə. İki ildən çoxdur biz burda qalırıq. Mətləb adında kimsəni tanımıram. Varsa da, lap təzə gəlib yəqin.

O an nələr düşündüyümü hiss edə bilirsizmi? Əminəm ki, mənim yerimdə kim olsaydı, elə həmin hissləri keçirərdi. Artıq dəli olmağa başlayırdım. Nə yataqxanada, nə də universitetdə Mətləbi tanıyan yox idi. Necə ola bilər axı? Tanrım, bu nə deməkdir? Bu nə əzabdır çəkirəm? Əvvəlcə Cavidan, sonra Əhməd, indi də Mətləb. Ölümlərindən sonra, məndən başqa heç kim üçün iz buraxmadılar. Heç kim də, bu barədə maraqlanmadı...

Min bir əqidəyə qulluq edən cəmiyyət üzvlərinin arasında yaşamaq dözülməz olduğundan, vahid amal - vətəni qorumaq məqsədi güdən əsgərlərlə “kişilik məktəbi”ni keçmək ürəyimcə olacaqdı. Lakin psixoloji durumum məni ikinci dəfə hərbi xidmətə yararsız etdiyindən, növbəti üç ilimi kənddə - nənəmin yanında keçirməli oldum.

Müharibə şəraitində yaşayan bir məmləkətin keşiyini çəkməyin həyəcanını hərbi xidmətə yollanacağım gün yaxınlaşdıqca daha bariz hiss

edirdim. Yerli telekanallarda sərhəd bölgələrindəki əsgərlərin hər an döyüşə hazır olma ismarıcları, onların bir-birilərilə münasibətlərinin, xidmət yerlərinin, qidalanma şəraitlərinin yüksək səviyyədə olması içimi fəxarətlə doldururdu. Efirdən onlara silah-sursatla bağlı intensiv təlimlərin keçirilməsini görmək bir an öncə əsgər olmaq istəyimi daha da gücləndirirdi.

Sərhədlərimizə yaxın ərazidə yerləşən hərbi hissələrdən birində xidmət edəcəyimi əsgərliyini başa vurmuş insanlar sayəsində dəqiq bilirdim. Başqa cür ola bilməzdi. Çünki böyük şəhərlərdə və ya səfalı yerlərdə yerləşən hərbi hissələrə düşə bilməyim üçün ya xidmət yaşı çatmış gənclərin ölkə ərazisi üzrə bölgüsü ilə məşğul olan idarədə qohumum, ya da çoxlu pulum olmalı idi. Xoşbəxtlikdən bunların hər ikisindən məhrum idim. Odur ki, rayon hərbi komissarlığından gələn bildirişdə göstərilmiş tarixdə, qeyd olunan ünvandan xüsusi ayrılmış avtobusla dəmir yolu vağzalına sarı yola düşdük.

Dəmir yolu vağzalı kəndimizə elə də uzaq məsafədə deyildi, amma buna baxmayaraq, qatarı ilk dəfə idi bu qədər yaxından görürdüm. Odur ki, qatara

minəcəyim üçün içimdə sevincə bürünmüş həyəcan var idi. İlk dəfə yalnız filmlərdə gördüyüm səhnəni baş rolda özüm olaraq yaşayacaqdım. Bir an öncə qatarın dar dəhlizində səndələyə-səndələyə getmək, pəncərəsini iki əlimlə yuxarı qaldıraraq açmaq, küləyin taxıl zəmilərinin üstündə rəqs etdikdən sonra üzümə çırpılaraq gözlərimi bağlamasını hiss etmək istəyirdim. Fəqət, elə bu dəm onun yüksək səsli siqnal sədası düşüncələrimi belə ürəyimdə gömdü.

Vaqon qapılarından, yüksək səslə ad-soyad çığıran hərbi komissarlıq işçiləri, oğlanlarının boynuna sarılaraq için-için ağlayan analar, qardaşlarını kədərlə yola salan bacılar, hərbi hissədə nəsə alıb yeməsi üçün bəlkə də son beş manatının üçünü övladlarının cibinə dürtən atalar, əsgər gedəcəyi üçün saçını dibindən kəsdirmiş çağırışçılarla məzələnən dostlar-tanışlar və bütün bu insanlar arasından ilan kimi burula-burula özünə yol taparaq sərin su satan yaşlı kişinin "Sərin sular, sərin sular..." - çağırışları başımı gicəldirdi.

Ümumi vaqona yığılan çağırışçıların istidən qızaran sifətləri bir-birinə bənzəyirdi. Onların bir qismi bizim stansiyaya gələnə qədər söhbət yoldaşı

ola bilmiş, bir qismi isə gözünü qatarın istiyə görə tam açılmış pəncərəsindən üfüqə zilləyərək, Allah bilir, nə düşünürdü.

Nənəm xəstə olduğundan onunla evdə, tanışlarımla kənddə, dayımla isə hərbi komissarlığın həyətindən avtobusa minəndə sağollaşdığım üçün, qatar hərəkətə başlayanda mənə əl edən yeganə şəxs, -özümdən asılı olmayaraq əlindəki suya həsrətlə baxdığımı və pulumun olmadığını anlayıb təkidlə su uzadan elə həmin qoca satıcı idi...

Vətənə, millətə sadiq olacağımız barədə təşkil olunan andiçmə mərasiminin keçiriləcəyi tarixə qədər gənc əsgər kimi sərhəddən xeyli kənarda yerləşən N saylı hərbi hissədə oldum. Min və ya min beş yüz əsgərin tağımlar şəklində tez-tez toplaşması üçün tağım komandirləri tərəfindən verilən kobud tərzdə əmrləri, fərəqət vəziyyətində durduğumuz zaman hərbi xidməti bitirməyinə az qalmış əsgərlərin diqqətimizi yayındırmaq üçün kənardan söz atmaları, əmrini eşidəndə qeyd-şərtsiz icraya hazır vəziyyətə gəldiyimiz çavuşların köhnə əsgərlərlə qeyri-etik zarafatlaşmaları, üstəlik hərbi xidmətə yollanmağımın yay mövsümünə təsadüf etməsi əvvəlcədən nəzərə

almadığım məqamlar idi. Gün ərzində günəş şualarının ən sərt olduğu iki-üç saat istisna olmaqla, vaxtımız nəzəri təlimlərdə keçir, saatlarla sıra addımları atır, təsirli olsun deyə ayaqlarımızı asfalta daha sərt vurmağımız üçün əmrlər verilirdi. Mahiyyətini dərk etməsəm də, and içəcəyim günü Allaha yalvararaq gözləyirdim. Zaman-zaman xidmətə gəldiyim üçün peşimançılıq son həddə qədər qalxır, hərbiyə nifrət edirdim. Hiddətimin səbəbi təlimlərin çətinliyi, məşqlərin ağırlığı deyil, xidmət müddətinə görə əsgərlərə qoyulan ayrı-seçkilik, vətənə xidmətin, qeyri məsələlərə nisbətən, arxa planda olması idi.

Təntənəli andiçmə mərasimindən iki gün sonra mən və başqa altı əsgər tabor komandirinin əmrilə həmin hərbi hissənin sərhəddə yerləşən məntəqəsinə göndərildik. Bizi xidmət aparacağımız postun starşınası müşaiyət edirdi. Təmas xəttinə yaxınlaşdıqca sahələrdə yalnız ara-sıra ağac və kollar olduğu görünürdü. Dağların ətəyi ilə uzanan dar və kələ-kötür yollarda hərəkət etdikcə, daxili orqanlarımın yer dəyişdirdiyini düşünürdüm. Yolun sürücü üçün müəyyən, lakin bizim üçün qeyri-

müəyyən hissəsində "UAZ" markalı avtomobilin sürətinin azalması ilə starşınanın bizə tərəf çevrildiyini gördüm.

- Başınızı aşağı əyin, - xəfif təbəssümlə dilləndi.

Hamımız elə bil bu əmri gözləyirdik. Əmri eşidər-eşitməz, özümüzdən asılı olmayaraq, başımızı o qədər aşağı əydik ki, az qala ayağımıza dəyirdi. Avtomobil əvvəlcə demək olar ki, tamamilə dayandı. starşınanın əsgər forması geyinmiş sürücüyə "Bas getsin!" - deməsilə avtomobilin mühərrikindən gələn səs hamımızı diksindirmişdi. Bir anda sürətlənən maşın bizi on-on beş saniyə sağa-sola, aşağı-yuxarı atıb tutandan sonra əvvəlki sürətinə geri döndü. Mən ortada əyləşdiyim üçün ön oturacaqların arasından onu görə bilirdim. O, maşının pəncərəsini çətinliklə aşağı endirdikdən sonra, döş cibindən siqaret çıxararaq sürücüdən alışqan istədi. Siqaretindən bir qullab alıb dərindən köks ötürərək söylədi:

- Ayə, nə zibilə düşmüşük e. Bu oğraşların əlindən öz yolumuzla da rahat gedə bilmirik!

Siqaretin tüstüsünü daha dərindən içinə çəkib arxaya boylandı. Bu arada biz hələ də başı aşağı vəziyyətdə əmri icra etməkdə idik. Onun arxaya

çevrildiyini görüb başımı tez aşağı əydim. Öskürəyə qarışıq gülüşlə dillənən starşına:

- Ay bala, siz hələ qalxmamısız? - deyəndə sürücünü də gülmək tutdu. Nə baş verdiyini təbii ki, anlamamışdıq. Başımızı qaldıranda, hamıda bel ağrısının göstəriciləri sezilirdi.

Uzun və həyəcanlı yoldan sonra xidmət aparacağımız tağımın blindajına çatdıq. Bizi şəxsi heyətlə tanış edən starşına daha sonra postlar və qurğular haqqında ətraflı məlumat verdi. Sərhəd xətti olduğu üçün xidmət apardığımız, yatdığımız, yemək yediyimiz yerləri təlim-tədris bölüyündə olduğu kimi xüsusi təmizləməyə eytiyac olmurdu. Hər tərəf torpaq olduğundan haranısa silmək məsələsi müzakirə mövzusu belə deyildi. Postlarda siqaret çəkilmədiyi üçün (bunun üçün ayrıca yer ayrılmışdı) xidmət aparılan yerlərdə siqaret kötüklərinə rast gəlinmirdi.

Bizim tağım, tabeçiliyində olan beş postda layiqincə xidmət aparırdı. Postlarda yatmaq, nizamnamə çərçivəsində qadağan edilsə də, əlavə olaraq, əsgərlər tərəfindən söyüş də “qoyulmuşdu”. Çünki postdakı ani sayıqsızlıq faciə ilə nəticələnə bilərdi.

İlk günümüz xidmət yeri ilə tanışlıqla keçdiyi üçün qeyri-adi hadisə baş vermədi. Həmin gün öyrəndiyimiz ən maraqlı məlumatlardan biri posta gələrkən maşında əyilməyimizin səbəbi oldu. Sən demə, yolun həmin hissəsi düşmən postunun görüntü sahəsinə düşür. Orada baş verən hadisələrlə bağlı danışan əsgər yoldaşlarımız, özləri də bilmədən, bizi daha da həyəcanlandırırdılar. Düşmənin bizim yüksək ərazilərimizi işğal edərək,orada qərar tutması,onların xeyrinə idi. Görüş sahəsinə düşən yolun həmin on beş-iyirmi metrlik hisəsində baş verənləri eşitmək adamı hiddətə gətirirdi. Düşmən əsgərləri o yolda dəfələrlə mal-heyvanı üçün ot aparan kəndlinin arabasını yanan güllə ilə atəşə tutmuş və nəticədə ot yanmış, neçə-neçə mal-qaranı vuraraq öldürmüş, onlarla avtomobilə atəş açmağa macal tapmış, lakin xoşbəxtlikdən indiyəcən heç bir insan itkisi baş verməmişdi.

Yeni gələnlərlə birlikdə cəmi iyirmi bir nəfər heyəti olan bu tağımın bircə komandiri, bir starşınası və bir çavuşu var idi. Tağım komandiri kapitan Tapdıqov otuz üç-otuz beş yaşlarında olardı: idmançılara oxşayan bədənini dik yerişilə hamıya

göstərən, qalın qaşlı, qarabənizli, yeriyəndə əllərini asta-asta dalğalandıran, bir sözlə, lovğa bir insan idi. Xidmət yerindən narazı olması, şəhər hərbi hissələrindən birinə təyinat almaq üçün dəridən-qabıqdan çıxması, əsgərin maddi imkanını nəzərə almadan müxtəlif sifarişlər verməsi, tabeliyində olanların ən adi səhvini dağ boyda edərək söyüşlə təhqir etməsi, zəhmli və hətta qəddar olması çox keçmədi ki, hamımıza məlum oldu.

Starşına nisbətən yaşlı olsa da, özünü həmişə gənc hiss etdiyini vurğulayan, bəstəboylu, yeyib-içməyi sevən, lopa bığları sarışın sifətinə yaraşıq verən, mehriban insan idi. Əsgərdən heç nə ummaz, əksinə, daim onlarla maraqlanırdı. Əsgərlər arasında köhnə əsgər, təzə əsgər qarşıdurmasının qətiyyən əleyhinə olması, yeni gələnlərin xeyrinə, köhnə əsgərlərin isə zərərinə işləyirdi. Amma bu istəyinə həmişə çata bilmirdi. Onun ərazidə olmadığından istifadə edən çavuş Səfərov nəinki yeni əsgərləri, hətta dilsiz-ağızsız, fağır köhnə əsgərləri də gözümçıxdıya salırdı. Səfərov tağım komandiri Tapdıqovun ona verdiyi imtiyazlardan yüksək səviyyədə yararlanır və çox vaxt komandirin

vəzifələrini qeyri-rəsmi olaraq elə özü icra edirdi. Bizə qeyri-müəyyən olan bu imtiyazların səbəbi əvvəllər maraq dairəmizdə olmasa da, sonralar Səfərovun özbaşınalığının bizi cana yığması bu barədə düşünməyimizə səbəb oldu.

Çavuş Səfərov çəlimsiz biri olsa da, güclü əl, xüsusən də ayaq zərbələri endirməyi ilə tanınırdı. Həmin tağıma gələndən üç gün sonra bunun şahidi olmuşdum. Səhər hamıdan iki saat gec oyanan Səfərov yeməkxanada mənə yaxınlaşaraq yüksək səslə:

- Bu gün yerimi sən yığarsan!- deyəndə yediyim hülqumumda ilişib qalmışdı. Baş verənə mənimlə bir yerdə gələn əsgərlərdən başqa heç kim təəccüblənməmişdi. Adi bir şey olurmuş kimi hər kəs yeməyini yeyirdi. Yarıda qalan yeməyimi davam etdirə bilmədiyimi indi də yaxşı xatırlayıram. Yeməkdən sonra sıra düzülüşünə qədər olan şəxsi vaxtı tualetdə boş oturmaqla keçirdim. Belə bir vəziyyətdən çıxış yolunu ağlıma gətirə bilmirdim. Ya dediyini etməli idim, ya da... Ya da bilmirdim necə olacaq.

Sıra düzülüşü üçün toplanma əmri eşidiləndə tualetdən çıxdım. Üst-başımı düzəldə-düzəldə gedirdim ki, çavuş Səfərov məndən şübhələnməsin. Uzun müddət dayandıqdan sonra gözlərimi sıranın önünə keçən çavuşun üzündən yayındırmağa çalışsam da, mənə diqqətlə baxdığını hiss edirdim. Elə bilirdim ürəyimin döyüntüsünü yanımda dayanan əsgər yoldaşlarım eşidir. Bu arada çavuş Səfərov az qala eşşək kimi anqıra-anqıra müxtəlif əmrlər verərək, guya səhər idmanı etdirməyə başladı.

- “Jim” vəziyyəti allll! - deyən vaxtı isə son kəlməsini uzadaraq qışqırması adamın əsəblərini korlayırdı. - Olmadıı, “jim” vəziyyəti al, olmadıı, - əmrlərini dəfələrlə təkrarlaması onu qətiyyən bezdirmirdi. Görünür, məktəbdə ancaq rus dili dərsini oxuyurmuş. Nəinki yat, qalx əmrlərini, hətta bir sıra sözləri də rus dilində səsləndirməsi bu qənaətə gəlməyimə səbəb olmuşdu. Tərləyən bədənimiz qollarımızdan ümidini üzüb zaman-zaman yerə dəydikcə, bədən ölçülərimiz torpağa həkk olunurdu.

Ən dəhşətlisi isə komandirin bu prosesi damağında siqaret, gözündə güzgü effektli gün eynəyi, təbəssümlə izləməsi idi. Otuz dəqiqədən çox

çəkən işgəncəyə bənzər idmandan sonra öyrəndim ki, hər kəs mənə görə əziyyət çəkibmiş. Çavuş Səfərov mənim üstümdə digərlərini incitmişdi ki, onlarda da mənə qarşı nifrət yaransın. Bunu acıqla və açıqca dilə gətirən digər əsgərlərdən öyrənməli olmuşdum. Səbəb isə Səfərovun yerini yığmamağım idi.

Şam yeməyində çavuş Səfərovun mənə baxa-baxa qımıldanaraq yemək yeməsi düzünü deyim, canıma qorxu salmışdı. Axşam düzülüşündən və siyahı yoxlanışından sonra bir başa yerlərimizə yollandıq. Əmin idim ki, axşam nəsə baş verəcək. Amma nə?!

Hərbi xidmətdə köhnə əsgərlərin gənc əsgərləri sınaqdan keçirmək üçün gecə yuxusundan oyadıb döyməklərini eşitsəm də, buna heç cur inanmaq istəmirdim. Tanışların o sınaqdan layiqincə çıxdıqlarını dilə gətirməsi mənim də bu imtahandan müsbət qiymət alacağımı yəqinləşdirmişdi. Belə ki, yerimə girəndən gözümə yuxu getmədi. Nə qədər həyəcanla gözləsəm də, heç kim yaxınlaşmadı. Beləcə həyəcanı yavaş-yavaş kənara qoyan vücudum yuxuya “gəl-gəl” deməyə başladı. Yorğunluq yuxusu bir başqa olur, həqiqətən. Gözümü bir anlıq nənəmin

qoynunda açdım. Kürəyimi ovxalaya-ovxalaya ağlayırdı.

- Niyə ağlayırsan, nənə?
- Elə-belə... Səndən ötrü narahatam.
- Niyə narahatsan ki, evdəyəm, yanındayam – üzümdə təbəssüm, amma həyacanlı səslə söylədim.
- Sən yenə də ehtiyyatlı ol! Səbirli, dözümlü ol, bala!

Onun narahatçılığını heç cür başa düşə bilmirdim. Özümdən asılı olmayaraq mən də ağlamağa başladım. Ağlaşma təzəcə başlamışdı ki, işdən gələn dayım pencəyini stulun başına keçirərək əsəbi halda dilləndi.

- Yenə başladı ağlaşma? Bunun yerinə qız olsaydı kaş, - deyib üstümə gəldi. Çox əsəbi idi. Qolumdan tutub, ayağa qaldıraraq üstümə qışqırırdı:
- Sənə deməmişəm ki, arvad kimi ağlama? Bir az mənə oxşa da!

Bu vaxta kimi məni bir neçə dəfə danlamasına, vurmasına baxmayaraq, heç vaxt cavab qaytarmamışdım ona. Həm aramızdakı yaş fərqi, həm də tərbiyəm buna imkan vermirdi. Amma bu dəfə özümdən asılı olmayaraq:

- Özünsən arvad, – qışqırdım.

Bərəlmiş gözləri ilə gözümün içinə baxandan sonra silləni sifətimə endirməyilə gözümü blindajdakı yatağımda açmağım bir oldu. Hər tərəf zülmət içində idi. Əllərimi hərəkət etdirə bilmir, nə baş verdiyini anlamırdım. Gözlərimi və əllərimi necə bağlamışdılarsa qətiyyən hiss etməmişdim. Qarnıma vurduqları zərbədən onsuz da səsimi çıxarda bilməyəcəyimi bildikləri üçün ağzım bağlanmamışdı. Qollarımdan və ayaqlarımdan tutularaq blindajdan çıxarıldığımı hiss edə bilirdim. Bir qədər aparıldıqdan sonra torpağa atılanda bərk yerin üstünə düşdüyüm üçün qolum möhkəm zədələndi. Daha sonra qeyri-müəyyən fasilələrlə təpik zərbələri... Hərdən öz aralarında sakitcə danışmaqlarından üç-dörd nəfər olduqlarını bilmək olurdu. Bilirdim ki, məni vuran çavuş Səfərov özüdür. Həmin vaxt başqa yerimdən təpik dəyəndə:

- Sən çəkil! Bu cındırı özüm çırpacam, – deyəndə buna əmin oldum.

Təxmini hesablamalarıma görə, xeyli müddət ötdü, sonrası yadıma gəlmir. Səhər "qalx" əmri veriləndə buna cəhd etsəm də, alınmadı. Hər tərəfim

ağrı içində idi. Mən qalxmamışdım deyə, Səfərov şəxsi heyətə durmadan qalx-yat əmri verirdi. Əsgərlərin bəziləri artıq yüksək səslə mənə görə əziyyət çəkdikləri üçün etiraz edirdilər. Mənimlə bir yerdə gələn əsgər yoldaşlarımın köməyilə birtəhər sıraya gəldim. Çavuşun üzündəki təbəssümü görməmək mümkün deyildi. Səhər gimnastikası adı ilə verdiyi əmrlərə çox tab gətirməyərək yıxıldım. Yenə əsgər yoldaşlarımın yardımıyla ayağa qaldırılsam da, dura bilmirdim.

Vəziyyətim starşınanın diqqətini cəlb etdiyi üçün mənə yaxınlaşaraq məsələni öyrənməyə çalışdı. Təbii ki, hərbinin yazılmayan qanunların birinci maddəsinə əsasən, döyüldüyümü inkar etməli, yıxıldığımı vurğulamalı idim. Amma mənim vəziyyətimə düşmək üçün beşinci mərtəbədən yıxılaraq sağ qalmaq lazım idi.

Starşına məni bu vəziyyətə yalnız Səfərovun gətirəcəyini biləcək qədər təcrübəli hərbiçi idi. Odur ki, məndən onun adını ala bilməsə də, əsgər yoldaşlarımdan Səfərovu danlamağını öyrəndim. Bu isə təbii ki, mənim vəziyyətimin daha da pisləşməsi demək idi. Çavuş Səfərov bunu starşınaya mənim

dediyimi güman edəcək və mən onun da, digər əsgər yoldaşlarımın da yanında daha da pis olacaqdım. Belə də oldu. Hər kəs məndən yan gəzir, heç kim mənimlə söhbət etmirdi. Səfərovun əziyyəti isə öz yerində. Bu vəziyyətə tab gətirməyərək mənə təhkim olunmuş silahla onu öldürmək niyyətim olsa da, hər dəfə yuxuma nənəm girirdi. O mənə yalvarırdı. Səbirli olmağımı istəyir, hansısa səhv addım atmamağım üçün dil tökürdü. Əvvəl yuxu olduğu üçün inanmasam da, sonradan dayımın starşınaya zəng vurub mənimlə əlaqə saxlamaqları məni təəccübləndirdi. Bilirdim ki, dayımı zəng üçün nənəm məcbur edir. Bütün bunlar dilimi dişləyib dözməyimi şərtləndirən məcburiyyətlər idi.

Və beləcə üç ay boyunca çavuş Səfərovun yerini qeyd-şərtsiz yığmaqla "vəzifələndirildim". Ta ki, tağıma yeni əsgərlər gələnə kimi. Bu müddət ərzində eşidib, təəccübləndiyim ən mühüm fakt Səfərovun bizim kəndçi olduğunu öyrənmək idi. Ümümiyyətlə, tağımda onun hansı rayondan olduğunu bilən yox idi. Nə bu barədə danışar, nə də kimsə soruşmağa cəhd edərdi. Amma özü kimin hansı rayondan və ya şəhərdən gəldiyini dəqiq bilirdi. Bir ay keçməmiş

onun bizim kənddən olduğunu öyrənsəm də, bu barədə heç kimə bir söz demədim. Bunun səbəbləri var idi.

Əsgərlərə mobil telefon istifadəsi qadağan edildiyi üçün həftədə bir dəfə həm nənəmlə, həm də qonşu uşaqlarla starşınanın telefonuyla danışırdım. Etiraz etsə də, bu hörmətinin qarşılığında nadir halda dayım tərəfindən telefonunun kontur balansı, az məbləğdə də olsa, artırılırdı. Elə Səfərovun kimliyi haqqında belə bir telefon danışıqlarının birində qonşum Elşəndən eşitmişdim:

- Elşən, salam.
- Salam.....
- Mənəm, Azərdi. Necəsən?
- Ooo, Azər. Çox sağ ol qardaş, yaxşıyam. Sən necəsən? Xidmət necə gedir?

Elşən məndən bir yaş böyük olsa da, sözümüz tuturdu. Hələ onbirinci sinifdə oxuyanda ona hərbi komissarlıqdan çağırış vərəqəsi gəlibmiş. Məktəbi bitirər-bitirməz komissarlıq tərəfindən çağırılan Elşən də mənim kimi həkim müayinəsindən sonra hərbiyə yararsız statusu almışdı. Həkimləri aldatmaq istəsə

də, həm gözünün zəifliyi, həm də ayağının altının düz olması, onun əsgərliyə getməsinə, məndən fərqli olaraq, ümumiyyətlə, mane oldu.

- Yaxşıdı, yaxşıdı! – Çox guman ki, qeyri-səmimi olduğumu hiss etmişdi.
- Nəsə yaxşıya oxşamır axı, deyəsən! – Xəttin o başından güldüyünü eşitdim.
- Yox əşi, yaxşıdı. Hər şey qaydasındadı. Bircə Səfərov tərxis olunsa, lap yaxşı olacaq.
- O kimdi ki?
- Tağımın çavuşudur. Çavuş Səfərov...Bezdirib milləti.
- Adı yoxdu? – deyib yenidən gülümsəyən Elşənin hərbidə hamının yalnız soyadla çağırılmasından məlumatı yox idi.
- Adı var e, sadəcə, burda hamı bir-birinə soyadla müraciət edir deyə, adlar yaddan çıxır... Adı, yanılmıramsa, Telman olmalıdır. Hə, Telman, Telman Səfərov...
- Telman? – Elşən təəccüblə soruşdu.
- Hə, nədi ki?
- Bu Telman bizim kəndçi Telman olmasın?.

- Bizim kəndçi olsa, mən tanımaram? – tələsik soruşdum ondan.

- Əgər o Telmandırsa, tanımaya bilərsən, qardaş. Səndən hardasa beş-altı yaş kiçikdir. Uşaq vaxtından Rusiyaya gedib-gəlirdi. Kəndin aşağısında – dayımgilin qonşuluğundadır evləri. Çox nadir halda - ildə iki-üç dəfə gəlirlər kəndə. - Bir qədər fasilə verib soruşdu: – arıq, qarayanız, alçaq boyludu?

- Hə, elədi... Balacaboy, arıq...

- Onda yüz faiz elə odur. Rusiyadan hərbi xidmətə görə gəldi. Gələn kimi də, gedib. Dayımgildən eşitmişdim. Özü də sərhəd bölgəsinə göndərildiyi deyilirdi.

- Nə bilim, ola bilər, – dilim bu sözləri desə də, fikrim tamam qarmaqarışıq olmuşdu. Axı Səfərov mənim haradan gəldiyimi bilirdi. Hətta bir dəfə kəndimizin necə olduğu ilə maraqlanmışdı. Elə idisə, mənə niyə bu qədər əziyyət verirdi?! İlk ağlıma gələn ona kəndçi olduğumuzu xatırlatmaq oldu... Amma...

- Dedin bezdirib sizi? – Elşən qəribə tonla soruşdu.

- Bezdirib deyəndə ki, yəni nə istəyir eləyir də. Burda onun bir dediyini iki eliyən yoxdu. Komandir

də ona heç nə demir. İstədiyi vaxt yatır, istədiyi vaxt durur. Hətta istədiyi vaxt rayon mərkəzinə enib “bazlıq” da eliyir, deyilənə görə.

- Maraqlıdır, həqiqətən, – dedi Elşən. Təəccübünü telefondan hiss edə bilirdim.
- Nə maraqlıdır? – soruşdum.
- Qorxağın biri kimi tanıyıram mən onu. Rusiyada dəfələrlə döyüldüyünü eşitmişəm. Həm də deyilənə görə, anası da.... nə isə... nə bilim, yəqin səhv eşitmişəm. Elə onunla münasibətin olmasa yaxşıdır.
- Başa düşmədim. Niyə ki?
- Nə bilim, Azər. Kənddə eşitdiyimizə görə Telman atası ilə Rusiyaya işləməyə gedəndən anası Bakıda boş dayanmayıb. Hətta belə zarafat da edirdilər ki, guya onun anasını bizim kəndin kişilərindən başqa hamı...o məsələ. Telefon söhbəti deyil, görüşəndə danışarıq.
- Bəlkə Telmanın bu haqda xəbəri yoxdur? – Özüm də bilmədən nifrət etdiyim bir insanı müdafiə edirdim.
- Əzizim, maraqlısı elə odur ki, Telman bunu gözəl bilir. Atası da bildiyi üçün uzun illərdir

Azərbaycana gəlmir. Amma Telman ildə bir dəfə də olsa, gəlib anası ilə bir müddət qalır. Və hər kəs əmindir ki, o, bütün məsələləri bilir.

Mən susurdum. Beynimdə onlarla fikir bir-birinə qarışmışdı. Elşən isə elə hey davam edirdi.

- Hətta maddi imkanları ola-ola Telmanın niyə şəhərlərdə olan hərbi hissələrə yox, sərhəd bölgəsinə göndərilməsi məsələsi müzakirə olundu bir müddət. Nə isə ee... – Anidən sual verib söhbəti dəyişdi: - Nə vaxt gəlirsən məzuniyyətə?

- Gərək ən azı altı ay xidmət edəm ki, məzuniyyət verilsin, – bildirdim, amma fikrim hələ də qarışıq idi.

- Hə, inşallah, gəl, danışarıq ətraflı. Üzrlü hesab elə qardaş, mən müəyyən səbəblərə görə gəlib səninlə görüşə bilmirəm, - deyərək üzrxahlıq etdi, sonda mehribanlıqla sağollaşdı.

O danışıqdan sonra iki ay ərzində hər dəfə Səfərovun yerini yığan zaman onun haqqında əsl həqiqəti bilə-bilə bunu etmək məni çox sıxırdı. Bu barədə kimsəyə bir kəlmə də deməyəcəyim barədə özümə verdiyim sözü bacardıqca tutmağa çalışırdım.

Və budur, tağımdan hərbi xidmətini başa vuraraq tərxis olunan üç əsgərin əvəzinə andiçməsini yerinə yetirmiş eyni sayda yeni əsgər gətirildi. Tərxis olunanların içində çox təəssüf ki, çavuş Səfərov yox idi. Onun müddətinin bitməsinə daha üç ay qalmışdı. Amma istənilən halda hadisələr təkrarlanırdı. Bura gələndə nə baş verdiyini bilməsələr də, başlarını starşınanın əmrilə aşağı əyməklərindən tutmuş, "başınızı qaldırın" deməyənə qədər o vəziyyətdə qalmaqlarına, eləcə də blendaj, səngər, post, qurğularla tanış olmaqdan tutmuş, tağımın köhnə əsgərlərindən o yolda baş verənləri eşitdiklərinə görə heyrətlənmələrinə qədər hər şey təkrarlandı. Bəli, hər şey təkrarlanırdı...

Üç ay heç kimlə münasibət qurmamağım məni münasibət məsələsindən, ümumiyyətlə, uzaqlaşdırmışdı. Dolayısı ilə xidmətimi yoldaşsız başa vuracağımı yəqinləşdirmişdim. Tərxis olunandan sonra digərləri kimi, təəssüf ki, mənim əsgər yoldaşlarım olmayacaqdı.

Bir müddətdən sonra yeni gələn əsgərlərin içərisində İslamı fərqləndirməyə başlamışdım. Sanki onda qeyri-adi nəsə var idi. Hər gecə yuxuma girən

Mətləb də ona aid işarələr verirdi. Odur ki, hisslərimin məni aldatmamasına güvənib bir gün ona yaxınlaşdım. Xırda gözləri ilə ucu-bucağı görünməyən adsız yüksəkliklərə baxırdı. Onunla danışdıqca, həyat hekayəmizi bir-birinə bənzədirdim. Anasının xəstə olmasını dolumsunaraq deməsi dizlərimi bükmüşdü. Taleyin əsl dostları qarşılaşdırdığına olan inamım məni İslamla yaxınlaşmağıma kifayət qədər yetərli idi. Odur ki, onu buradakı təhlükələrdən qorumağa özlüyümdə söz verdim. Mənim başıma gələnlərin onun başına gəlməsinə razı ola bilməzdim.

Amma çox təəssüf ki, xoş hadisələrdən fərqli olaraq bəd hadisələr həqiqətən də təkrarlanırdı. İslamla həmsöhbət olduğumu çox güman ki, müşahidə edən çavuş Səfərov səhər yeməyində ona yaxınlaşaraq üç ay əvvəl mənə dediyi sözü eyni həvəs və eyni tonla təkrarladı:

- Bəşirov, yerimi sən yığarsan! – Bu əmri eşidəndə İslamın durumu mənim vəziyyətimin təkrarı idi. Aliminium çay bardağını yerə qoyub çətinliklə udqunduğunu gördüm. Sezdirmədən ətrafdakılara baxmağa çalışır, çarəsiz olduğu açıq-aşkar hiss

edilirdi. Baş verənlər onunla gələn digər iki əsgər yoldaşından və təbii ki, məndən başqa heç kimin vecinə deyildi.

Yeməyini bitirənlər tək-tək yeməkxananı tərk edirdi, nəhayət, hamı çölə çıxdı. Yeməkxanada bir mən, bir də gözlərini iki əliylə bərk-bərk tutduğu aliminium bardağdan çəkməyən İslam qalmışdı. Ayağa durub qapıya tərəf çevriləndə məni görüb əvvəl diksinsə də, sonra dərindən nəfəs alıb yanıma yaxınlaşdı. Belə bir hadisəylə ilk dəfə rastlaşdığından özünü çarəsiz sayır, nə deyəcəyini, nə edəcəyini bilmirdi. İndi o, sadəcə susurdu. Eynən vaxtilə mən susduğum kimi.

Yaşadıqlarımı ona yaşatmamaq üçün əhvalını yüksəltməyə başladım.

- Nə oldu e, kefin pozuldu? Yaxşı olacaq, ürəyini sıxma! – söyləyib gülümsədim, yanına keçib əlimi çiynınə aşırdım. Bir yerdə yeməkxanadan çıxıb blindaja daxil olduq. Çavuş Səfərovun yatdığı qalın döşəkli, taxta çarpayısına yaxınlaşanda İslamla axşam yarımçıq qaldığımız söhbəti davam etdirdim.

- Hə, İslam, demədin axı yeni il günü parkda qabağınızı kəsən başqa məktəbin şagirdlərilə söhbətin ardı necə oldu.
- Demədim ki, onu? – O, asta və həvəssiz şəkildə dilləndi.
- Yox, demədin. Yaxşı yadımdadır ki, demədin. Daha doğrusu, mənim posta çıxmaq növbəm gəldiyi üçün getdim deyə, söhbətimiz yarımçıq qalmışdı.
- Hə, hə... Düz deyirsən, qaravul rəisi posta çıxanları səslədi deyə, sən getməli oldun... Hə, heç nə də...–deyə gülümsəyən İslamı bir az əvvəl baş verən hadisənin pis aurasından çıxara bilmişdim. – Uzaqdan səs-küy sala-sala gəlib dayandı düz mənim qabağımda. Düzdür, biz onlardan çox idik, amma qətiyyən dalaşmaq niyyətimiz yox idi. Onlardan biri əvvəlcə alnını alnıma dirəyib, sonra kənara çəkilərək qışqırmağa başladı: "Mənim keyfim zordu! Keyfimi heç kim poza bilməz. Rayonda mənim bir yerimi yeyən oğlan var?.. Rayonun istənilən oğlanının ağzına..." - sözünü tamamlamağa imkan tapmayan oğlana içimizdən kimsə necə kəllə vurdusa, zərbənin gücü onu yaxınlıqdakı oturacağın altına qədər apardı.

- Nə danışırsan?. Doğrudan o qədər güclü zərbə idi? – Mən həqiqətən təəccüblənmişdim.

- Hə, vallah. Yalan olmasın, iki-üç metr kənara yıxıldı. Hamımız donub qalmışdıq. Oğlan ayağa qalxandan sonra al-qan içində olan üzünü tutub "Məni kim vurdu? Məni kim vurdu?" – deməsi hələ də qulağımdadı! – bunu söyləyəndə İslam artıq əməlli-başlı gülürdü.

- Kim vurmuşdu ki, onu elə? – Vuranın kim olduğunu tanımasam da, özümdən qeyri-asılı soruşdum.

- Hava alatoranlıq olduğundan əvvəl biz də bilmədik ki, kim vurub. Lakin sonra Tural adlı sinif yoldaşımın alnında qan ləkəsi olduğunu görəndə "zərbənin müəllifi"nin kim olduğunu dəqiqləşdirdik.

- Sonra nə oldu? Kütləvi dava baş verdi?

- Adətən elə olanda hər iki qrup bir-birinə qarışaraq dava düşür, düz deyirsən. Lakin bu dəfə belə olmadı. Görünür, onun dostları da bu zərbənin təsirindən heyrətə gəlmişdilər.

- Hə, ola bilər, – söylədim və gülüşdük. Söhbət əsnasında Səfərovun yerini yığmışdım deyə, İslamın

qoluna girərək onu blindajdan çıxarmaq istədim lakin o:

- Sən neylədin? Oranı mən yığmalı idim axı, – etiraz etdi.

- İslam, üç aydır ki, bu yeri mən yığışdırıram. Belə deyək, öyrəşmişəm. Səfərov yəqin ki, bayaq səhv saldı bizi. Sən yenə də heç kimə bu barədə danışma! Qoy elə bilsinlər ki, sən yığışdırmısan.

- Axı...

- Sənə dedim belə məsləhətdir! - mənimlə razılaşmaq istəməyən İslamla bir qədər sərt danışaraq razı saldım.

Həmin günü yola verə bilmişdim. Bu qayda ilə İslamı mənəvi əzab çəkəcəyi əmrlərdən uzaq tutmaq fikrində idim. Məncə, alınacaqdı. Bunu yalnız ikimiz bilirdiksə, problem olmamalı idi.

Üç ay ərzində kifayət qədər təcrübə topladığıma görə postlara sərbəst şəkildə çıxa bilirdim. Havalar getdikcə hiss olunacaq dərəcədə sərinləyirdi. Gecə vaxtları növbədə olmaq, xüsusən yuxunun ən şirin vaxtı hesab edilən saat dörddən altıya qədər olan müddəti ayıq-sayıq keçirmək çox çətin və yorucu idi. Düşmən tərəfinin atəşkəsi tez-tez pozması bu

həyəcanı bir az da artırırdı. Səngərdən çöldə görünən istənilən obyekti snayperlə nişangaha alırdılar. Bir dəfə çavuş Səfərov onlarla guya məzələnmək üçün ağac budağından “T” şəkilli alət düzəldib ona mənim kitelimi geyindirərək səngərdən yuxarı qaldırdı. Bununla həm məni qorxutmaq, həm də düşməni çaşdırmaq istəyirdi. Əvvəlcə bir-iki dəqiqə onu sabit tutaraq, cibindən bir əli ilə siqaret çıxarıb yanındakından yandırmasını istədi. Dərindən qullab alıb, tüstünü üzü yuxarı ədəbazlıqla üfürəndən sonra siqareti yenidən damağına qoydu. Ağzında siqaret olduğunda güclə başa düşüləcək şəkildə dilləndi:

- Görürsən? Onlar sənin kitelindən də qorxurlar! – deyə, gülə-gülə əlindəkini sağa-sola yellətməyə başladı. Yenə də düşmən tərəfdən bir cavab yox idi. – Hamı mənim kimi deyil e, – bildirəndə özünü qorxusuz göstərməyə çalışırdı. Mənim isə gözüm iki ay ərzində tozdan-palçıqdan qoruduğum kitelimdə idi. Səfərov əlini saxlayıb siqaretindən bir qullab da almaq üçün sağ əlini ağzına tərəf aparanda sabit saxladığı T şəkilli alətin qollarının birləşdiyi yerdə qırmızı xırda işığın işarması ilə küt tappıltı səsinin gəlməsi bir oldu. Sol əli ilə boş tutduğundan snayper

gülləsinin zərbəsi budağın yuxarısını Səfərovun başına elə zərblə çırpdı ki, yıxılmamaq üçün özünü güclə saxladı. Onun rənginin ağardığını görmək üçün iki göz lazım idi. Dik yerisə də, səngərdən görünməyəcəyini bildiyi halda, başını aşağı əyərək, yeyin addımlarla blindaja getməyinə baxmaq mənə xüsusi həzz vermişdi.

Postda xidmət aparan əsgərlərə hər dörd saatdan sonra iki saat yatmağa icazə verilirdi. Yuxu rejimi o qədər pozulurdu ki, çox vaxt günün necə keçdiyini bilmirdin. Eni beş, uzunluğu on beş santimetr olan kəsikdən eyni nöqtəyə iki saat ərzində ayıq-sayıq baxmaq dəhşətli bir şey idi. Hərdən ani də olsa, həmin mənzərəli yuxuda olurdun. Göz o görüntüyə o qədər öyrəşirdi ki, yatmağından xəbərin belə olmurdu. Belə bir şəraitdə ayıq qalmaq üçün müxtəlif metodlardan istifadə olunurdu. Bir-birinə yaxın olan beş-altı post hər beş dəqiqədən bir, özündən sonrakı postun nömrəsini ucadan səsləndirməklə oradakı gözətçini çağırırdı. Həmin postu qoruyan əsgər isə yatmadığını sübut etmək üçün növbəti postdakı yoldaşını səsləyirdi. Beləcə, bu qaydayla - sonuncu postdan yenidən əvvəlki posta ötürülməklə -

çağırışlar davam edirdi. Hərdən olurdu ki, üçüncü postdakı dördüncünü səsləməsinə baxmayaraq, oradan səs gəlmirdi. Bu o demək idi ki, dördüncüdəki əsgər yatıb. Belə olan halda bütün postların hamısı yarızarafat-yarıgerçək qışqıraraq onu oyadırdılar.

Səhər düzülüşündə gözüm artıq dost kimi öyrəşdiyim İslamı axtarsa da, onu tapa bilmədim. Əvvəlcə ayaq yolunda olduğunu düşündüm, lakin ordan başqa əsgərin çıxaraq sıraya gəlməsi ilə dalağım sancdı. Ağlıma min cür qorxulu şey gəlirdi. Səfərovun təbəssümlə gənc əsgərlərə üzünü tutub:

- O ağıllı Bəşirov hanı? – deməsi məni lap həyəcanlandırdı. Özümdən asılı olmayaraq sıradan çıxıb blindaja yüyürdüm. Zavallı İslam dəmir çarpayısının yanında qıvrılıb zarıyırdı. Əllərini qarnına sıxıb ağladığını görəndə, əsəbimdən hiddətə gəldim. Onu yerdən qaldırmaq istəyəndə isə daha çox zarımağı bağrımı yandırıb közə döndərdi. Ürəyim sanki başımda döyünürdü. Ona qayıdacağımı deyib çölə çıxdım. Səfərov həm İslama, həm də mənə görə tağıma idman adı ilə zülm edirdi. Bizim sıraya qayıdacağımız təqdirdə zülm bitəcəkdi. Bu, onun köhnə metodu idi. Yerindən gec qalxana, sıraya gec

gələnə görə bütün heyətə eyni hərəkətləri təkrarladırdı.

Komandirin və starşınanın sıraya yaxın - siqaret çəkmək üçün nəzərdə tutulan yerdə olmasına baxmayaraq Səfərovun üstünə yüyürdüm:

- Sən çox alçaq adamsan, cındır! – Qışqırıb Səfərova yaxınlaşanda, təəccüblə üzünü mənə çevirdi. Hər kəs donub qalmışdı. Yaxasından tutub o murdar sifətinə başımla vurmaq istəyirdim. Lakin o, mən ona çatmamış qeyri-ixtiyari arxa-arxaya addımladığı üçün istəyimi həyata keçirə bilmədim. Başına təpik vurmaq üçün sağ ayağımı bacardığımdan da yuxarı qaldırmaq istəyəndə sol ayağımın torpaqda sürüşməsi yıxılmağıma səbəb oldu. Cəld ayağa durub yenidən üstünə getmək istədim, lakin əsgərlər tərəfindən qarşım kəsildi. Mən isə onu dayanmadan söyürdüm. Bu zaman komandirin sərt səsini eşitdim. Soyadımı elə qəddarcasına səsləndirdi ki, affekt vəziyyətindən çıxa bildim.

- Yanımaaa! – Deyə çığıranda sifəti hirsindən quruluşunu bir az da dəyişmişdi. İkimiz də komandirin yanına getdik.

- Nə məsələdir? Bu nə özbaşınalıqdır? – soruşdu. Səfərov, şəxsiyyətsizliyinə uyğun olaraq, birinin üstünə beşini qoyub dilləndi:

- Komandir, vallah, xəbərim yoxdur. Durduğum yerdə məni söyməyə başladı. Özü də dəhşət pis söyüşlərlə. Sıra düzülüşünə gəlməməyi azmış kimi, üstəlik söyüş də söyür. Əynimdəki formaya hörmət etdiyimdən ona bir kəlmə də cavab qaytarmadım. Yoxsa onu elə burda sürüyərdim, – deyəndə komandir onun sözünü kəsdi.

- Yaxşı, gözlə görək!.. Sürüyərdim, yox bir... Boş-boş danışma, – deyən komandir, əslində, onun necə qorxaq olduğunu bildiyinə işarə edirdi. – Sən dillən görüm. Bu nə meymunluqdur eliyirsən? – söyləyib üzünü mənə çevirdi.

Mən bir kəlmə belə söyləmədən dolmuş gözlərimlə kənara baxırdım.

- Üzümə bax, əsgərrr! – komandir qışdırdı.

starşına məsələni, sanki təxmin edərək, araya girdi.

- Komandir, mən məşğul olaram. Narahat olma!

- Məşğul olmalı bir şey yoxdur, starşına! – Papağını başına qoydu və dikələrək uca səslə: -

Vəzifə başında olan səlahiyyətli şəxsi təhqir etdiyinə görə üç sutka həbs! – əmrini verdi.

- Oldu, üç sutka həbs!” – deyərək əmri təkrarladım...

Tağımdakı günlərimdən pis keçməyən üç gündən sonra hərbi hissəyə qayıtdım. İlk olaraq gözlərim təbii ki, İslamı axtardı. Onu yeni verilən cəzanın icrası üçün ayrılmış ərazidə tapa bildim. Cəzası isə ayaqyolu üçün yeni çuxur qazmaq idi. İki metr dərinliyində olan ayaqyolu çuxuru altı aydan bir dolurdu. Yenisinin qazılması üçün isə ya özünü yaxşı aparmayan, ya da gənc əsgərlər ayrılırdı. Çuxur qazılandan sonra üstünə dəmir kabina qoyularaq istismara verilirdi.

Bir metrə yaxın dərinlikdə yeri qazıb içində oturan İslam tamamilə üzülmüş halda idi. Məni görsə də, heç sevinmədi.

- İslam, necəsən, neynirsən? – soruşdum. “Neynirsən?” sualının yersiz olduğunu sonra düşündüm.

- Özümə qəbir qazıram!...

Bir müddət ikimiz də susduq. Sonra tez özümə gəlib onu ürəkləndirməyə başladım.

- Xoşbəxt adamsan ki, öz qəbrini özün qazırsan. Nə bilirsən e, başqası necə qazacaq? – dedim, əslində isə zarafata salıb durumu yumşaltmaq idi məqsədim. Mən güldüm, amma onun simasında bir dəyişiklik yox idi.
- Anamın qəbrini başqaları qazdı, qardaş – belin ağzını torpağa vura-vura dedi.
- Nə danışırsan sən? Başa düşmürəm!
- Sən gedən günün axşamı starşına mənə anamın vəziyyətinin ağır olduğunu xəbər verdi və biz rayona getməli olduq. Evə çatanda həyətdə yas çadırı qurulmuşdu artıq. Hətta anamı da dəfn etmişdilər, hava qaralana qalmasın deyə... – hönkürtü ilə ağlamağa başladı.
- Səbirli ol, İslam. Allah rəhmət eləsin, səbirli ol! – deyərək sakitləşdirməyə çalışdım. Yavaş-yavaş yağış da yağmağa başlayırdı. Ona gedib dincəlməyi, sonra gəlməyi təklif etdim, lakin qəbul etmədi. Heç kimi görmək istəmirdi. Odur ki, bir az da yanında oturub başını qarışdırmaq məqsədilə söhbət etməyi qərara aldım.

- Səni keçən dəfə döyənlər barədə kiməsə nəsə dedinmi? - soruşdum.

- Yox, starşına nə qədər soruşsa da, boynuma almadım. – asta səslə dilləndi.

- Bəs bildinmi səni kim vurub?

- Dəqiq bilmədim. Bilmədim deyəndə ki, biri yüz faiz Səfərov idi. Əllərimi də, gözümü də bağlamışdılar. Yuxu gördüyüm yerdə özümü cəhənnəmin ortasında tapdım. Təpiklə hər tərəfimdən vururdular. – Bunları ondan eşitdikcə, həmin o dəhşətli günü anbaan yenidən yaşayırdım. - Əvvəl ağrıdan heç nə eşitməsəm də, sonra onun səsini eşitdim.

- Belə ağıllısan ki, yerimi başqasına yığdırırsan? – deyib təpikləyirdi məni. Onda bildim ki, Səfərovdu.

Səfərovun bunu necə bilməsi mənə maraqlı gəldi. Axı bunu yalnız ikimiz bilirdik. Mən bu barədə heç kimə heç nə deməmişdim. Maraq məni sıxdığı üçün soruşdum:

- Bəs Səfərov bunu necə bildi axı? Sən kiməsə bu barədə demişdin ki?

Əvvəlcə dayandı, sonra gözünü belin torpağa batan hissəsindən çəkməyərək, başını yavaşca aşağı-yuxarı yellətdi.

- Sən posta gedəndən sonra mənimlə bu tağıma gələn Heydərov mənə yaxınlaşaraq maraqla soruşdu:

- Neylədin Bəşirov, yığdın Səfərovun yerini?

Mən də ona arxayın olub sənin mənə etdiyin hörmət barədə danışdım:

- Yox e, Heydərov, Azər imkan vermədi. Sağ olsun, özü yığdı... Sonrası da bildiyin kimi.

- Aydındır, İslam, aydındır. Mən sənə dedim axı heç kimə demə! – Səmimiyyətlə tənbeh etmək istədim onu.

- Mən bilməzdim ki, o gedib bunu çatdırar. Biz bir ay bir yerdə olmuşduq. Andiçməyə qədər bir gəzib, bir dolanmışdıq. İkimizin də, bir yerə düşməyi sevindirmişdi məni, – İslam təəssüfləndi.

- Heç kimə sirr verəcək qədər inanma, İslam. İnamın adı qırmızı kitaba düşüb, qardaşım. Bu dünyada "nəsli kəsilməkdə" olanlar arasındadır. Nəinki heç kimə, hətta heç kimdə inam qalmayıb. Burda tanış olduğun heç kimlə məxfi məlumat paylaşma. Hərbidə minimum informasiya, minimum

problem deməkdir. Bunu kimliyindən asılı olmayaraq, hər kəsə şamil et!

Son fikrimdən sonra əlini saxlayıb, gözlərini gözümə dikdi. Nə düşündüyünü təxmin etdiyimdən:

- Bəli, hətta mənə də, – bildirdim.

Daha çox döyülməməsi üçün "estafeti" məcburən İslama ötürməli oldum. Lakin Səfərovun ondan istəyi bununla kifayətlənmirdi. O, hər vəclə İslamı bərkə-boşa salaraq, dostumun əsəblərini tarıma çəkirdi. Axşamlar yanına çağırıb şeir deməyə məcbur etdirməyindən tutmuş, silahını təmizlətdirməyə qədər müxtəlif işlər tapşırırdı. Hər dəfə İslamı mən sakitləşdirirdim. O, dəfələrlə gah silahla Səfərovu, gah da özünü öldürməyi planlaşdırdığını dilə gətirirdi. Amma onu hər iki fikirdən çətinliklə də olsa, daşındıra bilirdim. Nə onu, nə də özünü öldürməyin bir çarə olduğunu izah edir, səbirli olmağı tapşırırdım. Başqa bir çözüm fikirləşmək lazım gəldiyini deməklə, bir müddət başının qarışmasını istəyirdim. Çünki Səfərovun tərxis olumasına sayılı günlər qalmışdı.

Xidmətimin yarısı tamam olanda xətrimi oğlu qədər istəyən starşınanın təşəbbüsüylə qərargahdan beşgünlük məzuniyyətə buraxılmağımla bağlı əmr

gəldi. Dekabrın ilk soyuq günləri idi. Evə getmək, nənəmi bağrıma basmaq, tanışlarla görüşmək, doğma kəndimi görmək üçün səbrimi basa bilmirdim. Hərbi xidmətə gələnə qədər fərqində olmasam da, kərpic formasında çovdar unundan bişirilən çörəklər məni nənəmin təndirdə yapdığı çörəklərə möhtac qoymuşdu. Tanışlarla görüşəndən sonrakı ilk işim o çörəkləri əlimə alıb iliklərimə çatana qədər qoxulamaq olacaqdı. Xəstə olsa da, əmin idim ki, xoşladığım yeməkləri bişirəcəkdi nənəm. Ən çox da parça-bozbaşdan ötrü sino gedirdim. İndikilərdən nisbətən böyük, qırmızı naxışlı, çini kasa ilə bir oturuma azı iki qab yeyəcəyimi düşünürdüm...

Hərbi hissədən kəndimizə qədər necə gəldiyimi xatırlamıram. Tək xatırladığım yolboyu beşgünlük məzuniyyətim boyunca edəcəklərimin siyahısını tutmağım idi.

Günlərim planlaşdırdığım kimi keçirdi. Bir hadisədən savayı. Evdə - nənəmin yanında keçirdiyim beşinci gecəni yata bilmədim. Halbuki xidmətdə on dəqiqədən artıq yata bilmək üçün "yat" əmrinin tez, "qalx" əmrinin isə gec verilməsini arzulayardım. Yerimin içində sağa-sola fırlanaraq yuxuya

getməyimin mümkünsüz olduğunun fərqindəydim. Səhər tezdən hərbi hissəyə yollanacağımı düşündükcə, dilxor olurdum. Kapitan Tapdıqovun zəhirmar dolu sifətini, çavuş Səfərovun kinayəli şəkildə qımışmasını yenidən görəcəyim üçün səhərin açılmasını istəmirdim. Eyni zamanda dostum İslamı da bu neçə gündə görmədiyim üçün darıxırdım. Ən çox da Səfərovun onu incitməsini xəyal edəndə ürəyim yaman sıxılırdı.

Çavuş Səfərov bizim kənddən imiş. Lakin bunu hamıdan, hətta məndən də gizlədirdi. Bu fakt isə aşkar şəkildə anasının əməlindən xəbərdar olduğunun sübutu idi. Elşən haqlı imiş. Səfərov anasının nə işlə məşğul olduğunu bilməsəydi, yerini-yurdunu hamıdan gizlətməzdi.

Birdən-birə onların evlərini görmək keçdi ürəyimdən. Onsuz da yata bilmirdim. Kəndin aşağısına – onların evinə qədər gedib-gəlmək məni yoracaqdı deyə, rahat yata biləcəkdim. Nənəmin qonşuya toxutdurduğu jiletin üstündən dəri gödəkçəmi geyinib çölə çıxdım. Üç gün əvvəl yağan yağışın rütübəti çəkilsə də, hava soyuq idi. Aydın

səmada bərq vuran bədirlənmiş ay yola işıq saçırdı. Zənnimcə, bu, sabahkı şaxtanın əlamətiydi.

Nənəmin yanında xoşbəxt olmağım idi buranı mənə sevdirən, yoxsa başqa səbəbdəndir, bilmirəm, amma, həqiqətən, kəndimizi ölkənin ən dilbər guşələrindən biri sayırdım. Yay-qış buraya başqa rayonlardan gəlib ziyarət edirdilər. Kəndin qərb tərəfindəki qayalıqlarda rəngli süxurlar üzə çıxdığına görə burada şəkil çəkdirmək ənənəyə çevrilmişdi. Lakin son vaxtlar paytaxtdakı inkişaf bəzi kəndliləri evlərindən köçüb oralarda yaşamağa sövq etmişdi deyə, bir sıra evlər boş qalmışdı. Şimal tərəfi təbii meşə ilə əhatə olunsa da, kənd camaatı özü də yaşıllığa maraq göstərirdi. Hamının həyətində ağacların olması kənardan meşənin davam etdiyi görüntüsünü verirdi. Şəhərdən fərqli olaraq, burada evlər bir-birindən kənarda yerləşir.

Elşənin dayısıgilin evini tanıdığımdan Səfərovgilin evini təqribi tapacaqdım. Odur ki, onların evindən sağdakı həyətə tərəf yaxınlaşdım. Bu, Səfərovgilin evi idi. Anası paytaxtda yaşadığından, həyət-baca baxımsız idi. Bir qədər kənardan çətinliklə görünən şüşəbəndli evin isə ciddi təmirə ehtiyacı

vardı. Görünür, atası utandığından, ümumiyyətlə, kəndə gəlmir, anasına da buralara xərc qoymaq sərf eləmirdi...

Gəldiyim yolda bir-iki narahat yer olduğuna görə geriyə Səfərovgilin evini dövrə vurmaqla qayıtmağı qərara aldım. Getdikcə ayaqlarımın yorulması üzüyuxarı çıxdığımdan xəbər verirdi. Zülmət qaranlıq olmasa da, yavaş-yavaş üşənirdim. Yorulsam da, dayanmamağı qərara almağıma baxmarayaraq, dizlərim bunun mümkünsüz olduğunu diqtə edirdi. Kifayət qədər uzun məsafə qət etmişdim. Dayandım. Səfərovgilin evi arxada qalmışdı. Dərindən içimə çəkib sonra sinəmdən boşaltdığım havanın şaxtada pərakəndə rəqsinin yox olması ilə gözümə ağ rəngli "Niva" sataşdı. Bu, kapitan Tapdıqovun əsgərlərə gündə iki dəfə yuduzdurduğu "Niva" idi. Bu maşını başqa "Niva"larla səhv sala bilməzdim. O bizim kənddə idi. Maraqlıdır, görəsən nə üçün? Bəlkə o da bizim kənddən idi? Yox, bu ola bilməzdi. Elə olsaydı, tanıyardım. Bəs gecə vaxtı burada neyləyirdi? Çox guman ki, bizim kənddə qohumları var...

Suallar və onlara elə özümün fərqli cavablarım. İçimdə təlatüm baş qaldırmışdı. Xarakterimə xas olmasa da, məsələ kapitan Tapdıqovla bağlı idi deyə, maraq mənə güc gəldi. Yarıdan yuxarısı dəmir barmaqlıqlara bənzər qapının üstündən baxmaqla bir şey öyrənə bilməyəcəkdim. Hündür olmayan barı ilə sədd çəkilən həyəti dövrə vurub evin arxa tərəfindən ehmalca içəri tullandım. Uzaqdan it, çaqqal, canavar ulartısı, yaxından isə bayquşların səsi həyacandan, az qala, ürəyimin ağzımdan çıxmasına səbəb olurdu.

Ərazinin yalnız iki yerində – həyət və ev qapısının üstündə işıq yanırdı. Evi ehmalca dövrə vurdum. Otaqların birinin pəncərəsindən xəfif işartı dəydi gözümə. İşartı gah güclənir, gah da zəifləyirdi. Yaxınlaşıb bir qədər sakit dayandıqdan sonra götür-qoy etməyə başladım. Pəncərədən baxmalıydımmı? Mənə lazım idimi? Niyə ora qədər getmişdim? Nə idi məni ora aparan? Elə bu sorğu-sualların içində qulağıma qadın iniltisi gəldi. Artıq beynimdə heç bir sual yox idi. Mən oradan baxmalı idim. Ehmalca ayaqlarımı yerdən bir qədər yuxarıdakı çıxıntıya qoyub, əllərimlə pəncərənin yaşmağından tutaraq qalxdım.

Ağ məsaməli pərdədən otağı görmək mümkün idi. Gördüklərim məni heyrətə gətirmişdi. Neft lampasının otağa yayılan kölgəli işığında kapitan Tapdıqovun sifətini ayırd edə bilmişdim. Bir qadınla sevişirdi. Bəli, hər ikisi lüt-üryan vəziyyətdə, hisslərinin əsirinə çevrilmişdilər. Qadın səsini çıxarmamağa çalışsa da, görünür aldığı həzz onu bütün qadağalara qarşı çıxarırdı və o, ağrı çəksə də, bundan zövq alırdı. Kapitanın üstündə oturub-durduqca ağ-appaq bədəninə daha da ehtiraslı görkəm verən ətli döşləri də cuşa gələrək xüsusi intim səs salırdı. Tapdıqov isə aldığı həzzdən başını gah sağa, gah da sola çevirirdi. Əlləri ilə döşlərini sıxması qadın üçün çox güman ki, həzzin zirvəsi idi. Başını sona qədər arxaya əyəndə sarılı-qaralı saçları Kapitanın dizlərinə dəyirdi. Əməlimin doğru və ya yalnış olduğunun fərqinə varmadan, gözümü onlardan ayıra bilmirdim. Ani hərəkətlə qadınla mövqe dəyişdirən kapitan Tapdıqov dodaqlarını işə salmışdı. Qadının dodaqlarını bütövlüklə ağzına saldığını görəndə onun boğulacağını düşündüm. Amma, deyəsən, bu hərəkəti qadına daha da həzz verirdi. Dəli kimi sevişirdilər.

Komandir onun döşlərini yalayanda qarnımın aşağısının - paçamın islanmasını hiss etdiyim an sağ əlimlə cinsiyyət orqanımı sıxdığımı gördüm. Mən onların sevişməsinə baxa-baxa boşalmışdım. Bu belə olmamalı idi axı. Bizə hərbi hissədə bu tip düşüncələrin əsirinə çevrilməməyimiz üçün iynə vurulurdu. Görünür nənəmin təmiz kənd məhsullardan hazırlanmış yeməkləri hormonlarımı yaman oyatmışdı.

Başımı qaldırıb yenidən onlara baxanda komandirin başı qadının ayaqlarının arasında idi. Bu isə məni daha da təəccübləndirdi. O “hərəkət”in kişiyə yaraşmayan əməl olduğunu eşidə-eşidə böyümüşdük. Lakin bu əclafdan nə desən gözləmək olardı.

Vücudum təbii məqsədinə çatdığı üçün səhnənin davamı daha mənə maraqlı gəlmirdi. Eyni ehtiyatlı hərəkətlərlə yerə endim. Şalvarımın yuxarı ön hissəsinin yaş olduğunu hiss etmək məni ayağa qalxıb yerimək cəhdindən daşındırırdı. Pəncərənin altında bir qədər oturub yenə də sorğu-suala qərq oldum. Kapitan Tapdıqov niyə bizim kənddə idi? Könül əyləndirmək üçün bu qədər məsafəni qət etməyə onu

nə vadar edirdi? Bu qadın kim idi? Lakin bu dəfə suallara özüm də cavab tapa bilmirdim. O sualları düşünə-düşünə oturaq şəkildə nə qədər vaxt keçdiyini xatırlamıram. Artıq getmək lazım idi. Gəldiyim yerdən qayıtmaq üçün ev qapısının önündən keçməli idim. Əyilə-əyilə qapının yanına çatanda eşitdiyim ayaq səsləri məni yerdən bir metr hündürlükdə olan taxta pilləkənin altında gizlənməyə məcbur etdi. Qapı açıldı. Başımın üstündəki qapının kandarının cırıltısı məni qorxudurdu. Orada gizləndiyimi görsəydilər, vəziyyətim düşünüldüyündən də pis olardı. Ağlıma min cür pis fikir gəlirdi. Adətən elə olur. Nə qədər özünü zorlasan da, yaxşı fikir gəlmir. Lakin pis fikir bir anın içində bütün beynini zəbt edir, istəməsən belə.

Onların danışıqlarını eşidə bilirdim.

- Doymadın deyəsən, – ətrafa sakit və süni gülüş səpən qadını, Tapdıqov görünür qapının ağzında da öpürdü: - Yaxşı, dayan, görən olar.

- Kim görər ki? – qadını öpə-öpə danışdığından sözləri qırıq-qırıq deyən komandir soruşdu. – Demədin ki, qonşu köçüb Bakıya? Başqa kim görə bilər? – deyə-deyə öpməyə davam edirdi.

- Nə olsun, yenə də ehtiyatlı olmalıyıq da, – sözləri ilə xəbərdarlıq edən qadın anidən nəsə xatırlayırmışcasına dilləndi: – Bura bax e, Telman necədir, neyləyir?
- Guya bilmirsən ki, necədir?. Telefon əlindən düşmür ki. Danışmırsız?
- Danışırıq, danışırıq. Pulu var görəsən? Bəlkə pul verəsən ona. Baxma, az qalıb "uvolit" olunmağına, xərci çoxalar. Ona görə deyirəm...

Aman Allah, bu qadın Səfərovun anası idi!.. Bu ev Səfərovgilin evi imiş!.. Demək kapitan Tapdıqov Səfərovun anasını...

- Narahat olma, pulu var onun. Əsgərlərdən istədiyi vaxt pul alır. Kef edir özü üçün, – son olaraq bunları eşitdim. Sonra nələr danışdıqlarını xatırlamıram. Pilləkənin altında eləcə donub qalmışdım. Heç nə eşitmirdim. Komandir nə vaxt gedib, xəbərim olmayıb. Bir qədər sonra oranı tərk edib evimizə çatanda dan yeri aram-aram sökülürdü.

Günorta vaxtı xidmət yerinə çatmışdım. Kapitan Tapdıqovun avtomobilini görəndə ağlımdan

çıxmayan dünənki hadisə bir daha canlandı gözümün önündə.

Həmin günün xidmət qrafikində yer almadığıma görə, sonrakı günə qədər asudə vaxtım var idi. Lakin bu vaxtı istədiyin kimi keçirə bilməzdin. Yağış yağdığından buna ehtiyac da yox idi. Yaxşı olardı ki, komandirin gözünə görünməyəsən. Yoxsa nəsə məşğuliyyət tapacaqdı.

Aramsız yağan yağış səngərin içində hərəkəti demək olar ki, məhdudlaşdırmışdı. Çəkmələrin suya-palçığa batmaması üçün müəyyən məsafələrlə atılmış çay daşlarının üzəri ilə hərəkət edilirdi. Nənəmin mənim üçün tədarük etdiyi qidalardan əsgər yoldaşlarım üçün bölüşdürüb İslamın payını ayrıca saxladım. Bəşirov həmin gün üçüncü postun keşikçisi idi. Hərbi nizamnaməyə əsasən, postda əlavə məşğuliyyət qadağan sayılsa da, düşündüm ki, onun qoğal ilə kompot içməyi üçün ayıracağı vaxtda fəlakət baş verməz.

Yağışda islanmamaq üçün nəzərdə tututan sellofan örtüyü geyinib İslamın yanına getdim. Yağış şiddətini bir qədər azaltmışdı. Səma getdikcə qara buludlardan arınır, görüntü yaxşılaşırdı. Posta çatanda

İslamı silahını kiçik kəsikdən düşmənə tuşlamış, lakin yerində yarımaddımlayan vəziyyətdə gördüm. Səbəbi düşündüyüm kimi idi. Qış girəndən onsuz da normal işləməyən böyrəkləri bir az da incidirdi onu. Ayaqlarının saatlarla suda olması böyrəklər üçün real təhlükə idi. Onun yerinə növbə çəkib təbii ehtiyacını ödəmək üçün göndərdim. Daha çox əziyyət çəkməməyim üçün qaçaraq gedib-gələn İslam həmin an mənə dəfələrlə təşəkkür etmişdi.

Cibimdə gətirdiyim qoğalı və balaca şüşədəki kompotu ona verdim. Yeyib içənə qədər keşik çəkməyi davam etdirdim. Tələsik yeyib bitirdikdən sonra həm boş şüşəni, həm də qoğalın büküldüyü kağızı əzib xidmət bitəndən sonra zibil qabına atmaq üçün kənara qoyaraq silahını məndən aldı. Gözlərini kəsikdən ayırmadan söhbətə başladı:

- Məzuniyyət necə keçdi?
- Pis keçmədi, – dedim. Məzuniyyəti o qədər də tərifləyib onu darıxdırmaq istəmirdim.
- Nənən necədir? – soruşdu.
- Çox sağ ol, yaxşıdır. Salam dedilər sənə. Səndən danışmışam onlara, – deyib gülümsədim. O da gülümsədi.

- Göndərən də, gətirən də sağ olsun, – deyəndə üzünü mənə tutdu, sonra gözlərini yenidən düşmən postuna zillədi.
- Dəyməz, Bəşirov. Özün necəsən? Xidmət necə gedir? – zarafatlaşmaq istədim onunla.
- Xidmət? – kinayəli gülüşlə dedi bu sözü: – Vətənə xidməti soruşursan, yoxsa Səfərova?
- Təbii ki, vətə...
- Əla gedir, əla. Bütün varlığımla qulluğundayam, – sözümü kəsərək dedi. Rişxəndi açıq-aşkar hiss olunurdu: – Çox qalmayıb onsuz da. Hər şey yaxşı olacaq.

Onun sözləri məni qorxutdu. Yaxşı olacaq deyəndə, nəyi nəzərdə tuturdu görəsən? Yəqin Səfərovun gedişindən sonra hər şeyin düzələcəyini nəzərdə tuturdu. Odur ki, onun sözünə qüvvət olaraq fikrini dəstəklədiyimi bildirmək üçün:

- Əlbəttə, yaxşı olacaq. Pis günün ömrü az olur, Bəşirov, eşitməmisən? Ən sonuncu an yaşansa da, yaxşı saniyə pis illəri unutdurur.
- Elə olar yəqin... – Bir qədər gözlədikdən sonra dilləndi: – Lakin mənim yaxşı günümü sən görməyəcəksən...

Nə demək istədiyini soruşmaq istəyirdim ki, səngərlə kiminsə yaxınlaşdığını hiss elədim. İslamla tələsik sağollaşıb postdan çıxanda Səfərovla üzbəüz idik. Bir müddət bir-birimizə sükut içində baxanda axşamkı hadisələr bir daha lent kimi gözümün qabağından keçdi. Gözümün içinə diqqətlə baxan çavuş da sanki o lenti izləyirdi. Birinci dəfə idi ki, onu məni görəndə özünü itirən halda görürdüm. Sanki məzuniyyətdə onun kim olduğunu örəndiyimi hiss etmişdi. Artıq ondan heç bir halda çəkinmirdim. İndi onun məndən çəkindiyini hiss edirdim. Ən azından saatdar təyin edilmədiyim halda, səngərin içində olduğuma görə cəza almalı idim. Lakin bu fikir Səfərovun ağlına nədənsə gəlmirdi. Qarşısında dayandığım üçün Bəşirovun olduğu posta boylanaraq baxan Səfərov şübhəli nəzərlərlə:

- Burda nə baş verir? Xidmət vaxtı nə ilə məşğulsan, Bəşirov? – səsini sərtləşdirərək sağ tərəfimdən keçib İslama yaxınlaşdı. İslam isə bir kəlmə belə işlətmədən diqqətini düşmən postuna yönəltmişdi: – Səninlə deyiləm mən? – Səsini bir az da qaldıran çavuşun gözünə kompot şüsəsi ilə qoğalın büküldüyü kağız sataşdı: – Bu nədi burda, zibilxanadı

bura sənin üçün, Bəşirov? Sən bilmirsən ki, postu təmiz saxlamaq lazımdır?

İslamın əsəbiləşdiyini hiss eliyirdim. Odur ki, araya girdim. Çavuşun qolundan tutub özümə sarı çevirdim.

- Səfərov.... – gözlərimdəki hikkəni görən çavuş çaşıb qalmışdı: – Xidmətinin bitməyinə az qalıb. Çıxanda götürüb zibil qabına atacaq. Faciəvi nəsə var burada?

Qolunu kənara çəkib əlimdən çıxan çavuş:

- Mənə dəxli yoxdur. Bura postdur. Təmiz olmalıdır. Buna görə mənə söz gəlməlidir? Bəlkə yoxlama gəldi? Onda kim cavab verəcək? – Az qala şivən salan arvadlar kimi özünə əl qataraq danışırdı.

- Zərər yoxdur. Mən indi götürüb aparıb zibil qabına ataram, – bildirdim.

- Sən niyə atırsan? Postda yemək olmaz. Yeyib, cəzasını da çəkəcək. Özü yığışdırsın. – üzünü Bəşirova çevirərək davam etdi: – Yığışdıra bilmirsənsə, ananı çağır yığışdırsın...

Səfərov, az müddət keçməsinə baxmayaraq, İslamın anasının öldüyünü unudacaq qədər şərəfsiz bir insan idi. Anidən arxaya çevrilən İslamın gözləri

bərəlmişdi. Ağlımdan, günlərdir fikrindən keçirdiyini edəcəyini keçirdim. Elə də oldu. O, cəld silahını Səfərova tuşlamağı ilə qoruyucunu açmağı bir oldu. Özümü onun qabağına atanda əlini saxladı. Fikrindən döndərmək üçün söhbət etməyə vaxt yox idi. Özü də gözləmədən sinəsindən itələyib silahı əlindən aldım. Donub qalan Səfərov onun silahsız olduğunu görüb, üstünə atılmaq istəyəndə, boğazından tutub sıxdım. Onu orada boğub öldürə bilərdim. Amma yenə də nənəmin sözləri qulağımda eşidildi. İtələyib su ilə dolu səngərin içinə atdım. İslama isə tərpənməməyini tapşırdım. Onsuz da tərpənməyəcəkdi. Postun içində oturub ağlayırdı.

Palçıqlı suyun içindən güclə ayağa qalxan Səfərov qaçmaq istəyirdi. Belə olan halda onu vuracağımla hədələyərək dayandırdım. Onunla üzbəüz idik. Həyəcandan bərəlmiş gözləri ilə gah silahın ucuna, gah da tətikdə olan barmağıma baxırdı. Silahı islanmaması üçün səngərdən yuxarı atdım. İslamın adına idi deyə bu, onun üçün problem ola bilərdi. Var qüvvəmlə sifətinə vurduğum yumruq öz əlimi də incitmişdi. Yenidən yıxılan Səfərov dəhşət

içində idi. Yaxasından tutub qaldırdım. Düz gözünün içinə baxa-baxa hər şeyi üzünə deyəcəkdim:

- Səfərov... - Qışqırırdım: – Sən həqiqətən də çox əclaf adamsan, Səfərov... Sən cındır adamsan, Səfərov! – Qışqırdığım üçün gözüm od, ağzım isə tüpürcək püskürürdü: – Sən qəhbəsən, Səfərov...Nəinki qəhbəsən, həm də qəhbənin ... – “balasısan” deyəcəkdim ki, atəş səsinin eşidilməsi ilə səngərin içinə düşən bir şeyin ağırlığı suyun ləpəsini ayağımıza qədər gətirdi. Qaçaraq posta gəldim. Burada İslamın hərbi papağı, kompot şüsəsi və bir də qoğalın büküldüyü əzilmiş kağızdan savayı heç nə yox idi. Səngər qan gölünü xatırladırdı. Postun kənarındakı islanmış torpaqdakı izlər onun səngərdən çıxdığına işarə idi...O, düşmən gülləsi ilə intihar etmişdi. Lakin yenə də ortalıqda İslamdan əsər-əlamət yox idi. Digər dostlarımın intiharından sonra təbii olaraq onları axtarmaq üçün özümü dağa-daşa vursam da, bu dəfə vəziyyətlə o saat barışmalı oldum. Bilirdim ki, faydasızdır. Əmin idim ki, buna gərək yoxdur. Düşündüm ki, İslamı heç Allah da geri qaytara bilməz...

Səngərin içində ləpələnən suya səssizcə nə qədər baxdığımı xatırlamıram.

# BEŞİNCİ HİSSƏ

# DÜNYA BİR PALATA, BİZ İSƏ...

*Acı, böyümənin bir parçasıdır. Və unutmayın, bir şey canınızı yandırdığında içinizdəki başqa bir şey basdırılmışdır.*
***Məşhur hind mütəfəkkiri Oşo (Çandra Mohan Racniş)***

Özümə gələndə tavanda yanan işığa fokuslanmaqda əziyyət çəkdim bir müddət. Gözlərimi əsir alan duman qatı yavaş-yavaş çəkiləndən sonra ilk eşitdiyim səs ürək aparatından müvafiq intervalla gələn impulsun siqnalları oldu. Hərəkət etməyə taqətim yox idi. Gözlərimi sadəcə sağa və sola hərəkət etdirə bilirdim. Nə baş verdiyini xatırlamağa çalışsam da, bir şey alınmadı. Niyə orada idim? Mənə nə olmuşdu? Heç bir yerimdə ağrı hiss etməməyimə baxmayaraq, nəyə görə xəstəxana palatasında, özü də tək-tənha uzanmışdım? Tavanda florasan işıqdan, önümdəki divarda isə saatdan başqa heç nə

görmürdüm. Bir saata yaxın keçən müddət ərzində yadıma heç nə sala bilmədiyim üçün əsəbiləşirdim artıq. Elə bu dəm, bir səs məni diksindirdi:

- Hər vaxtın xeyir olsun!

Üzümü qeyri-iradi olaraq səs gələn tərəfə çevirdim. Eynən mənim kimi hər tərəfindən sistem şlanqları asılan, nurani bənizli bir qoca idi səslənən. Diksindirdiyi üçün ani olaraq acıqlı olsam da, üzünü daha da qırışdıran səmimi təbəssümü yumşalmağımla nəticələndi.

- Salam...- söhbət etməyə heç həvəsim yox idi.
- Özünü necə hiss edirsən? – soruşdu.

Üzümü yenidən tavana sarı çevirərək dilucu cavab verdim:

- Pis....
- Başa düşürəm, bala, – qoca dərindən nəfəs alaraq dedi.

Özümü səhhətimə görə deyil, beynimdə tüğyan edən fırtınaya görə pis hiss etdiyimi nəzərdə tutaraq bildirdim:

- Heç yerim ağrımır, əslində... - “Heç nə xatırlamıram!” - deyəcəkdim ki, qoca sözümü kəsdi:

- Bilirəm, bala. Heç nəyi yadına sala bilmirsən. Bəlkə də, bura necə düşdüyünü də unutmusan.

Təlaş içində üzümü ona sarı çevirdim. O isə davam edirdi:

- İki günə yaxındır ki, burdasan. Yanına həkimlərdən başqa heç kim gəlməyib. Bu müddət ərzində ancaq sayıqlamısan. Dostlarından danışıb ağlayırdın.
- Dostlarımdan? – həyəcanla soruşdum. Qocanın hər sözü yaddaşımı bərpa edirdi sanki.
- Hə, bala. Əvvəlcə Cavidan adı çəkdin. Dediklərindən belə başa düşdüm ki, binəva özünü maşının altına ataraq intihar edib.
- Düzdür, dayı, – artıq hər şeyi xatırlamağa başlayırdım: – ən yaxın uşaqlıq dostum olub. Çox ağıllı uşaq idi. Yazıq dözmədi insanların hərəkətlərinə.
- Heyif... – kişi yenə də dərindən nəfəs alaraq dedi.

Bir qədər sakitlikdən sonra davam etdi:

- Sonra Əhməddən danışdın. Sonra... Səhv eləmirəmsə, Mətləb və sonda da İslam adlı şəxslərdən

danışıb yerində sağa-sola çırpındığın üçün həkimlər sakitləşdirici iynə vurmağa məcbur oldular.

- Bəs sonra? – astaca soruşdum.

Məni izləyən sirli hadisələr sürətlə yenidən canlandı deyə, yaman duyğulandım. Gözümü qırpanda süzülən yaş qulağımı isladırdı.

- Sonra heç nə olmadı. Səkkiz saatdan çoxdur ki, sakit vəziyyətdə yatmısan. Ara-sıra gəlirlər, yoxlayıb gedirlər. Niyə soruşdun? Məgər bu acılardan başqası da var? – təəccüblə soruşdu.

- Var dayı, var, –ah çəkərək dedim: – Onlardan başqa da üç əsl dostum olub. Təəssüf ki, onlar da intihar edib bu dünyadan getdilər.

- Vay, vay, vay!.. – Qoca heyfisləndi, nədənsə bu dəqiqələrdə onun səmimi olduğuna çox inandım.

Hardasa iki-üç saat çəkən sükutdan sonra ağlımdan qocanın da nə üçün burada olduğunu soruşmaq keçdi. Üzümü ona tərəf çevirəndə o, artıq mənə baxırdı.

- Siz niyə burdasız, dayı? Təbii ki, sirr deyilsə.

- Sirdir... – Bu cavabı gözləmirdim. Ani olaraq təlaşa düşdüyümü hiss edib düzəliş verdi.

- Oğul, sənin üçün yox, özüm üçün sirdir. Neçə yaşındayam, bilmirəm. Niyə burdayam, bilmirəm.

Kimim-kimsəm varmı, bilmirəm. Ümumiyyətlə, heç nə xatırlamıram. Ancaq adımın Tahir olduğunu bilirəm, – söyləyən qocanın gülüşü xəfif öskürəyə qarışdı. Əslində heç gülməli də deyildi. Həyəcanım qorxuya çevrilirdi artıq. Bu nə deməkdir?!

- Gəl, dost olaq, – birbaşa dedi. - Bu yaşa qədər heç bir yaxın dostum olmayıb. Bəlkə də olub. Xatırlamıram. Taleyimiz eynidir deyəsən. Oxşar taleyi yaşayanların dostluğu möhkəm olur.
- Tahir dayı, məncə, bu yaxşı fikir deyil, – özümdən asılı olmayaraq bildirdim.
- Yaxşı fikir deyil?
- Bəli, məncə,deyil. İndiyə kimi dostluq etdiyim yeddi nəfərin aqibətini bilirsiz axı. Zənnimcə, bütün problem məndədir. Mənə belə gəlir ki, qaragüruh ruhların əsarətindəyəm. Kimlə dostluq edirəmsə, həmin adama nəsə olur. Odur ki, ömrümü dostsuz başa vurmaq istəyirəm. Əgər buna ömür demək mümkünsə...
- Allah səni güldürsün, – qoca ürəkdən güldü. – Oğul, sənlik nə var axı burda? Əsl dostsan ki, onlara bu qədər dəyər vermisən. Sən əsl dostsan ki, onları itirməklə barışa bilmirsən. Onların özünə qəsd

etmələrinin səbəbkarı sən deyilsən, əmin ol. Onlar kimi hər gün neçə nəfər canına qəsd edir. Bəs onlardan xəbərin varmı? Yox. Sən sadəcə yeddisini görmüsən. Bu bəlkə də səkkiz ola bilərdi. Bəlkə doqquz, on, on bir və sairə. Bəlkə mən də yaşamazdım indiyə qədər. Görünür, məni də sənin kimi bundan daşındıran hansısa qüvvə var...

Qocaya diqqətlə qulaq asmamaq mümkün deyildi. Çox maraqlı danışırdı.

- Ünsiyyətlə, münasibətlə, dostluqla işıqlanır həyat yolumuz. Bunlardan məhrum olduqca, qaranlıq çökür həyatımıza. Qaranlıq artdıqca da, qorxular lərzəyə gətirir ürəyi. Və bir gün ürək ona birləşən damarları qopartmaqla özünə qəsd edir. Bu yaşa gəlmişəmsə, demək ki, mənim də həyatımda insanlar olub, hansısa dostlar olub.

- Haqlısız, Tahir dayı.

- Odur ki, ümidini itirmə, oğul! Xoşbəxtliyin nə olduğunu dərk etsək, xoşbəxt ola bilərik.

Bu fikir mənə tanış idi.

- Mənim üçün xoşbəxtlik yaxın, əziz dostlarımın yanımda olması idi,– boğuq səslə dilləndim.

- Əla! Sən çox adamın dərk edə bilmədiyini anlamısan. Bu, əslində, sevinməli haldır, – qoca gülümsəyərək söylədi. - Demək yenidən təzə dostun ortaya çıxsa, xoşbəxt olmaq üçün şansın yaranacaq. Həyat gözəldir, yaşamaq isə ondan da gözəl. Bu gözəlliyi öz əllərinlə çirkləndirmə!

Çox maraqlı idi, tanımadığım bu qoca da digər dostlarım kimi məni həyatla barışdırmağa çalışırdı. Eynən Cavidan, Əhməd, Mətləb və digərləri kimi. Söhbəti məni cəlb edirdi. Tamamilə əlaqəmi kəsmək istədiyim dünya ilə aramı düzəldirdi.

- Bax, sən gələnə kimi nə qədər fikirləşsəm də, keçmişim haqqında heç nəyi xatırlaya bilmirdim. Amma səninlə danışdıqca yavaş-yavaş yenilənir yaddaşım. Əminəm ki, səndə də belə oldu.
- Düzdür, dayı. Artıq çox şeyi xatırlayıram.
- Danışmaq istəyirsənsə, danış. Səni dinləyə bilərəm, – Məni rahat görə bilmək üçün başını çevirərək söylədi.
- Baş ağrısı olacaq, Tahir dayı.
- Nə danışırsan, oğul. Axırıncı dəfə kimlə söhbət etdiyim yadıma gəlmir. Mənim üçün də maraqlıdır.

- Yaşarı xatırlayıram. İslamı itirəndən sonra dostlaşdığım şəxsi deyirəm... – söhbətə başladım – Yeni ailə qurmuşdu. Uzun müddət sevdiyi bir qızla valideynlərinin razılığı ilə evlənmişdi. Çox xoşbəxt idilər. Bir ildən sonra dünyaya əkiz övladları gələndə bu xoşbəxtlik daha da çiçəklənmişdi. Nəvələr baba və nənənin qucağından yerə düşməzdi. Yaşar da həmişə ata-ana hörməti saxlayırdı. Heç vaxt valideynlərinin yanında öz uşaqlarını qucağına almazdı, oxşamazdı, öpməzdi, oynatmazdı.
- Əhsən!
- Lakin bir müddətdən sonra bu xoşbəxtliyin parıltısı azalmağa başladı. Yaşarın anası oğlunu o qədər çox istəyirdi ki, getdikcə bu istək qısqanclığa çevrildi. Həmişə çox şeyi güzəştə getdiyi oğlundan həddindən artıq diqqət gözləməyə başladı. Bu barədə Yaşarla çox söhbətimiz olub. Deyirdi ki, istəyirəm hər şey yaxşı olsun, amma alınmır. Hər amili diqqətdə saxladığına baxmayaraq, anası ondan tez-tez inciyir, günlərlə ünsiyyətdən qaçırdı. Bu da təbii ki, həmişəki xoş əhval-ruhiyyənin yavaş-yavaş itməsi ilə nəticələnirdi. Bəzən bir müddətdən sonra təsadüfən açılan söhbət əsnasında məlum olurdu ki, kiçik

anlaşılmazlıq yaranıb. Anasının üzündə təbəssüm görmədikcə, Yaşar da qəm dəryasında boğulurdu. Hər görüşümüzdə bikef olduğunu sezirdim. Ən xırda məsələyə görə hansısa söhbətin böyüdülməsi onların evində artıq adət halını alırdı. Son vaxtlar ailə qurduğu üçün peşmançılıq çəkir, boşanmaq haqqında düşünürdü. Belə olan halda valideynləri ilə yenidən xoş günlərə qovuşacağını düşünürdü. Çünki onları çox sevirdi. Lakin əkiz balalarına görə fikrindən daşınmalı olurdu.

- İki arada, bir dərədə qalmaq buna deyirlər ha,– qoca dilləndi.
- Elədir, dayı. Valideynlərinə o qədər bağlı idi ki, onların kefi kök olanda Yaşarın da çöhrəsi gül açırdı. Bunun əksi isə onun həyatdan küsməsi ilə nəticələnirdi. Çox aciz idi baş verənlər qarşısında. Anası onun nə düşündüyünü yox, necə göründüyünə baxırdı.
- Problemlər də elə buradan yaranır, oğul. Kimsə görərək yaşayır, kimsə eşidərək, kimsə də hiss edərək. Bax budur insanları yaxınlaşdıran və eyni zamanda uzaqlaşdıran. Həyatda daim xoşbəxt olanlar bunun hər üçünü tətbiq etməyi bacaranlardır.

- Yaşar dözümsüzlüyünü büruzə verirdi artıq. Hər dəfə onunla söhbətdən sonra uğrunda yaşamalı gərək olan dəyərləri xatırladırdım. Əhvalını qaldırmağa çalışırdım. Bir tərəfdə şeytan, bir tərəfdə mən, ortada isə Yaşar. Lakin bir axşamüstü şeytan məndən güclü çıxdı. Çayxanadan xoş-əhval ruhiyyə ilə çıxıb evə yollananda, bizim tərəfə getdiyi üçün məni də öz maşını ilə apardı. Evimizin yanında saxlayanda telefonuna zəng gəldi. Ekranda “Anam” yazılmışdı. “Allah xeyir eləsin. Yenə nə olub görəsən?” – deyib bir müddət telefona baxdı. Şəxsi söhbət olacağını təxmin edib maşındanbayıra çıxdım. Çevrilib ona baxanda telefona cavab vermişdi artıq. Darvazamızın önündən yavaş-yavaş uzaqlaşandan sonra qəfildən maşının əyləc işıqları yandı. Öndən gələn avtomobillərin işıqları sayəsində Yaşarın silüetini görə bilirdim. Hərəkətsiz duruşundan anlamaq olurdu ki, o sadəcə qulaq asır. Hava soyuq olsa da, özümdən asılı olmadan, məndən haradasa otuz-otuz beş metr uzaqdakı prosesi izləyirdim. Bir müddətdən sonra, əlini qulağından aşağı endirəndə, görünür, danışıq bitmişdi. Lakin o hələ də maşınını hərəkətə gətirmirdi. Daha beş-altı dəqiqə dayanandan

sonra əyləcin işıqları söndü və maşın ildırım sürətilə yerindən götürüldü. Təkərlərin sürətlə dövrə vurması toz-duman qaldırmaqla yanaşı, avtomobilin yerlə təmasını azaltdığı üçün düzxətli hərəkətini əngəlləyirdi. Əsas yola çıxandan sonra daha da sürət götürən Yaşarın maşını, körpünün üstündəki maneələri qırmaqla, çaya düşəndə yerimdə donub qaldım. Bir andaca baş verdi hər şey. Az müddətdə hər iki istiqamət üzrə hərəkətdə olan avtomobillərin tıxacı yarandı. Cəld çayın kənarına yetirdim özümü. Azsulu çay olduğundan arxası üstündə çevrilən maşının təkərləri görünürdü. O dəqiqə özümü buz kimi suya atdım. Sanki termal bulağa baş vurmuşdum. Hərarətim bütün çayı qızdırmışdı. Arxamca iki-üç nəfərin çığırmasından başqa, olanlar heç kimin vecinə deyildi. Maşına qədər üzən anda körpüdə gördüklərim hələ də düşünəndə məni hiddətə gətirir. İnsanların əlindəki mobil telefonlar mənə tuşlanmışdı.

- Texnikanın inkişafı insanlığın süqutuyla nəticələndi, oğul. Bütün duyğularımızı, insani hisslərimizi əlimizdən aldı, – qoca təəssüflə dilləndi.

- Bu qədər də, olmaz axı, ay Tahir dayı... – dedim və qoca başının hərəkəti ilə dediklərimi təsdiqlədi. Mən isə davam etdim:
- Çətinliklə də olsa, maşının batdığı yerə çatdım. Baş vurdum suyun altına. Ömrümdə bircə dəfə də olsa, suyun altında gözümü açmamışdım. Ancaq həmin an, özümdən asılı olmayaraq, gözlərimi tam açdım. Axşamın zülmətinə baxmayaraq, suyun altında maşının içini aydın şəkildə görürdüm. Zərbənin təsirindən öndəki yan şüşələr qırılmışdı. Salonda bir-birinə qarışan kağızlar, qəzet və başqa əşyalar rəqs edirdi sanki... – danışa-danışa həmin anları yenidən yaşadığım üçün dayandım.
- Bəs Yaşar? – kişi təəccüblə soruşdu.
- Yaşar yox idi, Tahir dayı...Yaşar sadəcə qeybə çəkilmişdi. Maşının içini axtardım, əlimlə hər yerə toxundum. Uzun müddət nəfəssiz qaldığımdan gözlərimə qaranlıq çökürdü. Gözlərimi açanda isə çayın sahilində sinəmdən ürək masajı olunduğumu gördüm. Suya atılanda arxamca qışqıran həmin iki nəfər xilas etmişdi məni. Özümə gələn kimi ilk növbədə Yaşarı soruşdum: ətrafıma toplaşanların özlərini qəribə aparmaları məni təəccübləndirmədi.

Boylandım çayın avtomobil düşən hissəsinə. Fəqət avtomobildən də əsər yox idi. Birtəhər ayaq üstə qalxdım və getdim. Nə mən kimsədən bir şey soruşdum, nə də kimsə məndən.

- Aydındır, oğul. Qatillər həmişə özlərini ilk dəfə cinayətdən bixəbər göstərirlər.
- Anlamadım, dayı – qoca nəyə görə o məsəli çəkmişdi, hələ də başa düşmürəm...
- Elə belə dedim. Fikir vermə!

Nə vaxt yuxuya getdiyimi xatırlamıram. Ayılanda qocanın nəzərləri mənə yönəlmişdi. O, ya həmişə məndən tez oyanırdı, ya da ki ümumiyyətlə yatmırdı.

- Necəsən? – soruşdu.
- Yəqin ki, yaxşıyam, – dedim və anidən məni bir məsələ maraqlandırdığı üçün soruşdum: – Tahir dayı, özümə gələndən bu yana burada həkim görməmişəm. Nə məsələdir?
- Oğul, narahat olma. Hamımızda olduğu kimi, sənin də bədəninə birləşdirilən naqillər vasitəsilə bütün məlumatlar onların kompyüterinə ötürülür. Hansısa fövqəladə hal baş verəndə, sistem vasitəsilə

bütün xəstələr yatızdırılır və həkimlər palataya daxil olaraq lazımi müdaxiləni edirlər. Onları əslində heç kim tanımamalıdır.

Qocanın dedikləri mənə ikibaşlı göründü:

- Tanımamalıdır, yoxsa tanımır? – deyə soruşdum.

- Tanımır! – Bir qədər ara verəndən sonra çox asta səslə əlavə etdi: - məndən savayı...

Heç nə anlamadığım üçün, sadəcə, qocanın üzünə baxırdım.

- Yeni gətiriləndə səninlə bağlı söhbətləri yalnız həkimlərdən eşidə bilərdim. Sayıqladığın vaxt, halın pisləşən kimi onların gələcəyini bilirdim. Odur ki, xəstələri yatızdırmaq üçün dərman ötürülən şlanqı çıxardığımdan onlar gələndə oyaq oldum. Özümü yuxulu göstərərək söhbətlərinə qulaq asmağa çalışdım, lakin alınmadı. Bir kəlmə danışmadan on-on beş dəqiqə ərzində müdaxilə edib getdilər. Az müddətdən sonra da həmin şlanqın yenidən mənə birləşdiyini gördüm, – deyib gülümsəyəndə mən də ona qoşuldum. - Odur ki, onları görməmək, nəzarətlərindən kənarda olmaq demək deyil, oğul. Sən heç narahat olma!

- Sözün düzü, narahat deyiləm, Tahir dayı. Sadəcə maraqlı gəldiyi üçün soruşdum. Bir dostum həkim idi deyə, bu sahədə az da olsa məlumatım var. Amma ilk dəfədir ki, belə sistem görürəm.
- Hansı dostun?.
- Yalçın...
- Onun haqqında danışmamısan.
- Ola bilər. Yaşardan sonra tanımışam onu. Həm terapevt idi, həm də psixoloq. Mən də daxil olmaqla, çox insana ruh yüksəkliyi bəxş edirdi. Amma çox təəssüf ki, o da tab gətirmədi.
- O da intihar etdi? – deyə soruşan qocada, az da olsa, təəccüb, təəssüf hiss etməməyim məni yaman düşündürdü.
- Hə, dayı... İntihar azarına düşənləri fikrindən daşındırsa da, özünü xilas edə bilmədi.
- Nəyisə bilmək, hələ onu həyata keçirmək anlamına gəlmir, oğul. Görünür, Yalçın xəstələri maarifləndirsə də, bildiklərini öz həyatına tətbiq edə bilməyib.
- Görünür. Yalçın çox yaxşı oğlan idi. Tibb təhsilini xaricdə alıb gəlmişdi. İki xarici dildə sərbəst danışırdı. Tibbin bütün sahələrinə aid bilgisi vardı.

Ölkədə keçirilən əksər tibbi seminarlara qatılar, onlarla sertifikat almışdı. Lakin işlədiyi tibb müəssisəsindəki ayrı-seçkiliklər, ədalətsizliklər, yaltaqlıqlar onu da bu qaranlıqlar dolu həyatdan küsdürürdü.

- Elədir, Azər. Oğlum, çox təəssüflər, cəmiyyətimizdə demək olar ki, hər yer üçün bu vəziyyət adi haldır.

Qocanın adımı səsləndirməsi məni çaşdırmışdı. Bir-birimizi tanıyandan, nə mən adımı demişdim, nə də o soruşmuşdu. Yəqin həkimlərdən eşitmişdi. Yox, onlar danışmırdılar axı. Nə isə...

- Elə adi baxdığımız üçün ənənə halını alır da, Tahir dayı. Nə vaxta kimi belə olacaq?
- Biz ölənə kimi, oğul, – o, dərindən nəfəs alaraq davam etdi: – İnsanlıq ölüb, insan qalıb. Elə şeylər var ki, onları istəsən də dəyişmək olmur, Azər.
- Eh, dayı... Bir-ikisini çıxmaq şərtilə, bütün həkimlər ayrı-ayrılıqda bir komandir idilər sanki. Hər kəs vəzifə və beş-on manat artıq pul qazanmaq uğrunda strategiyalar qururdu. Bu yolda yalan danışmaqdan, şər atmaqdan belə çəkinmirdilər. Yalçınla söhbət edə-edə orada baş verənləri yaxından

müşahidə edə bilirdim. Hətta bir-iki həkimlə də münasibətimiz yaranmışdı. Yay fəslində çox vaxt dənizkənarı parkın qayalıqlarında oturub söhbət edirdik. Şöbə müdirinin ifrat ayrı-seçkiliyi məndə də ona qarşı qəzəb yaratmışdı. Başqa həkimlərin haqqına girərək öz qonşusuna yaratdığı şərait şöbədə narazıçılığa səbəb olmuşdu. Sığortalı xəstələri digər həkimlərə, varlı xəstələri isə qonşusuna yazaraq açıq-aşkar həyasızlıq edirdi. Hətta Yalçının müalicə etdiyi xəstənin həyata keçirdiyi ödənişi həmin adamın adına yazdıraraq daha çox qazanc əldə etməsinə nail olurdu. Üstü açıldıqca müdirlə Yalçın arasında mübahisə yaranırdı. Bu həm mənəvi, həm də maddi haqqa girmək idi. Lakin şərəfdən uzaq müdir, mənəviyyatdan da uzaq olduğu üçün, öz murdar əməllərinə son qoymurdu. Baş həkimin hər səhər kollektivlə keçirdiyi iclasdakı çıxışları o qədər səmimi görünürdü ki, onun nə vaxtsa şöbə müdirinin əməllərindən xəbər tutub tədbir görəcəyinə ümid yaradırdı. Lakin bir gün hər şeyin elə onun himayəsi altında baş verdiyini öyrənən Yalçın hamıya və hər şeyə tüpürərək tibb müəssisəni birdəfəlik tərk etdi. Həkim yoldaşları onu axtarsalar da tapa bilməyiblər.

Mənə zəng gələndə xəbər tutdum məsələdən. Yaşadığı evə getsəm də, onu orada tapa bilmədim. Telefonunu da söndürmüşdü.

- Çox güman ki, dəniz qırağına gedib. – Qoca əminliklə söylədi.

- Bəli, dayı. Elə mən də beləcə düşünüb çox vaxt söhbət etdiyimiz qayalıqlara tərəf tələsdim. Ora çatanda Yalçına aid bir-iki şəxsi əşyadan başqa heç nə yox idi. Atmışdı özünü heç kimə fərq qoymayan dalğaların qoynuna. Özümdən asılı olmayaraq, əzəməti ilə qürrələnən dalğalara etirazımı qışqırmaqla bildirməyə çalışdım.

- Təbiətin qarşısını almaq mümkün olan iş deyil. Onun etdiklərinə mane ola bilməzsən. Sən ona hiddətləndinsə, daha da sərt üzünü göstərər.

- Həmin vaxt nə etdiyimi bilmirdim, Tahir dayı. Dost itirmək, mənim üçün əsl bədbəxtçiliyə çevrilmişdi. O anlarda dənizə olan kinimi büruzə verməyə bilməzdim. Elə o vaxtdan dənizlərə nifrət edirəm.

- Haqlısan təbii ki. Səni tam başa düşürəm. Amma unutma, heç bir kin əbədi deyil!. Həyatın hər anı ilə barışmaq lazım gəlir. Elə vaxt olur ki,

düşməninlə dost olmağa məcbursan. “Onu heç vaxt sevmərəm!” – dediyin şəxsə aşiq olursan. Yeri gəlmişkən, dostum, – deyə, qoca gülümsədi. Həmsöhbət olduğumuz müddətdə ilk olaraq, mənə dostum deyirdi: – sevdiyin qızdan nə üçün ayrıldığını demədin axı...

Bununla ikinci dəfə idi ki, qoca mənim canıma qorxu salırdı. Mən ona o qızdan nəinki ayrılmağım, heç sevgilimin olması barədə də deməmişdim. O, sanki mənim haqqımda çox şeyi bilirdi. Amma heyrətləndiyimi büruzə vermədən sualına cavab verməyə başladım:

- Sevdiyim qız dostlarım qədər anlamadı məni. Onlar qədər hörmət etmədi fikirlərimə. Hiss edirdim ki, get-gedə mənim yanımda sıxılmağa başlayırdı. Mənim var-dövlətə həvəsimin azlığı eyni zamanda onun da mənə meylinin azalmasına təsir edirdi. Ona təzəcə vurulduğum ilk vaxtlar tez-tez görüşsək də, bir müddət sonra görüşlərin sayı azaldı. Ardıyca da yalnız mobil telefonla zəngləşməyə başladıq, daha sonra sosial şəbəkələrin sürətli mesaj sistemləri ilə yazışmağa başladıq. Sonra da ki... Heç bilmirəm necə bitdi...

- Mobil rabitəylə əlaqə ucuzlaşdıqca, insanlarla ünsiyyət bahalaşır, dostum. Telefonlar maddi məsafələri qısaltsa da, mənəvi məsafələri kilometrlərlə uzaqlaşdırır.
- Elədir, Tahir dayı! Mən ümumiyyətlə sevginin sevgilidən ayrı yaşandığını kəşf etdim özüm üçün.

Qoca, diqqətlə qulaq asırdı mənə. Bu fikrimi eşidən kimi, sağ qaşının qalxdığını gördüm. Bir qədər fikrə gedəndən sonra dedi:

- Düz deyirsən, tamamilə razıyam səninlə. Bizim dövrümüzə xas olmasa da, mən həyat yoldaşımla sevərək ailə qurmuşdum. Özü də valideynlərimizin on dörd il boyunca etirazına baxmayaraq.
- On dörd il? – təəccübümü saxlaya bilmədim.
- Bəli, dostum, on dörd il. Hər kəsin imkansız dediyini mümkün etmişdik sevgimiz sayəsində. Lakin zaman keçdikcə bir-birimizə olan sevgimiz əsəbimizi üstələyə bilmədi. On dörd il ərzində fikrimizin hər sahədə üst-üstə düşməsinə baxmayaraq, evləndikdən bir müddət sonra aramızda oxşar söz işlədilmədi. Getdikcə sevgimizə bais olan ehtirasımız da gücünü itirdi. Daha sonra evin içində bir-birimizdən kənar

gəzməyə başladıq. Sevgili vaxtı sarılıb saatlarla bir-birimizi qoxladığımız halda, evləndikdən sonra, sən demə, məndən onu qıcıqlandıran kəskin, xoşagəlməz qoxu gəlirmiş... – başını sağa-sola yellətməklə gülümsədi.

- Mən də elə onu təxmin etdiyimə görə ailə qurmaq fikrindən daşındım, Tahir dayı. Məhz ətrafda baş verənləri müşahidə edə-edə sevgimi itirdim.

- Azər, sevgi həyatın enerjisidir. O əslində itmir. Sadəcə, bir haldan başqa hala keçir. Sevgi tamam itdiyi zaman insanlar intihar edir. Sevgini formalaşdıran dəyərlər var, oğul. Məsələn, əks-cinsə qarşı sevgini ehtiras, Allaha qarşı sevgini etiqad, valideynə qarşı sevgini əqidə, dosta qarşı sevgini həyat formalaşdırır.

- Həyat...Məni dostlarımla qarşılaşdıran həyat. Həm də onlardan ayıran həyat... – Gözümü tavandakı işığa zilləyərək dedim.

- Həyat, əslində, heç nəyə təsir etməz, dostum. O, insan üçün zaman və məkanın birləşməsindən yaranan uzun bir ipdir. Müəyyən müddətdən sonra ömür sandığının açarını öz əlində saxlaya bilən adam ipin üzərində rahat yeriyə bilir. Yox, əgər o açar

başqa insanlarda olacaqsa, həmin adam hər addımda müvazinətini itirərək ipdən düşəcək. Zaman-zaman əvvələ qayıdıb yenidən hərəkət etmək istəsə də, açar öz əlində olmadıqca, o sandığın olmasının önəmi yoxdur.

Tahir kişinin söhbətləri mənə Ələmdarı xatırlatdığı üçün:

- Lap mənim dostum kimi danışdız, – bildirdim.
- Mən dostun deyiləm məgər? – ironiyayla gülümsədi.

Mən də gülümsədim. Amma fikrini təsdiqləmədim. Çünki üç gün idi onu tanıyırdım. Lakin elə zənn edirdim ki, illərdir tanıyıram bu qəribə qocanı. Məni dinləməsi, fikirlərimə əlavələr etsə də, ümumilikdə, razılaşması yaxınlaşmağımıza səbəb olmuşdu. Xəstəxanadan çıxandan sonra ən yaxın dostum o olacaqdı. Çünki dostlarımdan sonra həyatımla bağlı hər şeyi danışdığım yeganə insan o idi.

- Müdir işləyirdi Ələmdar. Aramızda on yaş fərq olmasına baxmayaraq, möhkəm dost idik. O sizin qədər də olmasa, dostlarımın içində dilindən ən çox fəlsəfi fikirlər eşitdiyim şəxs idi. İnsan, həyat,

cəmiyyət, bəşəriyyət haqqında özünəməxsus fikirləri vardı ...

# ALTINCI HİSSƏ

# SON, YOXSA ƏVVƏL?!

*BURADA ƏSAS SÖZ HANSIDIR?*
*Çətindir insanın yaxşı olması?*
*Çətindir insanın yaxşı olması?*
*Çətindir insanın yaxşı olması?*
*Çətindir insanın yaxşı olması?*
***Yeddi müdrikdən biri olan Pittakın bu tapmacasına hələ dəcavab tapılmamışdır.***

Daha neçə gün, bəlkə də ay keçdiyini xatırlamıram. Artıq Tahir kişini yaxın dostlarımdan fərqləndirmirdim. Dəfələrlə qəfil yuxudan ayılaraq onun yanımda olmadığını düşünürdüm. Lakin həmişəki kimi başını sol qoluna söykəyərək mənə baxmasını görəndə rahatlanırdım. Getdikcə maraqlı olan günlərin birində Tahir kişi bir qədər əvvələ qayıdaraq bildirdi:

- Ələmdarla tanış olmaq istərdim...

Dostlarımı bir-birilərilə tanış etmək imkanımın olmaması barədə etdiyim söhbəti, güman ki, unutmuşdu. Bir qədər sükut edəndən sonra davam etdi:

- Onun nə üçün intihar etdiyini demədin.

Ələmdarın adını eşidən kimi həmin günləri xatırlamağa başladım. Gözlərimi tavandakı florasan işıqdan ayırmadan danışmağa başladım:

- O, həqiqətən də əla dost idi. İnsani xüsusiyyətləri, humanistliyi, xeyirxahlığı bizim insanlar üçün rəhbərə yaraşmayan göstəricilər hesab olunur. Bacarığına, istedadına görə təyin edildiyi vəzifəni layiqincə icra etsə də, kollektivi idarə edə bilmədi. Tez-tez olmasa da, ara-sıra bizim onunla otağında söhbətlərimiz olurdu. İşçilərin onun etibarından sui-istifadə etməsi çox sıxırdı dostumu. Ona işə gecikmə halları, tapşırıqları vaxtında təhvil verməmək, işə icazəsiz gəlməmək kimi məsələlərə qarşı sərt tədbir görmədiyini xatırladırdım. Mənimlə razılaşırdı. Lakin bunları edəcək qədər sərt ola bilmirdi. Hətta məsuliyyətsizlik edən işçiləri işdən azad etmək səlahiyyəti olsa da, bunu etmirdi.

Çörəklərinə bais olmaq istəmirdi. İşsiz qalarlarsa, daha çox əziyyət çəkəcəyini bildirirdi.

- Əsl insan imiş!..
- Təsəvvür edin ki, ətrafdakılar belə bir insanın qədrini bilmədilər. Vəziyyət o yerə çatmışdı ki, idarədəki bu mənzərə nazirlikdə müzakirə edilmişdi. Bir dəfə iş vaxtının bitməyinə az qalmış idarəyə getdim. İçəri daxil olanda işçilərin demək olar ki, hamısı çıxıb getmişdi. Yalnız katibə qalmışdı. Təcili zəng gələrsə, cavab verən olsun deyə. O da gözəllik salonundaymış  kimi kompüterin qabağına qoyduğu iri güzgüyə baxaraq bəzənirdi. Ələmdarın yanına girəcəyimi deyəcəkdim ki, zəng gəldi. Bir telefona, bir güzgüyə, bir də saata baxan çatmaqaş katibə dörd-beş çağırışdan sonra daş qaldırırmış kimi dəstəyi qaldırdı. Cavab verən kimi duruşunu düzəldərək:
- Baş üstə, bircə dəqiqə, bu dəqiqə birləşdirirəm, – dedi həyəcanla. Selektorun düyməsini sıxaraq: – Ələmdar müəllim, nazirlikdəndir. – xəbərini verib dəstəyi asdı. Ələmdar telefonla danışacağı üçün qəbul otağına keçərək gözləməyə başladım. Ətrafda sakitçilik hökmranlıq edirdi. Bir müddətdən sonra tappıltı səsinə diksindim. Səs Ələmdarın otağından

gəlirdi. Qeyri-iradi olaraq təlaş içində otağa daxil olanda, o, yerdə idi. Stolun üstündə isə adını belə oxumadığım dərman qabı. Qaçdım Ələmdara sarı. Gözləri ağarmış, ağzından isə köpük gəlirdi. Əl atdım telefonlara. Heç biri işləmirdi. Katibəni çağırmaq üçün çıxdım. Lakin elə bil dünyada məndən və yerdə can verən Ələmdardan başqa heç kim yox idi.

- Bəs sonra? – Diqqətlə qulaq asan Tahir kişi soruşdu.

- Sonra...Sonra da gözümü sənin yanında açdım. Hə, Tahir dayı, bu da mənim həyatım. Özümü dərk edəndə çox xoşbəxt idim. Sonra isə məhz özümü dərk etdiyim üçün bədbəxt olmağa başladım. Eynicinsli heyvanlar öz aralarında anlaşdıqları kimi insanlar anlaşmır. “Göründüyün kimi ol, olduğun kimi görün!” - deyən böyüklərim, nə göründüyüm kimi olmağımı, nə də olduğum kimi görünməyimi qəbul etdilər. Xoşbəxtliyim heç vaxt daimi olmadı. Bədbəxt insanların içində mən də eyni taleyi yaşadım.

- Azər, bu dəfə səninlə razılaşmayacam. Bədbəxt olunmur, bədbəxt hiss edilir. Çətinliklə üzləşən insan özünə bədbəxt damğası vurub ruhdan düşəcəksə, o zaman həyatına maddi varlıq kimi

davam edəcək sadəcə. Yəni qadir olduğu gücü heç vaxt anlamayacaq. Unutmaq olmaz ki, hər problemin həlli də, çıxış yolu da var. Çarənin olmadığı düşünülən an, ən az üç variant vardır. Yetər ki, insan özünü həqiqətən dərk etsin.

- Axı mənim hansı yolum qaldı? İndi sizdən başqa heç kimim yoxdur artıq bu həyatda. Varsa, mənə də göstərin o yolu.

- Öz yolunu özün tapmalısan, dost. Sənə göstərəcəyim yolla mənim müşaiyət edəcəyim qədər gedə bilərsən. Sonra yenə azacaqsan. Mən indi varam, lakin bir dəqiqədən sonra olmaya bilərəm...

Nəfəsimi almadan dinləyirdim onu. Gözlərimə tuşlanan gözlərindən işıq saçırdı sanki. Lakin son cümləsi yenidən həyəcanlandırmışdı məni. Yoxsa o da digər dostlarım kimi məni tərk edəcək? Yox, buna tab gətirməzdim...

- Eşidirsən? - deyərək məni düşüncələrimdən ayırdı. - Odur ki, öz yolunu tap! Həyata yenidən gəldiyini fərz et! Dünyada səndən başqa yaşayan bir nəfər belə insan varsa, demək tənha deyilsən! Yolun mütləq kiminsə yoluyla yaxınlaşacaq. Bax, o zaman

yeni dostluqlar, yeni tanışlıqlar baş tutacaq. Yeni həyat səni ağuşuna alacaq...

Tahir kişinin fikirləri mənə digər dostlarımı xatırladırdı. Eynilə onlar kimi beynimdə var-gəl edən intihar cəhdinə mane olmaq istəyirdi. Lakin sözünü onlar kimi ölümlərindən sonra yuxuma girərək yox, birbaşa özümə deyirdi. Tərəddüdlərim bağrımı dəlirdi. Yaşamaq üçün bir səbəb görmədiyim vaxtda, özləri lənətə gəlmiş dünyanı tərk etdikləri halda məni bu fikirdən daşındırırdılar. Axı niyə? Elə bu fikirlər məngənəsində tavandakı işığı seyr edərək Tahir kişinin fikirlərinə münasibət bildirdim:

- Bəlkə də dediyiniz kimidir, dostum, – ilk dəfə idi mən ona belə xitab etdirdim. – Amma daha dözə bilmirəm.
- Dözməlisən! – O, sözümü kəsərək sərt tonda dilləndi: – Mənə söz ver ki, dözəcəksən.

Özümü qəribə hiss etməyə başladım. Nə üçün söz verməyimi istəyirdi? Gərginliyi azaltmaq üçün gülümsəyərək:

- Dostum...

- Azər, mənə söz ver! –yenidən sözümü kəsdi. – Söz ver ki, həyatdan zövq alacaqsan, bu dünyada hələ çox yaşayacaqsan...

Üzümü ona çevirərək baxanda Tahir kişinin gözlərindəki işığın getdikcə daha da artdığının şahidi oldum. Baxışlarımı yenidən tavana zilləyərək düşünməyə başladım. Söz vermək olardı, çünki, ən azından, yeni dost tapmışdım özümə.

- Yaxşı, dost, söz verirəm. Amma səz də...- fikrimi tamamlamamış qulağıma gələn səs susmağıma səbəb oldu. Ürək tempini müvafiq intervallarla müşaiyət edən səs siqnalı kəsintisiz eşidilməyə başladı. Nəzərlərimi tavandan çəkib ona yönləndirəndə, bədəninə birləşən bütün naqilləri qopartdığını gördüm. Özümə gələndən bu yana, bir dəfə də olsun cəhd etməməyimə baxmayaraq, tələsik ayağa qalxdım. Qolumdakı və bədənimdəki şlanqların hərəkətimə mane olduğu üçün hamısını qırdım. Həkimləri səsləmək üçün dəhlizə çıxdım. Bütün müşahidə kameralarının önündə diqqətlərini cəlb etmək üçün əl-qol hərəkətləri etdim. Əksər palataların qapısını açdım. Xəstəxanada bizdən başqa xəstə yox imiş. Dəhlizdə bizim palatadakı uzun siqnaldan başqa

heç nə eşidilmirdi. Və həmin siqnal hələ də qulağımdadır...

Dostlarım və yaşadıqlarım haqqında xatirələrim məhz həmin andan sonra bitir. Sonra nələr olduğunu, niyə həbs edildiyimi xatırlamıram. Bütün dostlarıma verdiyim sözü tuta bilmirəm artıq. Belə bədbəxtçiliklə daha çox yaşamağın mümkünsüz olduğunu anladım. Dostlarımdan sonra yeganə xoşbəxtliyim onlar haqqında yazmağım idi. Fəqət qələmə aldığım bu yazı bitdiyinə görə mənim üçün də hər şey bitdi...

Bir dəqiqə... burda kimlərsə var... səslər eşidirəm... Aman Allah, **C**avidan, **Ə**hməd, **M**ətləb, **İ**slam, **Y**aşar, **Y**alçın, **Ə**ləmdar və **T**ahir kişi...
Nəhayət ki, onları tanış edə biləcəm.
Nəhayət ki, mən yenidən xoşbəxtəm...

## NAŞİRİN QEYDLƏRİ...

Köməkçim mənə xəbər verər-verməz hadisə yerinə yollandım. Deyilən ünvana çatanda Fövqəladə Hallar Nazirliyinin xilasetmə dəstəsi mənzilin qapısını xüsusi qurğu ilə yenicə açmışdı. Çətinlik çəkmələrinin səbəbi iri dəmir qapının bütün kilidlərinin bağlı olması imiş.

Mənzili ağuşuna alan üfunət qoxusu çox keçmədi ki, bütün binanı ələ keçirdi. Qalstukum işə yaramadığı üçün sağ əlimlə pencəyimin ətəyini burnuma sıxdım. Qaranlıq dəhlizə çıxışı olan hər iki otağın qapısı bağlı, divarlarda qan izləri var idi. Dağınıqlıq qapının ağzından otaqlara qədər davam edirdi. Mənzilin bütün pəncərələri zərrə qədər işığın keçməyəcəyi şəkildə qapadılmış, hər yerdə qaranlıq hökm sürürdü. Xilasedicilər mənzildə qaz sızmasının olub-olmamasını dəqiqləşdirdikdən sonra elektrik lampalarını sıra ilə işlək vəziyyətə gətirdilər. Otaqlar işıqlandıqca insanı vahimə bürüyür, həyəcan artırdı.

Qonaq otağına daxil olanda isə gördüyümüz mənzərə bizi dəhşətə gətirdi. Ətrafa yazılı-yazısız, qanlı-ləkəli, cırılmış-əzilmiş kağızlar səpələnmişdi. Yerdə divara tuşlanmış yazı lampası közərməkdə idi. O, isə üzü üstə masaya sərilib qalmışdı. Sol əlində ucu qanlı qələmi, sağ qolundan isə qan damcılayırdı. Masadan döşəməyə süzülən qan yerdə gölməçə yaratmışdı. Alt qonşunun FHN-ə zəng etməsinin səbəbi də qanın onların divarından süzülməsi olub. Təşvişə düşən qonşu əvvəlcə qapıdan səslənib, cavab verən olmayınca, çarəni müvafiq quruma zəng etməkdə görüb.

Bir müddət ay görmüş kərtənkələ quyruğu kimi qaldım. Bütün səslər kəsilmiş, hərəkətlər yavaşlamışdı. Gözlərim sadəcə stola sərilmiş şəxsə fokuslanmışdı. Ömrümdə ikinci dəfə idi ki, bu qədər acı çəkirdim...

Sevdiyim qızla qovuşmağımı əngəllədiklərinə görə etiraz əlaməti olaraq indiyə qədər də valideynlərimə toy sevincini yaşatmamışam. Nə qədər istəsələr də, ailə qurmadım. Bundan düz iyirmi

iki il qabaq mən arzuladığım qədər istəməklərinə baxmayaraq.

Günayı onlara qiyabi təqdim edəndən sonra atam onların ailəsi haqqında araşdırma aparmışdı. Onun hüquq-mühafizə orqanlarında yüksək vəzifədə çalışması bu araşdırmada əziyyət çəkməməsinə yardımçı olmuşdu. Görünür araşdırması öz bəhrəsini vermişdi: bir müddətdən sonra anam vasitəsilə mənə çatdırdı ki, ondan əl çəkim. Dediyinə görə, yer-göy bir olsa da, bizim vüsalımız mümkünsüzdür. Bu isə o qədər asan məsələ deyildi. Səbəbi deyilmədən ondan uzaqlaşmağım istənilirdi. O insandan ki, siması hər an gözümün önündə, adı daim ruhumun dilində idi. Səsini eşidəndə içim rövnəqlənər, qanım damarlarımda həmişəkindən daha sürətlə dövr edərdi. Ona baxanda sifətində gündüzlər günəşi, gecələr ayı görərdim. Varlığı xoşbəxtliyim, yoxluğunu isə qəbul etməyəcək qədər tündxasiyyət olmuşdum. Sevginin tərifini bilməsəm də, mənim üçün sevginin mənası da, məğzi də o idi. Ona vurulmağımla bərabər, bu sevginin özünü də sevirdim. Bütün bunlar atamın sözü ilə təbii ki, razılaşmamağıma səbəb oldu.

Əvvəlcə onların fikrini dəyişməsi üçün gözləməyi qərara aldım. Amma Günayla hər görüşümüzdən sonra evdə söz-söhbətin olması məni cana yığmışdı. Atamın məni izlətdirməyini biləndə isə buna həm əsəbiləşdim, həm də məsələnin nə qədər ciddi olduğunu yəqinləşdirdim. Axı onlar nə üçün bu qədər qəti şəkildə etiraz edirdilər?

Günayın çox gözəl ailəsi, həddindən artıq tərbiyəli bacısı, ziyalı nəsli vardı. Əgər söhbət var-dövlətdən gedirdisə (hərçənd məni heç vaxt maraqlandırmırdı), o mənada da imkanları pis deyildi. Atası əvvəllər dövlət qulluqçusu, sonradan isə fərdi biznes fəaliyyəti ilə məşğul olan uğurlu iş adamı kimi tanınırdı. Bəs nə idi səbəb? Bu barədə bir kimsə mənə heç nə demirdi. Artıq anam, eləcə də bacım və qardaşım da atamın tərəfinə keçmişdi.

Bir müddətdən sonra hər şeyi atamın məni öz övladı qədər çox istəyən dostundan öyrənməli oldum. Sən demə, həmin vaxtdanon beş-on altı il qabaq Günayın atası ilə mənim atam eyni rayonun rəhbər vəzifələrində çalışıblar. Uzun müddət yola getmədikləri üçün bir-birinə düşmən mövqedə qərarlaşan məmurlar, həmçinin, bir-birlərinə nifrət

edirlərmiş. İş o həddə çatıb ki, ölkə rəhbərliyi hər ikisinin təyinatını başqa-başqa rayonlara verməklə onları birlikdə işləməkdən ayırıb.

Həyatın cilvəsimi deyim, fələyin oyunumu deyim, bilmirəm, tale onları on beş ildən sonra belə bir sınağa çəkirdi. Sonradan əmin oldum ki, nəinki mənim atam, hətta Günayın da atası həmin reaksiyanı göstərərək bizə əngəl olacaq. Beləliklə, onları məcbur razılığa gətirmənin bir yolunu tapmalı idim. Və tapdım... Zənnimcə, bir-birimizə sahib olmalı idik ki, valideynlərimizin bizi birləşdirməkdən başqa çarəsi qalmasın. Çox çətinliklə də olsa, Günayı razı sala bildim. Ruhunu mənə təslim etmiş qız, bakirəliyini də mənə “bağışladı”. Saatlarla vüsalımızın təntənəsini qeyd edərək, göy üzündəki azad quşlar kimi gələcək həyatımızın xəyalı üzərində uçduq...

İki aydan sonra Günayın hamilə olması bizi yeni oyuncaq alınmış uşaq kimi sevindirdi. Qanuni vüsalımızın səbəbkarı olacaqdı bizim üçün o uşaq. Hamiləliyin üçüncü ayında vəziyyəti eyni anda valideynlərimizə bildirmək qərarına gəldik. Lakin o gündən sonra Günayı görə bilmədim. Bizim evdə atamın məni az qala övladlıqdan çıxarması ilə

nəticələnən hadisə, onların evində nəylə nəticələnmişdi, təsəvvür edirdim.

Bir həftə keçmədi ki, Günaygilin ünvanlarını dəyişdiyini öyrəndim. Amma yeni ünvanı bildim deyən olmadı. Universitetə də gəlməyən Günayı artıq xeyli vaxt idi ki, görmürdüm. Həmin gün onlarda nə baş vermişdi? Neyləmişdilər yazıq qıza? Əmin idim ki, köçməklərinin səbəbi elə bu idi. Məni polisə şikayət edəndə, kimliyimdən xəbər tutan Günayın atası yaralı şirə dönmüşdü. Atamın hüquq-mühafizə orqanlarındakı tanışları olmasaydı, bəlkə hələ də həbsdə idim. Əslində atamı o qədər qəzəbləndirmişdim ki, həbs olunmamağım üçün addım atmırmış. Sonradan anamın yalvarışları onu bu yoldan döndərib.

Səkkiz aydan sonra ev telefonuna cavabsız zənglər gəlməyə başladı. Həmin gündən sonra həm ailə üzvlərim, həm də qohum əqrəbam məndən uzaqlaşdığı üçün evə gec saatlarda gəlib dinməzcə otağıma keçib yatırdım. Gələn zəngləri anamın götürdüyünü, iki-üç dəfə səsləyəndən sonra dəstəyi asdığını artıq dörd-beş beş gecə idi ki, otağımdan eşidirdim. Sonra narahat edən olmasın deyə, hər gecə

telefonun naqilini şəbəkədən ayırırdılar. Atam hər səhər bununla bağlı müvafiq yerlərə müraciət edəcəyini desə də, unudurdu. Həmin ərəfədə gördüyüm yuxuların birində o zəngin mənə gəldiyi işarə olunmuşdu. Odur ki, bir gecə hamı yatandan sonra telefonun naqilini şəbəkəyə birləşdirərək otağıma gətirdim. Bir qədər gözlədikdən sonra telefon zəng çaldı. Dəstəyi götürməyimlə "Alo" deməyim bir oldu.

- Sənsən?!- Xırıltılı və sakit səslə dillənən Günay idi.

- Hə, mənəm. Necəsən, hardasan? Nə olub sənə...– soruşdum ama o, sözümü kəsərək tələsik danışmağa başladı.

- Qulaq as! Həmin gün hamilə olduğumu anama deyəndə məni döyməyə başladı. Atam xəbər tutan kimi əsəbindən ürəyi tutdu. Dəhşətli bir gün idi. Sabahı gün uşağı abort etdirmək üçün məni xəstəxanaya apardılar. Xəstəxananın həyətindən düşüb qaçdım, – asta səslə danışsa da ağlamağı hiss olunurdu, – məni öldürəcəklərilə qorxutdular. Razı olmadım. Bir həftədən sonra atam başqa yerdən aldığı evə köçdük.

- Bəs...
- Sözümü kəsmə, qurban olum! On beş gün bundan əvvəl oğlumuz dünyaya gəldi... – bu sözləri deyəndə kəlmələr boğazında ilişib qalırdı. Sakit şəkildə hönkürtü ilə ağladığını eşitdikcə, ürəyim parçalanır, göz yaşlarım yastığımı isladırdı...
- Uşağımızı güc-bəlayla əlimdən alıb hansısa körpələr evinə apardılar. Qurban olum, onu tap! Səhv eləmirəmsə... –son cümləsini eşidə bilmədim. Qulağımda telefonun məşğul siqnal səsləri gəlirdi...

Ətrafda və kənarda nə qədər körpələr evi var idisə, hamısına üz tutdum. Hansı körpələr evinə verildiyini, uşağın adını, nə də digər zəruri məlumatları bilmədiyim üçün heç yerdən mənə kömək edən tapılmadı. Günlərlə zəng gözlədim ki, bəlkə Günay zəng vurub dəqiq məlumat verər, amma...Görünür, həmin gecə mənimlə danışdığı üzə çıxdığı üçün onu telefondan məhrum etmişdilər.

O gündən sonra həyatdan tam məhrum olmuş şəkildə gün keçirməyə başladım. Hər kəsdən soyumuş, cəmiyyətdən üz döndərmişdim. Atamın təkidilə qəbul olduğum Tibb Universitetində aldığım

təhsil də mənə kömək etmirdi. Zaman keçdikcə valideynlərimin əvvəlcə məni bağışladığını, daha sonra isə məni evləndirmək istədiklərini anlamağa başladım. Amma hər dəfə məsələni uzatdım.

Daha sonra təsadüfən əlimə keçən fərdi inkişaf vəsaiti mənim həyatımı dəyişdi. İnglis dilini bildiyimdən o kitabı oxumaq mənim üçün o qədər də çətin olmadı. Əvvəlcə özümdə yaranan dəyişikliyi, sonra isə o kitabdan öyrəndiklərimi insanlara tətbiq etdiyim üçün onlarda mənə qarşı yaranan dəyişikliyi görməyə başladım. Onlarla öz dillərində danışmağa başladım. Öyrəndiklərim sayəsində hər kəsə qulaq asmaq istədiyini danışdım, baxmaq istədiyini göstərdim. Baxmayaraq ki, onlar həm "kar" idilər, həm də "kor". Çünki eşitmək - qulaq asmaq, baxmaqsa görmək deyil. Fəqət onlar bunu istəyirdilər.

Daha sonra mənim hisslərimi keçirən insanları həyatdan zövq almaları üçün cəmiyyətə qaytarmaq qərarına gəldim. Əmin idim ki, "karlar" və "korlar" onsuz da müraciət etməyəcəklər. "Öncə özünü tap, sonra hamı səni axtaracaq!"- devizi ilə seminarlar təşkil etməyə başladım.

Azər adlı bu gənci tanıdığım on gün idi. Varlı ailənin yeganə övladı olduğu üçün bütün imkanlarla təmin edilməsinə baxmayaraq, həmin yaşayışdan zövq ala bilmirdi. Tez-tez depresiyaya düşür, tənhalığa qapılırdı. Dəfələrlə çarəni canına qəsd etməkdə görən bu gənci, əslində, dərin düşüncələrə malik bir şəxs kimi tanımağa başladım. Bunları onunla söhbət apardıqca daha dərindən öyrənəcəkdim.

Rəhbəri olduğum fərdi inkişaf akademiyasının sosial şəbəkədə olan səhifəsindən bizimlə əlaqə saxlayan Azəri, əvvəlcə qeyri-ciddi qəbul etsələr də, sonralar şəxsi səhifəsini incələyən ekspertlərim onunla görüşmək qərarına gəliblər. Başqaları tərəfindən psixoloji xəstə kimi görünən Azər, əslində, çox intellektual, kifayət qədər çağdaş elmi-dünyəvi biliklərə sahib, geniş dünyagörüşü dünya və görüşlə bitməyən, fikirləri ilə normal beyinləri düşündürən, lakin bunları qarşısındakına rahatlıqla ifadə edə bilməyən, üstəgəl, onu başa düşən bir kimsənin olmadığına özünü inandırmış şəxs idi.

Şirkətimi yeni qurduğum dövrlərdə bizə müraciət edən insanlarla şəxsən məşğul olduğum

halda, sonralar gündən-günə böyüyən və böyük tələbat duyulan akademiyada yalnız master-klassları özüm tədris etməyə başladım. Yetişdirdiyim altı təlimçi və iki psixoloq indi təməlini qoyduğum bu işin öhdəsindən uğurla gəlirlər. Özüm də ixtisasca həkim olduğum üçün gördüyüm işlər faydasını verməyə başlayıb. Kurslarımıza yazılmaq istəyən insanlar əvvəlcə fərdi olaraq qəbul edilir, onlarla söhbətlər aparılır, təlimlər haqqında məlumatlar verilir, şəxsin təqdim etdiyimiz xidmətlərin hansına uyğun olduğu müəyyənləşdiririk.

İşgüzar keçən oxşar günlərdən birində iş otağımdan çıxıb dəhlizlə giriş qapısına doğru irəliləyirdim. Bu zaman diqqətimi - jalüzün arakəsmələri mane olduğu üçün - simasını tam görə bilmədiyim bir gənc cəlb etdi. Əllərini masanın üstündə birləşdirən, gözlərini barmaqlarına zilləyən, pəncələrini döşəməyə sıxan, dabanlarını sürətlə qaldırıb-endirən bu şəxsin özünü rahat hiss etmədiyi hər saniyəsindən hiss olunurdu. Duruxa-duruxa nəsə danışmağa çalışır, təlimçi isə maraqla ona qulaq asırdı. Onlara hiss etdirmədən bir az da yaxınlaşanda danışıqlarını açıq-aşkar eşidirdim. Əslində əsas

məqsədim təlimçimin onu diskomfort sahədən komfort sahəyə keçirməsini görmək idi. Odur ki, əməkdaşımız Eldarın növbəti sualını eşidə bildim.

- Azər, bəs sən özün necə, bütün bu danışdıqlarına inanırsan?

Azər bir qədər fikrə gedəndən sonra həvəssiz və inamsız tərzdə:

- Nə bilim, - dedi və yenə susdu. Ayaqlarını hələ də sürətlə yuxarı-aşağı hərəkət etdirdi.

Bir qədər susandan sonra danışmağa davam edən Azər hərdən-bir başını qaldıraraq, otağın müxtəlif yerlərinə baxır, elə həmin nöqtələrə də fokuslanırdı.

- Əslində mən elə hesab edirəm ki, əgər fərdlərin düşüncəsi dəyişsə, bəlkə buna nail olmaq olar. Onda yəqin cəmiyyət də düzələr.

- Mən səninlə tam razıyam, – Eldarın özü də gözəl bilirdi ki, ideal insan olmadığı kimi, ideal cəmiyyət də yoxdur. Amma Azərin fikrinə hörmət əlaməti olaraq bunu deməli və onun öz fikrinə inamını artırmalı idi ki, söhbət baş tutsun. Bəlkə elə buna görə Azərin ayaqlarının titrəməsi, bir anlıq da olsa, dayandı və sonradan nisbətən asta sürətlə davam

etdi. – Həqiqətən də, adamlar öncə kim olduqlarını, insan kimi nəyə qadir olduqlarını düzgün dərk etsələr, onda sən deyən kimi, normal, bəlkə də ideal cəmiyyətdə yaşayardıq.

Azər sanki neçə ildən sonra ilk dəfə idi ki, ona nəinki qulaq asan, hətta fikirlərini dəstəkləyən adam tapırmış kimi həyəcanlandı. Artıq gözlərini müxtəlif yerlərə yox, Eldara tərəf dikən Azər ayaqlarını da yellətmirdi. Akademiyanın təlimçisi Eldarın Azəri komfort sahəyə gətirməsini görmək mənə xüsusi zövq verirdi.

- Hə, düzdür, Eldar müəllim. Mən də onu deyirəm də... - Eldarın yaratmış olduğu atmosferdən məmnunluğu gözündən oxunan Azər bir sağa, bir sola hərəkət edərək yerini rahatlayıb davam etdi. - İnandırım sizi, kimə deyirəm, elə hesab edir ki, guya mən dünyanı təkbaşıma xilas etmək istəyirəm... – Onun dodağında təbbəssüm cücərirdi artıq.

Eyni təbəssümlə Eldar Azərə:

- Gəl belə danışaq, bizim aramızda elə də çox yaş fərqi yoxdur. Odur ki, xahiş edirəm, mənə müəllim demə! Bir də mümkünsə, siz-miz məsələsini də yığışdıraq. Razılaşdıq? – dedi.

Təəccüblə Eldarın üzünə baxan Azər xəfif təbəssümlə:

- Necə məsləhətdir, – bildirdi.

- İndi, buyur,eşidirəm səni! – deyə Eldar sağ əlini ona tərəf ehmalca işarə edirmiş kimi uzadıb sonra geri çəkdi. Azər isə dərindən nəfəs alıb sözə başladı. Bu arada mən məqsədimə çatdığım üçün çıxışa doğru üz tutmaq istəyirdim ki, onun sözləri yenidən məni ayaq saxlamağa vadar etdi. Yenə çevrilib onlara qulaq asmağa başladım...

- Universitet vaxtı fəlsəfə müəllimim Diogen haqqında danışanda, doğrusu, mövzunun mahiyyətini yaxşı dərk etməmişdim. Filosof kimi tanındığından yüzlərlə insanın onun tələbəsi olmaq müqabilində xeyli pul ödəmək istədiyinə baxmayaraq, Diogenin bu təklifləri qəbul etmədiyini, Afinada, şəhər meydanındakı çəlləkdə, bazar artıqlarını təmizləyib yeməklə yaşadığını, gündüz vaxtı neft lampası ilə insan axtarışına çıxdığını eşitsəm də, buna ciddi yanaşmamışdım. Onun yaşadıqlarını öz dövrü ilə bağlamış, indiki zamanda yaşadığım üçün özümü xoşbəxt hesab etmişdim. Amma hazırda onunla ruhəkizi olduğumu düşünürəm. Yaşım artdıqca,

ətrafımdakılardan zəhləm gedir, qeyri-səmimi olduqlarını açıq-aşkar görür, xəyanətlərinə dözə bilmirəm. Maddiyatdan beşəlli yapışan bu insanlarla mənəviyyata dair heç nə danışmaq olmur. Adama dəli kimi baxırlar. Belə bir şəraitdə hansı inkişafdan danışmaq olar?!

Eldarın sol qaşını qaldıraraq ona qulaq asması diqqətimdən yayınmadı. Azər isə həyəcan qarışıq rahatlıqla danışmağa davam edirdi.

- Onların sayəsində verdiyim bütün qərarlar səhv olurdu. İş qurmaq istədim, alınmadı. Etibarımdan istifadə edib məni gözüm görə-görə aldatdılar. Başqa bir iş qurmaq istədim valideynlərim dəstək olmadı. Dəfələrlə dostlarımla birlikdə bir yerə qoyduğumuz söz müxtəlif adamlar vasitəsi ilə önümə çıxırdı. Hər dəfə ortalıqda mən qalırdım. Bircə onlardan uzaqlaşmaq qərarım, baxıram ki, indiyə qədər verdiyim ən doğru qərardır... – O, ürəyini boşaldırdı sanki. Gülümsədi. Eldar da Azərə qoşularaq gülümsəyib, onun sözünə əlavə etdi:

- Deməzdim ki, təkcə o qərarın doğrudur.

Azər gülümsəməsinə ara verib Eldarın ağzından çıxacaq sözü gözləyirdi.

- Bax, onların sayəsində sən ikinci doğru qərarı vermisən... Bura gəlmisən... – əməkdaşımın bu sözlərindən sonra qeyri–ixtiyari onların gülüşünə mən də qoşuldum. Bu oğlanın fikirləri məni əməlli-başlı cəlb etmişdi. Belə dəyərli fikirlər sahibinin lazımlı insan olacağını düşünüb onu cəmiyyətə qaytarmaq və bu prosesdə şəxsən özüm iştirak etmək qərarına gəldim. Bunu qapı pusmaqla deyil, onunla şəxsən özüm məşğul olmaqla edəcəkdim...

Qapıya yaxınlaşanda Eldarın mənə tərəf baxmasıyla Azər də özündən asılı olmayaraq, üzünü qapıya tərəf çevirdi. Hər ikisilə uzaqdan salamlaşıb Eldara məsləhətləşmə bitəndən sonra yanıma gəlməsini tapşırdım. Günün ikinci yarısına planlaşdırdığım işimi sabaha saxlayıb otağıma qayıtdım. Bir müddətdən sonra qapı döyüldü və Eldar içəri daxil oldu.

- Eşidirəm, müəllim, – Eldar təəccüblü səslə dedi.
- O oğlanla neylədin? Hansı kursu istəyir? Əsas problemi nədir?
- Əslində ilk baxışda onu depressiyaya meylli birisinə oxşatdım, – Eldar asta addımlarla

yaxınlaşaraq stul çəkib, mənə yaxın əyləşdi. – Həyatda onu yaşamağa həvəsləndirən, motivasiya oyada biləcək çox az dəyərlər var. Bir çox psixoloji məqamlardan məlumatlıdır deyə psixoloqa yönəltmədim. Bunu etməyin mənası da yoxdur. Çünki psixoloqlardan zəhləsi gedir. Düşünür ki, onlar boş-boş danışır, lazımsız dərmanlarla insanları aldadırlar. Zənnimcə, onu fərdi motivasiya kursuna dəvət etsək, daha faydalı olar.

- Onunla özüm məşğul olacam, – deyəndə Eldar duruxdu. Çünki xeyli müddət idi ki, ilk müraciət edənlərə seminar keçmirdim. Bir qədərara verəndən sonra soruşdu:

- Bəs hansı qrupa yazaq?

- Onu tək qəbul edəcəm. Sabah onunla əlaqə saxla və saat on birdə onunla görüşmək istədiyimi bildir, xahiş edirəm.

Eldar təəcübünü gizlədə bilməsə də, məndən əlavə heç nə soruşmadı.

Ertəsi gün saat on birə beş dəqiqə qalmış Azər artıq mənimlə üzbəüz oturmuşdu. Solğun bənizli, ruhən yorğun, qarışıq düşüncəli, mürəkkəb hissiyatlı bu gənci həqiqətən də cəmiyyət bu günə salmışdı.

Ona baxdıqca, öz gəncliyimi, indiki çağımı görürdüm, o danışdıqca, özümü eşidirdim sanki. Azərin yaşında olanda cəmiyyətə olan nifrətimi onun da gözündə görə bilirdim. Ətrafdakı insanların, sevdiklərimizin, hətta valideynlərimizin diqqətsizliyinə, cahilliyinə, xurafatına dair onlarla misal çəkirdi. Ona qulaq asdıqca, nəinki fikirlərimizin, hətta vücudumuzun da bir-birinə bənzəməsi məni təəccübləndirirdi. Bu insanda məni çəkən nəsə var idi. Bu onun mənim gəncliyimə bənzəməsi, həmin yaşdakı düşüncələrimizin eyniliyi deyildi, nəsə başqa bir şey idi. Bunu özü haqqında danışdıqca biləcəkdim.

Son bir neçə gün imiş ki, ailəsindən ayrılıb tək yaşayırdı. Valideynləri həddindən artıq varlı-dövlətli olsa da, Azər onlarla yaşayan zaman özünü heç vaxt rahat hiss etməyib. Atasının dayaz düşüncəli, anasının isə lovğa, özündənrazı olduğunu açıq etiraf edirdi. Ayrılmaqlarına səbəb isə atasının Azəri evə gec gəldiyi üçün vurması olub. Azər ona etiraz edəndə, möhkəm içkili olan ata hər şeyi dilinə gətirərək indiyə qədər elədiklərini onun üzünə deyib. Sən demə, Azər onların heç doğma övladı da deyilmiş. Körpələr

evindən övladlığa götürüldüyü deyəndə ürəyim dayanmışdı az qala. Mən əmin idim ki, Azər elə mənim övladımdı. Onun sonrakı sözlərini eşitmirdim. O danışır, mən isə ona baxaraq həmin günləri xatırlayırdım. Durub boynunu qucaqlayıb, - “Sənin atan mənəm, oğlum!” - deyə çığırmaq istəyirdim, amma bunu etmək olmazdı. Bu, sadəcə, mənim əmin olduğum bir hiss idi. Heç bir rəsmi sübutu olmayan, lakin mənəvi dəlili olan bir fakt idi. O, mənim oğlumdur! Mən buna adım kimi əmin idim...

Nahar vaxtı yetişdiyi üçün onu israrla yeməyə dəvət etdim. Artıq tamamilə açılışmış Azər də mənimlə söhbət etməyə sevinirdi. Naharda da söhbətimiz çox maraqlı alındı. Kitab yazmaq istədiyini, lakin ürək etmədiyini bildirəndə, ona yüksək motivasiya verdim, yazacağı təqdirdə onu öz vəsaitim hesabına nəşr etdirməyi boyun oldum. Cəmiyyət haqqında düşündüklərini kağıza köçürməklə ürəyini boşaldacağına inandıra bildim onu. O qədər sevindi ki, bir an öncə gedib yazmağa başlamaq istədiyin sevinclə bildirdi.

Həmin gün onu yaşadığı yerəmən apardım. Bəhanəm də bu oldu ki, evləri yolumun üstündədir.

Mənzilini dəqiq bilməsəm də, binanı və girişi yadımda saxladım. Onunla son söhbətimizdən üç gün sonra görüşəcəkdik. Bir-iki dərs fərdi, daha sonra isə on nəfərlik qrupda məşğul olacaqdım ki, bəzi komplekslərindən xilas olsun. Amma alınmadı, Azər görüşə gəlmədi. Təyin etdiyimiz görüşə gəlməyincə, daha üç gün gözləmək qərarına gəldim. Çox üstünə gedib sıxmaq istəmirdim.

Amma təəssüf ki, cəmiyyət öz işini görmüşdü. Onu o qədər sıxmışdı ki, Azər canına özü də bilmədən qəsd etmişdi. Yuxarıda oxuduqlarınızı beş günə yazmışdı. Həm də dayanmadan, fasilə vermədən. Evdə qələm olmasına baxmayaraq, axırıncı vərəqləri qanı ilə yazan Azər, söz verdiyi kimi, nəyin bahasına olsa da yazını bitirmişdi.

Yazdıqlarını ilk dəfə oxuyanda, onunla söhbətimizi xatırladım. O, insan haqqında öz fikirlərini bildirəndə, əvvəl təəccüblənmişdim. Əsaslandırmağa çalışırdı ki, hər bir insanın təbiətdə ekvivalenti mövcuddur. Kimisi özü də bilmədən hansısa heyvanla, kimisi hansısa bitkiylə, kimisi hansısa daşla ekvivalentdir. Özünü isə pişiklə bərabərləşdirən Azər təbəssümlə doqquz canlı

olduğunu bəyan edirdi. Özü kimi bu taleyi yaşayan onlarla insanın mövcudluğunun altından xətt çəkərək, onların necə “öldürüldüyünün” şahidi olduğu üçün əzab çəkdiyini deyirdi. Odur ki, bu əzabdan yaxa qurtarmaq üçün bizə müraciət edərək ilk addımı atmışdı. Lakin bizim görüşümüzdən sonra başladığı bu yazının ilk kəlməsini yazarkən, harda olduğunu unudacaq qədər daxili dünyasında azan Azərə son anda yetişməsəydik bəlkə o da yaşamayacaqdı. O, gah həbsxanada - bərbad bir biçimdə, gah da həyatın müxtəlif mərhələlərində “yaşayaraq” “ölmüşdü”. Bütün intihar edən qəhrəmanlarının meyitinin gözünə görünməməsinin tək səbəbi, onların, ümumiyyətlə, mövcud olmaması idi. Bu müddət ərzində apardığım araşdırmalar nəticəsində öyrəndim ki, Azər əslində ögey atasının müxtəlif rayonlarda işi ilə əlaqədar olaraq dörd dəfə məktəb dəyişib və hər dəfə özəl məktəblərdə təhsil alıb, yəni nə Cavidanı, nə də Əhmədi bu qədər yaxından tanıya bilməzdi. Bundan başqa, Azər ümumiyyətlə hərbi xidmət keçməyib. “Atası” hansısa yolla onun görən gözünü demək olar ki, kor kimi qeydiyyatdan keçirib. Ən diqqət çəkən məqam isə onun heç vaxt uzun müddətli xəstəxanada

yatmamış olmasıdır... Belə çıxır ki, qələmə aldığı bütün hadisələr ya tamamilə xəyal məhsuludur, ya da kimlərinsə yaşadığı həyat hekayələrində özünü onların yerinə qoymaqla, səkkiz dəfə qəlbən, doqquzuncu dəfə isə az qala, cismən öləcəkdi. Və özü bunu bilməsə də, onun "dostları"nın qatili elə onların adlarının baş hərflərində gizlənmişdi...

Mən isə bu sətirləri öz evimdən yazıram. Masamda Azərin iki il bundan əvvəl sonunu qanla qələmə aldığı əlyazmaları və indicə gəlinim tərəfindən hazırlanan isti kofem, yanımda balaca səbət yatağına qoyulmuş və yuxusunda cənnəti dolaşan nəvəm, önümdə isə payızın yaratdığı qızılı-qırmızılı meşəyə açılan pəncərəmdən görünən və yaşamaqdan zövq alan oğlum - mənim üçün dünyanın ən yaxşı yazıçısı Azər...

***Bakı - Şirvan***
***May - dekabr 2014***